**Cild: 17 Say: 2** **ISSN 2218 – 0346**
**2014**

# AZƏRBAYCAN ARXEOLOGİYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş Redaktor**
Qüdrət İsmayılzadə

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev
Bəhlul İbrahimli

**Məsul katib**
Sevda Hüseynova

**İşçi heyəti**
Xəqani Həbibzadə
Aygün Qəşəmova
Ləman Babaşlı

**Redaksiya heyəti**

Yüksel Sayan (Türkiyə)
İsmayıl Hacıyev (Azərbaycan)
Bertyill Lyonnet (Fransa)
Rauf Munçayev (Rusiya)
Mehmet Özdoğan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Otar Caparidze (Gürcüstan)
Ayman Dosimbayeva (Qazaxıstan)
Maya Rəhimova (Azərbaycan)
Mehmet İşıqlı (Türkiyə)
Lauren Listven (ABŞ)
Andreas Şaxner (Almaniya)
Murtuzəli Hacıyev (Rusiya)

**Volume: 17 Number: 2** **ISSN 2218-0346**
**2014**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Editorial Assistants**
Roza Arazova
Tarikh Dostiyev
Bahlul Ibrahimli

**Deputy Editors**
Sevda Huseynova

**Staff members**
Xaqani Habibzadeh
Aygun Qashamova
Laman Babashli

**Editorial Board**

Yuksel Sayan (Turkey)
İsmail Hajiyev (Azerbaijan)
Bertille Lyonnet (France)
Rauf Munchayev (Russia)
Mehmet Ozdoghan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Otar Japaridzeh (Georgian)
Ayman Dosimbayeva (Kazakhstan)
Maya Rahimova (Azerbaijan)
Mehmet Ishikli (Turkey)
Lauren Listvest (USA)
Andreas Schachner (Germany)
Murtuzali Hajiyev (Russia)

© COPYRIGHT©1999  Khazar University Press
All Rights Reserved

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 11
Xəzər Universitəsi

Khazar University 11 Mehseti str.,
Baku AZ1096 Republic of
Azerbaijan

Üz qabığında:

Qaraköpəktəpə yaşayış yeri. Fizuli rayonu.

Cover page depicts:

Settlement Garakopektepe. Fizuli region.

На обложке:

Поселение Гаракепектепе. Физулинский район.

Telefon: (99412) 4217927 (219)
Faks: (99412) 4989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



*...Arxeoloqlar bu peşəni təmənnasız seçiblər. Arxeoloq üçün yer üzündə bu peşədən maraqlı peşə yoxdur. Bütün təhlükələrə sinə gərərək sirri açılmayan yerləri fəth edirlər. Bir vaxt gələcək onların adı dünya mətbuatının səhifələrinə yazılacaq.*

***Erik Seren***

*...For archaeologiststhere is nothing more interesting than their jobs. They live in danger face to face with undiscovered mystery. Sooner or later this will be revealed and the world media will mention their names.*

***Eric Cerren***

*... Для археологов во всем мире не существует более интересной профессии, чем избранная ими. Они живут среди опасностей, с глазу на глаз с неоткрытой ещё тайной. Не сегодня – завтра она может быть раскрыта, и тогда мировая пресса назовет их имена.*

***Эрик Церен***

# İÇİNDƏKİLƏR

Roza Arazova, Tarix Dostiyev, Bəhlul İbrahimli - Professor Qüdrət Seyfulla oğlu İsmayılzadənin anadan olmasının 80 illiyinə ................ 9

## TƏDQİQATLAR

Nərgiz Axundova - Azərbaycanda qədim metal istehsalı ilə bağlı yaşayış yerləri ........................................................................ 20
Diana Cəfərova - Azərbaycanın qədim dövr abidələrindən tapılan qızıl əşyalar və onların mənşəyi məsələsi .................................................. 27
Leyla Rüstəmova - Gəncə-Qazax bölgəsinin erkən metallurgiya və metalişləmə sənətinin xammal mənbələri .......................................... 36
Hidayət Cəfərov - Qarabağda Xocalı-Gədəbəy mədəniyyətinin II inkişaf dövrünə aid yeni abidələr kompleksi ...................................... 43
Mübariz C. Xəlilov - Füzuli rayonunun ilk orta əsr abidələri ...................... 51
Tarix Dostiyev - Orta əsr Şəmkir şəhərinin marqans naxışlı şirli saxsı qabları ........................................................................................ 59
Sevinc Şirinli - Qayaüstü incəsənətdə at və atlı təsvirləri ........................... 67
Qənirə Pirquliyeva - Azərbaycanın Sasanilər və Ərəb xilafəti dövründə numizmatik materiallarının ikonoqrafik xüsusiyyətləri ........................74
Nuridə Atəşi Qədirova - Berlin muzeyinin Qafqaz kolleksiyası ................ 82

## ELM TARİXİ

Qüdrət İsmayılzadə - Şərəfli ömür yolu ...................................................... 93

## BİZİM MÜSAHİBƏ

Axtarışlarda keçən ömür...........................................................................................98

**XRONİKA, RƏYLƏR, MƏLUMATLAR ....................................................105**

## CONTENTS

Roza Arazova, Tarikh Dostiev, Bahlul Ibrahimli - On the $80^{th}$ anniversary of professor Gudrat Seyfulla oglu İsmailzadeh................. 9

**RESEARCHES**

Nargiz Axundova - Settlements of metal production in Azerbaijan............ 20
Diana Jafarova - Gold objects found from the ancient monuments of Azerbaijan and the problem of their origin....................................... 27
Leyla Rustamova - Raw material sources of the art of early metallurgy and metalworking in Ganja- Gazakh region .................... 36
Hidayat Jafarov - The new complex of monuments of the second period of Khojaly-Gadabay culture of Karabakh ............................... 43
Mubariz Khalilov - Early medieval monuments of Fizuli region................ 51
Tarikh Dostiev - Glazed pottery of medieval Ghamkir with manganese ornaments ...................................................................... 59
Sevinj Shirinli - Horse and horse-rider in the rock art................................ 67
Ganira Pirguliyeva - İconographic features of numismatical materials of Azerbaijan period Sasanidov and Arab caliphate........................... 74
Nourida Gadirova Ateshi - Caucasian collection of the Berlin museum........................................................................................... 82

**SCIENTIFIC HISTORY**

Gudrat Ismailzade – Honourable life .......................................................................93

**OUR INTERWIEV**

Life full of research and investigation......................................................................98

**CHRONICLES, REVIEWS, INFORMATION.......................................... 105**

## СОДЕРЖАНИЕ

Роза Аразова,Тарих Достиев, Бахлул Ибрагимли - К 80-летию со дня рождения профессора Гудрата Сейфулла оглу Исмаилзаде ........ 9

**ИССЛЕДОВАНИЯ**

Наргиз Ахундова - Поселения эпохи металлопроизводства Азербайджана ........ 20
Диана Джафарова - Золотые изделия из древних памятников Азербайджана и вопросы их происхождения ........ 27
Лейла Рустамова - Сырьевые источники раннего искусства металлургии и металлообработки Гянджа-Газахского региона ........ 36
Гидаят Джафаров - Новые комплексы памятников второго этапа Ходжалы-Кедабекской культуры Гарабаха ........ 43
Мубариз Халилов - Раннесредневековые памятники Физулинского района ........ 51
Тарих Достиев - Глазурованная керамическая посуда средневекового города Шамкир росписью марганцем ........ 59
Севиндж Ширинли - Конь и всадник в наскальном искусстве ........ 67
Ганира Пиргулиева - Иконографические особенности нумизматических материалов Азербайджана период Сасанидов и Арабского халифата ........ 74
Нурида Гадирова Атеши - Кавказская коллекция Берлинского музея ........ 82

**ИСТОРИЯ НАУКИ**

Гудрат Исмаилзаде - Достойный жизненный путь ........ 93

**НАШЕ ИНТЕРВЬЮ**

Жизнь прожитая в поисках ........ 98

**ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ ........ 105**

# PROFESSOR QÜDRƏT SEYFULLA OĞLU İSMAYILZADƏNİN ANADAN OLMASININ 80 İLLİYİNƏ

**Roza Arazova**
(Xəzər Universiteti)
rarazova@khazar.com
**Tarix Dostiyev**
(Bakı Dövlət Universiteti)
dostiyev_tarikh@yahoo.com
**Bəhlul İbrahimli**
(AMEA-nın Arxealogiya və Etnoqrafiya İnstitutu)
ibrahimlib@mail.ru

**Açar sözlər: Azərbaycan, Q.S.İsmayılzadə, arxeoloq, Qaraköpək-təpə, Tunc dövrü.**

2014-cü ildə görkəmli alim və pedaqoq, arxeologiya və qədim dünya tarixi sahəsində respublikanın aparıcı mütəxəssislərindən biri, Beynəlxalq Arxeoloqlar Cəmiyyətinin Şərq bölməsi üzrə Azərbaycan bölməsinin sədri, "Azərbaycan Arxeologiyası" jurnalının baş redaktoru, Bakı Dövlət Universitetinin Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri, əməkdar müəllim, tarix elmləri doktoru, professor Qüdrət Seyfulla oğlu İsmayılzadənin səksəninci dəfə doğum günü qeyd olunur. Onun uğurlu həyat yolunun 55 ili arxeologiya elmi ilə sıx, ayrılmaz bağlıdır. Azərbaycanın, Cənubi Qafqazın tunc dövrü mədəniyyətini tədqiq edən elə bir arxeoloq, tarixçi və mədəniyyətşünas tapılmaz ki, yubilyarın elmi irsindən bəhrələnməsin. Professor Qüdrət Seyfulla oğlu İsmayılzadənin əsərləri Kür-Araz mədəniyyətinin öyrənilməsində təməl daşını təşkil edir.

Qüdrət İsmayılzadə 1934-cü ildə Bakı şəhərində tanınmış neftçi, buruq ustası Seyfulla Xudadat oğlunun ailəsində dünyaya göz açmışdır. Ağır müharibə illərinə təsadüf edən uşaqlıq illərində yaşadığı çoxmillətli Suraxanı qəsəbəsindəki məhəllə sakinlərinin bütün çətinliklərə baxmayaraq mehriban qonşuluğu, qarşılıqlı yardımı və qayğıkeşliyi onun xarakterinin formalaşmasında özünəməxsus rol oynamış, milli dil və din mənsubiyyətindən asılı olmayaraq müxtəlif xalqların adət-ənənəsinə, tarix və mədəniyyətinə maraq göstərməsinə səbəb olmuşdur. Qüdrət İsmayılzadə hələ məktəb illərində o zamankı Bakı Pionerlər Sarayının Tarixsevərlər dərnəyinin və Bakı Gənc Səyahətçilər Klubunun fəal üzvü olmuş, respublika və Ümumittifaq müsabiqə və olimpiadalarında uğurla iştirak edərək dəfələrlə həmin bilik və bacarıq yarışlarının qalibi olmuş, birinci dərəcəli diplomlara, fəxri fərmanlara və yüksək mükafatlara layiq görülmüşdür.

Tarixi keçmişimizə və onun yadigarlarına böyük maraq vətənpərvər gəncin arxeoloq-tarixçi ixtisas seçimini şərtləndirmiş və o, 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuş, 1957-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Nadir arxeoloji abidələr və etnoqrafik ənənələrlə zəngin Yardımlı bölgəsinə təyinat alan gənc tarixçi-müəllim Arus və Mirimli kənd məktəblərində tarix və rus dili fənlərindən dərs demiş, burada işlədiyi müddətdə bütün səy və bacarığını şagirdlərdə Azərbaycanın ulu tarixinə maraq oyatmağa, xalqımızın mədəni irsinə məhəbbət aşılamağa yönəltmişdir. Uzaq dağ bölgəsinin zəngin arxeoloji abidələri və etnoqrafiyası ilk vaxtlardan gənc müəllimin diqqət mərkəzində olmuş və o, boş vaxtlarını onların qeydə alınması və öyrənilməsinə sərf etmişdi. Qüdrət müəllim bu işə şagirdlərini də cəlb etmiş, təşkil etdiyi Tarixi sevərlər-diyarşünaslıq dərnəyinin üzvləri ilə birlikdə Yardımlı bölgəsinin tarixi keçmişi, abidələri, etnoqrafiyası və folkloru üzrə zəngin faktiki materiallar toplamış, qeydlər və müşahidələr aparmışdır. Onun bu sahədəki uğurlu addımları diqqətdən kənarda qalmamış və tezliklə Q.S.İsmayılzadə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun Arxeologiya bölməsinə işə dəvət olunmuşdur. Arxeoloq olmaq arzusu ilə yaşayan Qüdrət müəllim ilk iki il ərzində ayrı-ayrı arxeoloji ekspedisiyaların tərkibində Gəncə-Qazax bölgəsində, Mil-Qarabağ düzündə, Daşkəsən-Dəstəfur-Xaçbulaq yaylaqlarında, Şirvanda, Qobustanda və başqa yerlərdə çöl axtarışlarında olmuş, İ. M. Cəfərzadə, A. A. İessen, S. M. Qazıyev, Q. M. Əhmədov, İ. H. Nərimanov, M. H. Hüseynov, Ö. Ş. İsmizadə, Q. M. Aslanov, R. M. Vahidov və digər təcrübəli arxeoloqların rəhbərliyi altında çöl arxeoloji tədqiqat metodlarına yiyələnmiş, gözəl arxeoloji məktəb keçmişdir. 1959-1960-cı illərdə gənc arxeoloq Qüdrət İsmayılzadə SSRİ Elmlər Akademiyası ilə Azərbaycan Elmlər Akademiyasının birgə təşkil etdiyi Azərbaycan arxeoloji ekspedisiyasında iştirak etmiş, dünya şöhrətli qafqazşünas alim A.A.İessenin rəhbərliyi ilə Mil düzündə Üçtəpə kurqanlarında və Örənqala şəhər yeri abidələrində qazıntı işləri aparmışdır.

1960-cı ildə Azərbaycan Elmlər Akademiyasının aspiranturasına daxil olan Qüdrət İsmayılzadə Qazax bölgəsi ərazisində yerləşən "Baba-Dərviş qədim yaşayış yerinin arxeoloji tədqiqi" mövzusunda araşdırmalar aparmağa başlayır və bununla da başlıca tədqiqat istiqamətini – Azərbaycanda tunc dövrü problemlərinin araşdırılması seçimini etmiş olur, bu sahədə böyük uğurlar qazanır. Aspirantura illəri onun peşəkar arxeoloq kimi yetişdiyi, böyük təcrübə topladığı bir mərhələ kimi çox əhəmiyyətlidir. A.A.İessen, B.B.Piotrovski, Y.İ.Krupnov və V.M.Masson kimi görkəmli mütəxəssislərlə təması, o cümlədən elmi rəhbəri, tanınmış qafqazşünas alim, akademik O. M.Çaparidzenin rəhbərliyi altında tədqiqatlar aparması ona nəzəri səviyyəsini yüksəltməkdə, arxeologiya elmində daha dərin biliklərə yiyələnməkdə müsbət təsirə malik olmuşdur. Beş il ərzində ardıcıl olaraq Baba-Dərviş və

erkən əkinçiliklə bağlı digər yaşayış yerlərində arxeoloji qazıntılarda iştirak edən gənc alim tədqiqat işi üçün zəngin faktiki materiallar toplamış, hələ aspiranturanı bitirməmiş dissertasiya işini başa çatdırmış və 1964-cü ilin əvvəllərində onu Tbilisi Dövlət Universiteti nəzdindəki İxtisaslaşdırılmış Dissertasiya Şurasında uğurla müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. Gənc alim həmin dissertasiya işində Baba-Dərviş yaşayış yerindən əldə edilmiş arxeoloji materiallar əsasında Azərbaycanın erkən əkinçilik mərkəzlərindən biri olmasını, bu ərazidə yerli zəmin əsasında tunc dövrü mədəniyyətinin təşəkkül tapmasını elmi əsasda sübuta yetirmişdir. Dissertasiya işində irəli sürülən cəsarətli müddəalar bütövlükdə Qafqaz arxeologiyası üçün böyük əhəmiyyət kəsb etmişdir. Sonradan monoqrafiya şəklində nəşr olunan həmin tədqiqat əsəri Q.S. İsmayılzadənin ciddi tədqiqatçı kimi Kür-Araz mədəniyyəti problemini araşdıran mütəxəssislər arasında böyük nüfuz qazanmasına səbəb olmuşdur (1).

Qüdrət Seyfulla oğlu İsmayılzadə 25 ildən artıq bir müddətdə Azərbaycan Elmlər Akademiyası və Bakı Dövlət Universitetinin birgə ekspedisiyasına rəhbərlik edərək Kirs dağının ətəklərindən Araz çayına qədər uzanan geniş ərazidə onlarla qiymətli arxeoloji abidələri üzə çıxarmışdır. Həmin ekspedisiyanın təşkilinə qədər Qarabağda erkən tunc dövründən orta əsrlərədək geniş xronoloji çərçivəyə malik, yaxşı öyrənilmiş çoxtəbəqəli arxeoloji abidə yox idi. Alim Qaraköpəktəpə yaşayış yerinin arxeoloji tədqiqinə böyük zəhmət sərf etmiş, Qarabağın bu çoxtəbəqəli unikal abidəsini səbrlə təbəqə-təbəqə qazaraq, onun bir sıra sirlərini açmışdır.

Qüdrət müəllim elmi axtarışlarda həmin abidənin əhəmiyyətini belə qiymətləndirir: "Axtarış yollarında arxeoloq yüzlərcə abidə ilə rastlaşır. Bunların hamısını o, fərq qoymadan dəqiq şəkildə qeydə alır, tədqiq edir və öyrənir. Lakin bu abidələrdən yalnız biri ona ən yaxın sirdaş ola bilir, məhəbbətini qazanır və nəhayət, bütün varlığı ilə onun həyatına daxil olur. Əslində, arxeoloqun özü könüllü şəkildə həyatını bu abidəyə həsr edir, onunla qaynayıb-qarışır. Elə buna görə də arxeoloqun adı sonralar bu abidə ilə qoşa çəkilir. Mənimsə həyatıma silinməz iz salan belə bir abidə Füzuli rayonundakı Qaraköpəktəpədir" (2, s. 16).

Mədəni təbəqənin zənginliyinə görə Qafqazın və Yaxın Şərqin ən nadir abidələrindən olan Qaraköpəktəpədə 25 ildən artıq bir müddətdə aparılmış arxeoloji qazıntılar nəticəsində xalqımızın yurdsalma ənənələrinə və qədim memarlığına dair çoxlu tikinti qalıqları üzə çıxarılmış, təsərrüfat məişəti, adət-ənənələri, dini görüşləri, mədəni həyat tərzi və incəsənətinə dair zəngin informasiya potensialına malik 10 mindən artıq maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Qazıntılar nəticəsində aşkar olunmuş arxeoloji materiallar tunc dövrü mütəxəssislərində böyük maraq doğurmuş və onlar həmin tapıntıları yüksək qiymətləndirmişlər. Bu nöqteyi-nəzərdən Şərqin er-

kən sivilizasiyasının görkəmli tədqiqatçısı akademik V.M. Massonun azərbaycanlı alimin Kiçik Qafqazın cənub-şərq ətəklərində Kür-Araz mədəniyyəti abidələrinin, ilk növbədə Qaraköpəktəpənin arxeoloji tədqiqinə verdiyi yüksək qiymət diqqətəlayiqdir: "Müəllif arxeoloji çöl tədqiqatlarında yaşayış yerlərinin qapalı qrupunu tədqiq edərək onlarda həm şaquli, həm də üfüqi qazıntılar aparmış, Azərbaycan ərazisində qədim cəmiyyətlərin məişət və təsərrüfat fəaliyyətinin müxtəlif cəhətlərini hərtərəfli, eləcə də müəyyən dərəcədə ictimai münasibətləri və ideoloji təsəvvürləri səciyyələndirən nümunələrdən ibarət olduqca zəngin kolleksiya əldə etmişdir" (3, s. 3).

Q.S.İsmayılzadə Qaraköpəktəpədəki geniş arxeoloji qazıntıları kəşfiyyat xarakterli axtarışlarla uğurla uzlaşdırmış, bölgə ərazisində müxtəlif dövrlərə və mədəniyyətlərə mənsub çoxlu abidələr aşkarlayaraq, onlarda ilkin tədqiqatlar aparmışdır. Həmin abidələr arasında Yeddítəpə nekropolunu xüsusilə qeyd etmək lazımdır. Arxeoloji qazıntılar zamanı bu nekropoldan oxşarı olmayan yüzlərlə nəfis gümüş, tunc, şüşə və saxsı qablar, tuncdan hazırlanmış kiçik ölçülü heykəllər, zərgərlik və digər sənət nümunələri tapılmışdır (4).

Tunc dövrü problemləri, xüsusilə iqtisadi, ictimai və mədəni həyatda köklü dəyişikliklərlə səciyyələnən və Qədim Şərqin erkən əkinçilik mədəniyyətləri arasında mühüm yer tutan Kür-Araz mədəniyyətinin ümumi problemlərinin həllində Qüdrət İsmayılzadənin tədqiqatları çox uğurlu və səmərəli olmuşdur. O, bu qədim parlaq mədəniyyətin tədqiqinə 160-dən artıq elmi əsər həsr etmişdir. Onun Kür-Araz mədəniyyətinin yaranması, tarixi kökləri, genezisi, xronoloji çərçivəsi və ardıcıl inkişaf mərhələləri, etnik mənsubiyyəti, yerli tayfaların mədəni-tarixi inkişafında rolu, Qafqaz və Azərbaycan tarixində yeri haqqında elmi nəticələri və mülahizələri tədqiqatçılar tərəfindən həmişə böyük maraqla qarşılanmış və ciddi nəticələr kimi qəbul olunmuşdur. 1983-cü ildə Qüdrət İsmayılzadə Tbilisi şəhərində - Gürcüstan Elmlər Akademiyasının Dissertasiya Şurasında uğurla müdafiə etdiyi, 2008-ci ildə monoqrafiya şəklində nəşr etdirdiyi (3) doktorluq dissertasiyası ümumdünya arxeologiyasının mühüm problemlərindən sayılan «Kür-Araz mədəniyyəti» ilə bağlı olub yerli və xarici mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir.

Q.S.İsmayılzadənin tədqiqatlarının mühüm bir istiqamətini Azərbaycan ərazisində qədim qayaüstü təsvirlərin aşkarlanıb öyrənilməsi təşkil edir. O, keçən əsrin 70-ci illərinin əvvəllərində yüksək dağlıq bölgədə-Kəlbəcərdə e.ə. IV-I minilliklərə aid edilən 2 mindən artıq qayaüstü rəsmləri qeydə alaraq tədqiq etmişdir (5). Öz mövzu dərinliyinə, tarixi və bədii dəyərinə görə Kəlbəcər qayaüstü təsvirləri 1977-ci ildə Moskvada keçirilən elmi simpoziumda ittifaq miqyasında ilin ən dəyərli arxeoloji kəşfi kimi qiymətləndirilmişdir. İstedadlı alim Kəlbəcər qayaüstü rəsmlərini tədqiq etmək, elmi döv-

riyyəyə daxil etməklə kifayətlənməyərək Ümumazərbaycan qayaüstü rəsmlərinin səciyyəsi və Avrasiya məkanın ən qədim incəsənətində onların yeri ilə bağlı araşdırmalar aparmış, bu istiqamətdə tədqiqatlarının yekunları barədə beynəlxalq elmi məclislərdə mütəxəssislərin maraqla qarşıladığı dərin məzmunlu məruzələr etmişdir (6, s. 61-63).

2009-cu ildən professor Q.S.İsmayılzadənın çöl tədqiqatlarının yeni bir istiqaməti müəyyənləşir. Təcrübəli arxeoloq Naxçıvan diyarında nisbətən zəif öyrənilən son tunc-erkən dəmir və antik dövrlərə aid abidələrin tədqiqinə başlayır. Yubilyarın etirafına görə Naxçıvan diyarının qədim abidələrinə həmişə hədsiz marağı olmuşdur. Sovet dönəmində, Naxçıvan arxeoloji ekspedisiyasının tərkibində bir neçə dəfə qazıntılarda iştirak etsə də, bu onun marağını qane etməmişdir. 2009-2013-cü illərdə professor Q.S. İsmayılzadənin rəhbərliyi altında Xaraba-Gilan arxeoloji ekspedisiyasının II dəstəsi Rəsul dərəsi şəhər tipli yaşayış yerində uğurlu arxeoloji qazıntılar aparır və həmin tədqiqatlar nəticəsində Naxçıvan diyarının dəmir və antik dövrünün bəzi mühüm problemlərinin qoyulub həll edilməsinə imkan verən faktik materiallar əldə olunub. Bu abidə Naxçıvan MR Ordubad rayonu ərazisində, Gilan çayın sağ sahilində, 50 hektara qədər sahəni əhatə edən bol sulu bir dərədə yerləşir. Burada 5 il müddətində aparılan arxeoloji qazıntılar nəticəsində iki yaşayış evi kompleksi, bir istehsala bağlı tikili qalıqları, üç qəbir abidəsi aşkar edilərək tədqiq olunub (7, s.123-131; 8,s. 150-154; 9, s. 152-158; 10, s.190-195; 11, s. 176-179). 2013-cü ildə professor Q.S.İsmayılzadənin Bəhlul İbrahimli ilə birgə çap etdirdiyi "Qızılburun nekropolu" kitabı (12) nəinki Naxçıvan diyarının, bütövlükdə Azərbaycanın son-tunc-erkən dəmir dövrünə aid nadir arxeoloji abidələrdən olan Qızılburun nekropolunun səciyyəsinə həsr olunub.

Professor Q.S.İsmayılzadə Azərbaycan arxeologiyasının ümumi və nəzəri məsələlərinin araşdırılmasında, onun nəzəri səviyyəsinin yüksəldilməsində də yaxından iştirak edir. Erkən əkinçi təsərrüfat-məişət komplekslərinin öyrənilməsi metodikasına, çoxtəbəqəli abidələrin xüsusiyyətlərinə, erkən əkinçilik dövrünün səciyyəsinə dair araşdırmaları bu qəbildən olan əsərlərdir.

Qüdrət müəllim arxeologiya və tarix elmlərinin, Azərbaycanın qədim mədəni irsinin, qədim və zəngin tarixinin təbliğində, geniş oxucu kütləsinə çatdırılmasında da öz qüvvə və bacarığını əsirgəmir. Vətənpərvər alimin bu sahədə də fəaliyyəti məhsuldar və uğurludur. Onun vətən abidələrinə, xalqımızın qədim mədəni irsinə sonsuz məhəbbət, bu mədəni irsin üzə çıxarılıb tədqiqində və təqdim olunmasında arxeoloqların yorulmaz fəaliyyətinə, onların çətin, lakin nəcib əməyinə dərin hörmət aşılayan "Abidələr, xatirələr, düşüncələr", "Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri", "Arxeoloqun çöl gündəliyindən" kitabları, "Elm və həyat", "Azərbaycan ar-

xeologiyası" jurnallarında dərc olunan məqalələri həmişə geniş oxucu auditoriyası tərəfindən böyük maraq və məhəbbətlə qarşılanmışdır. "Arxeoloqun çöl gündəliyindən" kitabına ön söz yazan professor Hamlet İsaxanlı qeyd edir ki, "Romantika sevən, təbiətin "yatmış" sirlərini oyatmaq istəyən, kəşf macərasını yaşamaq arzusunda olan gənclərin geoloq və ya arxeoloq olmaq istəyi hamıya məlumdur. Bu arzunun kökündə çox zaman orta məktəb illərində oxunan populyar və ya bədii ədəbiyyat, bəzən də ağıllı adamların (onlarla təmasda olmaq xoşbəxtliyi nəsib olduğu halda) söylədiyi hekayə və nağıllar dayanır." (13). Tam ədalətli olaraq belə kitablar sırasına yubilyarın "Abidələr, xatirələr, düşüncələr" və "Arxeoloqun çöl gündəliyindən" kitablarını da daxil etmək olar.

Qüdrət İsmayılzadənin ötən əsrin 70-ci illərində orta məktəb şagirdləri üçün hazırladığı «Qədim dünya tarixi» dərsliyi uzun müddət ən nüfuzlu dərs vəsaiti hesab olunmuş, istər şagird, istərsə də müəllimlər tərəfindən yüksək qiymətləndirilmişdir.

Tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə Azərbaycan hüdudlarından kənarda da nüfuzlu alim kimi tanınır, onun tədqiqatları diqqətlə izlənilir. O, Rusiya, Gürcüstan, Almaniya, İngiltərə, Fransa, ABŞ, Macarıstan, Polşa, Türkiyə, Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Rumıniya, İtaliya, İran, Pakistan, Hindistan, Koreya, Yaponiya, Çin və başqa ölkələrin arxeoloqları və tarixçiləri ilə sıx əlaqə saxlayır. Qüdrət müəllim Altıntəpə, Troya və Boğazköy kimi dünya əhəmiyyətli arxeoloji abidələrinin qazıntılarında iştirak etmiş ilk azərbaycanlı arxeoloqdur.

Görkəmli alim Azərbaycan arxeologiya elmini beynəlxalq elmi məclislərdə layiqincə təmsil edir. Onun Moskva, Sankt-Peterburq, Ştutqart, Tubengen, Saar-Bruken, Berlin, Ankara, İzmir, Aşqabad, Bişkek, Buxara, Səmərqənd, Tehran, Tbilisi şəhərlərində keçirilən ümumittifaq və beynəlxalq konfrans və simpoziumlarda Azərbaycan arxeologiyasının ayrı-ayrı aktual problemləri üzrə məzmunlu məruzələri maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.

Professor Qüdrət İsmayılzadənin elmi-pedaqoji sahədə, xüsusilə "Qədim Şərq", "Antik tarix", "Arxeologiya" fənlərinin tədrisində xidmətləri böyükdür. Keçən əsrin 70-ci illərinin əvvəlləində Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daimi işə dəvət olunan alim burada elmi tədqiqatlarını davam etdirməklə yanaşı fəal şəkildə tədrisə, gənc nəslin təlim-tərbiyəsinə qoşulmuşdur. Geniş erudisiyaya malik alim, gözəl natiq, təmənnasız öz bilik və təcrübəsini gənc nəslə çatdırmağa səy göstərən, qayğıkeş pedaqoq tələbələrinin xarakterinin formalaşmasında müsbət təsir göstərir. O, elmi-pedaqoji fəaliyyətini təkcə Bakı Dövlət Universiteti ilə məhdudlaşdırmayaraq müxtəlif illərdə respublikanın bir sıra ali məktəblərində də yüksək məzmunu ilə fərqlənən mühazirələr oxumuşdur. Professor Qüdrət İsmayılzadə Xəzər Uni-

versitetində pedaqoji fəaliyyət göstərmiş "gənc nəslin təlim – tərbiyəsində fəal iştirak etmiş, "Qədim sivilizasiyalar", "Arxeologiya" fənnlərini tədris etmişdir. 2010-cu il mayın 26-da onun "Arxeoloqun çöl gündəliyindən" kitabının təqdimat mərasimi keçirilmişdir. 2014-cü il dekabrın 9-da isə Xəzər Universitetinin Konfrans zalında Tarix və Arxeologiya departamentinin təşkilatçılığı, tələbələrin təşəbbüsü ilə professor, arxeoloq, pedaqoq Qüdrət İsmayılzadənin "Axtarışlarda keçən ömür" adlı 80 illik yubiley tədbiri keçirilmişdir.

1991-ci ildən Xəzər Universitetində çap olunan arxeologiya elmində böyük nüfuz qazanmış "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru kimi fəaliyyəti davam edir. Bu jurnal Azərbaycanda arxeologiya elminin yaranma və inkişaf tarixini , nailiyyətlərini işıqlandırmağa yönəldilsə də əhatə dairəsi və istiqamətləri daha geniş və çoxsahəlidir. Jurnalın "Tədqiqatlar", "Maraqlı tapıntılar", "İşğal olunmuş abidələr", "Tələbələrə kömək" və digər bölmələrində Azərbaycan və dünya arxeologiyasının mühüm problemləri və yenilikləri daim diqqət mərkəzindədir.

1989-1990-cı illərdə isə professor Q.S. İsmayılzadə Almaniya Federativ Respublikasında Azərbaycan tarix elminin ləyaqətli təbliğatçısı olmuş, xalqımızın zəngin mədəni irsi haqqında silsilə mühazirələr oxumuşdur.

Qüdrət müəllimin yüksək ixtisaslı kadrların hazırlanmasında da xidmətləri böyükdür. O, 12 fəlsəfə doktoru və 1 elmlər doktoru dissertasiyasına rəhbərlik etmiş, istər ölkə daxilində, istərsə də qonşu respublikalarda müdafiə olunan onlarla dissertasiya işinə yüksək peşəkarlıq nöqteyi-nəzərdən opponentlik etmiş, onların müəlliflərinin müvafiq elmi dərəcə almasına xeyirdua vermişdir.

Q.S. İsmayılzadə elmi redaktor kimi də böyük nüfuz qazanmışdır. O, onlarla əsərin, bir sıra sanballı monoqrafiyaların elmi redaktorudur. Xüsusilə, dünyasını vaxtsız dəyişmiş Osman Həbibullayevin Naxçıvan Muxtar Respublikasının eneolit və tunc dövrü abidələrinin tədqiqinə, istedadlı arxeoloq, yaradıcılığının çiçəklənmə çağında dünyasını dəyişmiş Fərman Mahmudovun Azərbaycan Respublikasının cənub-şərqinin tunc və erkən dəmir dövrü mədəniyyətlərinə həsr olunmuş monoqrafiyalarını (14; 15) redaktə edərək, həmin çox dəyərli əsərlərin nəşrinə nail olması həmkarlarının elmi irsinə qayğının təzahürü olmaqla həm də təkcə Azərbaycan arxeologiyası üçün yox, bütün Qafqaz arxeologiya elminə böyük töhfədir. Qüdrət müəllim Azərbaycan arxeoloqlarının nəşr orqanı –«Azərbaycan arxeologiyası» jurnalının yaradılmasının təşəbbüskarı olmuş, baş redaktor kimi hazırda böyük əmək sərf edərək onun müasir tələblərə cavab verən, yüksək elmi səviyyəli dərgi kimi tanınmasına nail olmuşdur. Jurnalın səhifələrində Azərbaycan arxeoloqları ilə yanaşı vaxtaşırı dünyanın bir sıra ölkələrinin Almaniya, Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və di-

gər ölkələrin tanınmış alimlərinin də yüksək elmi dəyərli məqalələri çap olunmuşdur.

Tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə gərgin elmi yaradıcılığı və pedaqoji fəaliyyəti ilə yanaşı həm də elmi-təşkilati fəaliyyətlə məşğul olur. O, Bakı Dövlət Universitetinin Arxeologiya və Etnoqrafiya kafedrasının müdiri, tarix fakültəsinin Elmi Şurasının, AMEA Naxçıvan bölməsinin nəzdindəki fəaliyyət D. 01.211 nəzdindəki Dissertasiya Şurasının üzvü, Azərbaycanşünaslar Müstəqil Birliyinin Şura üzvüdür.

Görkəmli alim Azərbaycanı bir sıra beynəlxalq elmi təşkilatlarda uğurla təmsil edir. Hal-hazırda o, Beynəlxalq Arxeoloqlar Assosasiyasının üzvü olan ilk azərbaycanlı arxeoloqdur. Tanınmış alim 2000-ci ildə Türkmənistan Prezidentinin sərəncamı ilə Prezident yanında Qədim Şərqin mədəni irsini öyrənən Büynəlxalq Elmi Şuraya üzv seçilmiş və o vaxtdan həmin çox nüfuzlu təşkilatın elmi fəaliyyətində yaxından iştirak edir. O, həm də Prezident tərəfindən təsis olunan «Miras» jurnalının Beynəlxalq redaksiya heyətinin üzvüdür. İşgüzar alim 2001-ci ildə Qırğızıstan Prezidenti yanında Humanitar Elmlər Assosasiyasına, 2002-ci ildə isə Türkmənistanda Beynəlxalq Əl xalçaları Assosasiyasına üzv seçilmişdir.

Qüdrət müəllim humanitar elmlər sahəsinin nümayəndəsi olaraq poeziya və incəsənəti daimi izləyir. Azərbaycan, türk, türkmən, rus, alman, yapon, ingilis poeziyasının görkəmli nümayənlərinin yaradıcılığını dərindən bilir, qədim, orta çağ və müasir incəsənət əsərlərinə böyük maraq göstərir. Özü də təbiətin yaratdığı müəyyən obrazları xatırladan ağac, daş və sümük məmulatını bədii işləmələrlə sənət əsərinə çevirməkdən zövq alır.

Professor Qüdrət İsmayılzadənin həyat yolu vətənə, Azərbaycan elminə sədaqətlə xidmətin bariz nümunəsidir. İstər ümdə problemlərin həllində, istərsə də yüksək ixtisaslı kadrların hazırlanmasında onun arxeologiya elminə verdiyi töhfələr olduqca böyükdür. Şübhəsiz ki, zəhmətkeş alimi qarşıda yeni-yeni elmi kəşflər və elmi-pedaqoji nailiyyətlər gözləyir. İnanırıq ki, yeni minilliyin ilk əsrində tarix elmləri doktoru, professor Qüdrət Seyfulla oğlu İsmayılzadə öz dəyərli araşdırmaları ilə Azərbaycan arxeologiyasının və qədim tarixinin bir çox sirlərinin açılmasında, mürəkkəb elmi problemlərin həllində fəal iştirak edəcəkdir.

**Ədəbiyyat**:

1. Исмаилов Г.С. Археологические исследование древнего поселения Баба-Дервиша. Баку, «Элм», 1977, 102 с.
2. İsmayılov Q.S. Abidələr, xatirələr, düşüncələr... Bakı, Gənclik, 1981, 108 s.
3. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, Изд-во “Nafta-Press”, 2008, 304 с.

4. Исмаилов Г.С. Новые памятники прикладного искусства раннесредневекового Азербайджана и их параллели в торевтике и глиптике Сасанидского Ирана. // Искусство и Археология Ирана. Доклады II Всесоюзной научной конференции. Москва, Наука,1976, с. 107-113.
5. Исмаилов Г.С. Эрмитаж в поднебесье. //Наука и жизнь, 1977, №7
6. Исмаилов Г.С. Петроглифы Азербайджана – как составная часть древнейшего искусства Евразии. // International conference The Caucasus in the context of World history/ Abstracts of Papers/ Tbilisi, Tbilisi University Press, 1996, c. 61-63.
7. Bəhlul İbrahimli, Nasir Quluzadə, Qüdrət İsmayılzadə. Rəsul dərəsində yeni arxeoloji qazıntıların nəticələri. // Azərbaycan arxeologiyası, 2009, №1, ss. 123-131.
8. Qüdrət İsmayılzadə, Bəhlul İbrahimli. Rəsul dərəsində arxeoloji qazıntılar. //Azərbaycanda arxeoloji tədqiqatlar-2009. Bakı, 2010, ss. 150-154.
9. Qüdrət İsmayılzadə, Bəhlul İbrahimli. 2010-cu ildə Rəsul dərəsində aparılmış arxeoloji tədqiqatlar. //Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı, 2011, ss.152-158.
10. Qüdrət İsmayılzadə, Bəhlul İbrahimli, Toğrul Xəlilov. Rəsul dərəsi yaşayış yerində aparılmış arxeoloji qazıntı işləri. //Azərbaycanda arxeoloji tədqiqatlar-2011. Bakı, 2012, ss. 190-195.
11. Qüdrət İsmayılzadə, Bəhlul İbrahimli, Toğrul Xəlilov.Rəsul dərəsində arxeoloji qazıntılar. //Azərbaycanda arxeoloji tədqiqatlar-2012. Bakı, 2013, s.s.176-179.
12. İsmayılzadə Q.S., İbrahimli B.İ. Qızılburun nekropolu. Bakı, Elm və Təhsil nəşr., 2013, 120 s.
13. Qüdrət İsmayılzadə. Arxeoloqun çöl gündəliyindən. Bakı, Xəzər Universitəsi nəşr., 2009, 202 s.
14. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахчыванской АССР. Баку, Элм, 1982, 316 с.
15. Махмудов Ф.Р. Культура Юго-восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку, Изд-во “Nafta-Press”, 2008, 216 с.

# ON THE 80TH ANNIVERSARY OF PROFESSOR GUDRAT SEYFULLA OGLU ISMAILZADEH

**RozaArazova**
**Tarikh Dostiev**
**Bahlul Ibrahimli**

## Summary

**Key words: Azerbaijan, G. S. Ismailzadeh, archaeologist, Garakopak-tepe, Bronze Age.**

The article is devoted to the 80th anniversary of the well-known archaeologist, an expert in the archaeology of the Bronze Age of Azerbaijan, a honored teacher, doctor on historical sciences, professor Gudrat Seyfulla oglu Ismailzadeh. More than 55 years of his life were devoted to academic study of the history and archaeology of prehistoric society in Azerbaijan. His name is linked to many successes in the study of Kur-Araz culture of Azerbaijan. He harmoniously links research with teaching. He has huge contribution to the preparation of young archaeologists and historians.

G.S.İsmailzadeh is an author of over 200 scientific publications, including 7 books published by various institutions. Life and works of Gudrat Ismailzadeh is a model for national science.

# К 80-ЛЕТИЮ СО ДНЯ РОЖДЕНИЯ ПРОФЕССОРА ГУДРАТА СЕЙФУЛЛА ОГЛУ ИСМАИЛЗАДЕ

**Роза Аразова**
**Тарих Достиев**
**Бахлул Ибрагимли**

## Резюме

**Ключевые слова: Азербайджан, Г.С.Исмаилзаде, археолог, Гаракопектепе, эпоха бронзового века.**

Статья посвящена 80-летию со дня рождения выдающего археолога, крупного специалиста по археологии бронзового века Азербайджана, заслуженного преподавателя, доктора исторических наук, профессора Гудрата Сейфулла оглу Исмаилзаде. Более 55 лет жизни ученого были посвящены изучению истории и археологии первобытного общества Азербайджана. С его именем неразрывно связаны многие успехи изучения Кура-Аракссской культуры на территории Азербайджана. Гудрат муаллим гармонично увязы-

вает исследовательскую работу с преподаванием. Вклад его в подготовку молодых историков и археологов огромен.

Г.С.Исмаилзаде – автор более 200 научных трудов, среди которых 7 книг, выпущенных различными научными учреждениями. Жизненный путь и творчество Гудрата Исмаилзаде являются образцом служения отечественной науке.

TƏDQİQATLAR
RESARCHES
ИССЛЕДОВАНИЯ

# ПОСЕЛЕНИЯ ЭПОХИ МЕТАЛЛОПРОИЗВОДСТВА АЗЕРБАЙДЖАНА

**Наргиз Ахундова**

(Институт Археологии и Этнографии НАНА)
nargizaxundova1980@gmail.com

**Ключевые слова: Поселение, металлопроизводство, медь, керамика, артефакт.**

Археологическими исследованиями установлено, что Азербайджан является одним из ведущих стран древнейшего металлопроизводства (1). Вескими археологическими артефактами доказано, что начальный этап металлургии на данной территории восходит к VI-V тысячелетиям до н.э. Открытию столь важного и довольно сложного производства способствовали как благоприятная географическая среда, так и высокий культурно-общественный уровень ранних обществ Азербайджана (3).

Наличие в недрах Азербайджана огромных запасов полезных ископаемых – золота, серебра, меди, олова, свинца, мышьяка и др. металлов сыграли большую роль в открытии, становлении и развитии на указанной территории металлургии и металлообрабатывающего производства. И неслучайно, что в высокогорных зонах Малого Кавказа в пределах Азербайджана выявлены остатки ряда древних горных выработок по добыче медных руд, мышьяка и других металлов, необходимых для этой производственной отрасли. По мнению исследователей, именно местные медные рудники явились основной сырьевой базой для металлопроизводства Азербайджана (3).

Общеизвестно, что на территории Азербайджана зафиксировано большое число хозяйственно – бытовых памятников, в частности поселений, связанных непосредственно с производством металла. Они относятся к огромному отрезку времени от VI до III тысячелетия до н.э. (2). К ним относятся такие эталонные поселения как Кюльтепе I в Нахчыване, Баба-Дервиш в Казахском районе, Гаракепектепе вблизи г. Фи-

зули, поселение Серкертепе в Хачмазском районе и Беюк-Кесик в Акстафинском районе (4,5).

**Поселение Кюльтепе I.** Этот памятник, представляющий собой остатки многослойного поселения, расположен вблизи г. Нахчыван, на берегу реки Нахчыванчай. Его стационарное изучение связано с именем известного азербайджанского археолога Османа Абибулла оглы Абибуллаева. Первые раскопочные работы на Кюльтепе I О.А.Абибуллаевым были начаты в 1951 году и продолжались до 1965 года (6).

Разведочно-стратиграфические раскопки на холме Кюльтепе I были завершены еще в 1955 году. В результате этих раскопок в Кюльтепе I были выявлены культурные напластования, общая мощность которых была около 22-х метров толщины. Они содержали важные данные всех последовательных этапов материальной культуры эпохи палеометалла. Примечательно, что в нижних напластованиях Кюльтепе были установлены культурные слои древнейших периодов металлопроизводства на территории Азербайджана. В частности, они принадлежали энеолиту и периоду ранней бронзы. В каждом культурном слое были выявлены строительные остатки и многочисленные предметы хозяйственно-бытового назначения. Среди них уникальными находками явились древнейшие металлические изделия (6).

В первом, энеолитическом слое были обнаружены семь медных предметов. Они же явились первыми данными по истории древнейшего металлопроизводства всего Кавказа (6).

Спектрально-химическим анализом был определен состав всех найденных предметов. В составе двух предметов было выявлено незначительное количество мышьяка и элементы других металлов. В четырех же найденных предметах мышьяк отсутствовал. Скорее всего, они были изготовлены из чистой меди, что характерно энеолитического металлопроизводства всего Кавказа.

Металлические изделия были выявлены и в раннебронзовом слое Кюльтепе I. Число их было гораздо больше - 16 различных предметов. Они состояли из булавок и шил, лезвий небольших ножей и других предметов. Анализом этих предметов было установлено, что все найденные металлические предметы из раннебронзового слоя изготовлены с присадкой мышьяка и представляют собой искусственные сплавы. Среди металлических предметов особый интерес представляло одно изделие трубчатой формы из чистого свинца.

Трудно переоценить значение трех глиняных литейных форм второго слоя. Эти формы, предназначенные для производства серийных предметов, явились важными данными по древнейшей металлургии Азербайджана.

**Поселение Баба-Дервиш.** Поселение Баба-Дервиш является одним из ярких памятников древнейшей металлургии Азербайджана. Оно расположено вблизи г. Казах и представляет собой серию холмов с культурными напластованиями эпохи палеометалла. Памятник был открыт в 1958 году Идеал Гамид оглы Наримановым (7,8).

Широкомасштабными раскопками, проведенными в 1960-1963 гг. археологами И.Г.Наримановым и Г.С.Исмаилзаде на первом, самом крупном холме, были выявлены остатки жилищ, хозяйственно-бытовых ям и многочисленные археологические находки, в том числе один металлический предмет. Значительная часть их принадлежала энеолитическому времени и раннебронзовой эпохе (7).

Поселение Баба-Дервиш после многослойного хозяйственно-бытового комплекса Кюльтепе I, стало на территории Кавказа вторым крупным памятником Куро-Араксской культуры с древнейшим культурным отложением. Так как в нижних напластованиях Баба-Дервиша были выявлены жилища, древнейшая керамика и каменные орудия энеолитической поры. Раскопочными работами последующих годов на втором холме Баба-Дервиша были выявлены остатки сырцовой архитектуры и трех металлоплавительных горнов раннебронзового периода (9).

**Многослойное поселение Гаракепектепе.** Расположено оно вблизи г. Физули, на правом высоком берегу реки Кенделенчай. В настоящее время представляет собой крупный холм конической формы, склоны которого очень крутые, высота холма со стороны реки 50 м., занимаемая площадь близка 4 га (11).

Стационарное исследование Гаракепектепе было начато в середине 60-х годов прошлого столетия археологом Гудрат Сейфулла оглы Исмаилзаде (10). Раскопками, продолжавшимися около 20 лет, было установлено, что Гаракепектепе - многослойный памятник с культурными слоями от раннебронзовой эпохи до средневековья. Важным было открытие на холме мощных напластований эпохи древнейшей металлургии или же раннебронзовой культуры. Соответственно этому, в толще раннебронзового слоя Гаракепектепе было выявлено большое число металлических изделий, а также орудий труда по производству металлических предметов (12).

Предметы из металла – бронзы представлены небольшими булавками, шильями, колечками и другими находками, характерными для многих известных нам памятников Азербайджана и сопредельных районов всего Южного Кавказа.

Орудие труда по производству различных бронзовых изделий состоят из глиняных сопл, тиглей, льячиков и др. О высоком развитии литейного дела, а в целом, металлургии в эпоху ранней бронзы нагляд-

но свидетельствует литейная форма топора, найденная в указанном слое Гаракепектепе. Такие находки нам известны из ряда памятников Южного Кавказа.

**Поселение Серкертепе.** Является ведущим памятником эпохи палеометалла всего Кавказа. Фактически им замыкается цепь памятников Куро-Араксской раннебронзовой культуры Южного Кавказа и Дагестана (13).

Поселение Серкертепе расположено на северо-восточной части села Серкерли Хачмазского района. Оно одно из многочисленных хозяйственно-бытовых археологических комплексов северо-восточной части Азербайджана, отрытых в 60-х годах прошлого века археологом Джаббар Асадулла оглы Халиловым (14).

До начала археологических раскопок Серкертепе представлял собой крупный холм удлиненный формы, высотою 9 метров. Многолетними раскопками, проведенными археологом Деюш Логман оглы Мусаевым на холме были установлены культурные напластования толщиною около 6 м. Из них 4 м относились непосредственно к раннему этапу эпохи бронзы (13).

Неслучайно, что среди многочисленных и разнообразных находок поселения Серкертепе особое место занимают предметы древнейшей металлургии и металлопроизводства. К ним относятся различные предметы, литейные формы, фрагменты глиняных сосудов с крупицами меди и другие находки. По количеству металлических предметов поселение Серкертепе превосходит все известные нам памятники раннебронзовой эпохи региона. Предполагается, что поселение Серкертепе в свое время было одним из них крупных очагов металлургии всего региона (13).

**Археологический комплекс Беюк Кесик.** Расположен он на территории Акстафинского района Гянджа-Газахской зоны. Комплекс состоит из остатков поселения и нескольких древних захоронений в глиняных сосудах. Поселение расположено 500 м восточнее одноименного современного поселка, на широкой равнине, на высоте 260 м над уровнем моря. Площадь комплекса около 1,2 га (15).

Изучение комплекса Беюк Кесик связано с именем археолога Наджафа Мусеибли. Раскопками установлено, что комплекс Беюк Кесик относится к позднему этапу энеолита и состоит из четырех строительных горизонтов. Максимальная толщина культурного слоя 1,70-1,75 м. Находки, выявленные в культурном слое многочисленны. Основную часть их составляют керамика и различные поделки из камня, кости и меди. К ним относятся пряслицы, ложки, литейные формы,

своеобразные печати, шилья, ножи, проколки, образцы мелкой пластики, в том числе, зооморфные и антропоморфные фигурки и т.д. (15).

Следует отметить, что комплекс Беюк Кесик является единственным памятником энеолитического периода, в котором выявлено самое большое число металлических изделий на всем Южном Кавказе. Общее число их более 40. К ним относятся фрагменты небольших ножей и кинжалов, шилья, проколки и другие предметы. Можно предположить, что на поселении Беюк Кесик производство металла было широко распространено.

Как видно, во многих древнейших оседло-земледельческих поселениях на территории Азербайджана выявлено достаточно много важных археологических артефактов. Они наглядно характеризуют начальный этап и местный характер древнейшего металлопроизводства и металлургии. Совокупность целого ряда данных позволяет сделать вывод о том, что дальнейшему развитию такого принципиально нового и важного вида производства способствовали природные и общественные факторы. Богатые физико-географические ресурсы, новый подъем экономики раннеземледельческо-скотоводческих обществ оказали значительное воздействие на их культурно-историческое развитие, и это в конечном итоге ознаменовалось крупными открытиями в различных областях производства.

## Литература

1. Абибуллаев О.А. К вопросу о древней металлургии Азербайджана МИА СССР, Москва-Ленинград: Наука, 1965, № 125, с.65-73.
2. Иессен А.А.Кавказ и Древний Восток в IV-III тысячелетиях до н.э. // КСИА, вып.93, Москва: 1963, с.3-14.
3. Исмаилзаде Г.С. Этапы развития древнейшей металлургии и металлообрабатывающего производства на территории Азербайджана. КСИА, Москва: 1987, № 192, с.10-17.
4. Нариманов И.Г., Джафаров Г.Ф. О древнейшей металлургии на территории Азербайджана СА, 1990, № 1, с.27-32.
5. Бахшалиев В., Исмаилзаде Г. Горно-металлургическое производство эпохи палеометалла на территории Азербайджана. Материалы Международного семинара «Медные рудники Западного Кавказа III-II тыс. до н.э. и их роль в горно-металлургическом производстве древнего населения». Сухуми, 1988, с.5-7.
6. Абибуллаев О.А. Раскопки холма Кюльтепе близ Нахичевани в 1955 г. // МИА СССР, Москва-Ленинград: Наука, 1959, №67, с.432-454.

7. Нариманов И.Г., Исмаилзаде Г.С. Акстафачайское поселение близ г. Казаха. СА, 1962, № 4, с. 149-156.
8. Исмаилзаде Г.С. Археологическое исследование древнего поселения Баба-Дервиш. Баку: Элм, 1978, 104 с.
9. Нариманов И.Г. Первый и второй холмы Баба-Дервиша. Сборник Essays on the Archaeology of the Neolithic-Bronze Age. Тбилиси, 2001, с. 63-65.
10. Исмаилзаде Г.С. Гаракепектепе – древний памятник материальной культуры Азербайджана Изв. АН Азерб. ССР, 1969, №1, с. 59-71.
11. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности. Баку, 2008, с. 143-149.
12. Исмаилзаде Г.С. Новые материалы по древней металлургии и металлообработке с юго-восточных склонов Малого Кавказа // Изв. АН Азерб. ССР, 1974, №3, с.84-91.
13. Мусаев Д.Л. Серкертепе - поселение эпохи ранней бронзы. Баку, 2006, с. 65-67.
14. Халилов Д.А., Кесаманлы Г.П. Гяфлетепелери - поселение эпохи ранней бронзы в Азербайджане/ Сб. Кавказ и Восточная Европа в древности. Москва, 1973, с.55-59.
15. Мусеибли Н. Энеолитическое поселение Беюк-Кесик. Баку, 2007, с. 138-142.

## AZƏRBAYCANDA QƏDİM METAL İSTEHSALI İLƏ BAĞLI YAŞAYIŞ YERLƏRİ

**Nərgiz Axundova**

### Xülasə

**Açar sözlər: Yaşayış yeri, metal istehsalı, mis, keramika, artefakt.**

Təqdim olunan məqalədə Azərbaycan ərazisindəki qədim yaşayış yerlərindən tapılan metal istehsalı ilə bağlı tapıntıların təhlili verilmişdir. Belə abidələr içərisində Naxçıvan ərazisindəki Kültəpə I, Qazax şəhəri yaxınlığındakı Baba-Dərviş, Füzuli rayonu ərazisindəki Qaraköpəktəpə, Xaçmaz ərazisindəki Sərkərtəpə və son illərdə Ağstafa bölgəsində aşkar edilən Böyük Kəsik abidəsi xüsusi yer tutur. Onların hər birindən yerli metal istehsalını əks etdirən bir sıra maddi mədəniyyət nümunələri tapılmışdır. Müəyyən edilmişdir ki, yüksək mədəni tarixi inkişaf və Azərbaycanın zəngin filiz ehtiyatları yerli metal istehsalı üçün zəmin olmuşdur.

# SETTLEMENTS CONNNECTED WITH METAL PRODUCTION OF AZERBAIJAN

**NargizAxundova**

## Summary

**Key words: settlement, metal production, copper, ceramic, artefacts.**

In the article findings from ancient settlements connected with metal production have been analysed. Among these monuments Kultepe I in Nakhchivan, Baba-Dervish in Kazakh district, Garakopektepe in Fizuli region, Sarkartepe in Khachmaz and recent years Boyuk Kasik in Agstafa are of great interest. A number of local artefacts indicated metal production have been found from each of them. It has been determined that the rich cultural-historical development and ore reserves of Azerbaijan were a base for metal production.

# ЗОЛОТЫЕ ИЗДЕЛИЯ ИЗ ДРЕВНИХ ПАМЯТНИКОВ АЗЕРБАЙДЖАНА И ВОПРОСЫ ИХ ПРОИСХОЖДЕНИЯ

**Диана Джафарова**
(Азербайджанский государственный экономический университет)
dianajafarova@yahoo.com

**Ключевые слова: Азербайджан, археология, золото, памятники, материал, изделия, украшения,курган.**

Одним из спорных вопросов в Кавказской, в частности азербайджанской археологии, является источник происхождения золотых изделий, найденных в древних археологических памятниках. Как правило, среди многочисленных артефактов этого времени золотые предметы встречаются редко. Малочисленность, а также отсутствие среди них ведущих образцов затрудняет определение производственных центров золотых вещей.

Еще в 30-х годах XX века известные Кавказоведы А.А.Иессен и Т.С.Пассек отметили, что для решения данного вопроса особую важность представляют следующие факторы [1, с.162-178].

1. Письменные источники, свидетельствующие о производстве и употреблении золота на Кавказе, в том числе в Азербайджане в изучаемое время;

2. Археологические памятники. Последние в свою очередь разделяются на две группы: а) наличие данных, свидетельствующих о добыче золота в древности (следы золотых месторождений или промывки золота); б) наличие остатков мастерских по изготовлению золотых изделий.

3. И, наконец, наличие самих золотых изделий среди материалов, добытых при археологических раскопках.

Переходим к анализу вышеперечисленных источников. Известно, что сведения о наличии золота встречаются в древнегреческой мифологии. Здесь имеется в виду поход аргонавтов за золотым руном в Колхиду.

О наличии золота в Закавказье более поздние сведения встречаются в трудах авторов I – II вв. н.э. Так, например, Аппиан отмечает о наличии золота в песках кавказских рек, которое собирали при помощи овечьих шкур. Страбон и Плутарх пишут о реках Иберии, в которых имеется золото [1, с.172-173].

Как видно в источниках, сообщавших о наличии золота в Закавказье, места, связанные с Азербайджаном, не упоминаются. Кроме того, все эти сведения относятся к началу нашей эры. Позднейшие сведения относительно добычи золота в Закавказье также фактами не обоснованы [1, с.172].

Все это свидетельствует об отсутствии добычи золота в Азербайджане в изучаемое время и о привозном характере золотых изделий, встречающихся здесь среди археологических материалов.

В Азербайджане в памятниках интересующего нас периода золотых изделий обнаружено очень мало. К тому же, они встречаются в определенной группе памятников. Достаточно отметить, что в Гянджачайском районе исследовано около 300 погребальных памятников и лишь в одном из них (в кургане №2 в Ханларе, раскопки Я.Гуммеля,) найдена всего одна золотая бусина.

Золотые изделия обнаруженные в Азербайджане и относящиеся к эпохе поздней бронзы и раннего железа следующие:

1. Французский археолог Ж. де Морган в некоторых исследованных им в 1890 г. погребениях могильника Вери вместе с другими материалами выявил и золотые изделия. В одном из этих погребений золотых изделий было больше, чем в других. Ж. де Морган разбил их на три типа: диски для волос, серьги и бусы [2, с.81,рис.85; 3,с.442-443, рис.217].

Одни диски имеют простую форму, с гладкой поверхностью с небольшой выпуклостью в середине [2, рис.85,3,5,8]. Другие, более изящные, изготовлены с большим мастерством. На одном из дисков путем штамповки выбиты маленькие бусины [2,рис.85,2]. Нижняя часть другого диска украшена такими же бусинами, а выпуклая часть – линиями, образующими в центре бутон [2,рис.85,4]. Выпуклая часть третьего диска гладкая, а его нижняя часть украшена витой линией [2,рис.85,6]. Поверхность четвертого диска украшена отходящими от центра лучами [2,рис.85,7]. Ж. де Морган отмечает, что последний диск, нижняя часть которого сплетена листьями подобно короне, напоминает произведение искусства древних греков и римлян [2,рис.85,1].

Золотые диски, сходные с верийскими, выявлены в богатых погребениях Мари. Некоторые из них идентичны с верийскими [5,с. 83,табл.XV]. Такие диски встречались в могильниках эпохи поздней бронзы Хурвина [36,табл. XIX, 353,354] и в погребениях XIII – XII вв. до н.э. Амлаша [4,с.36-43, табл. VIII в.]. Все перечисленные памятники находятся на территории современного Ирана.

В отмеченных погребениях Вери выявлены также две золотые серьги, имеющие форму двойной пирамиды и состоящие из золотых шариков. Она завершается более крупным шариком [37,с.214, рис. 213; 3,с.422-423, рис. 227,38].

Золотая серьга, напоминающая верийские, найдена в полуразрушенном кургане в сел. Толорс Зангезурского района современной Армении [7,с.99-104]. А. Мнацаканян, отмечая редкость золотых изделий

для памятников Закавказья эпохи поздней бронзы, указанную серьгу вместе с другими золотыми изделиями считает привозным предметом [7,с.102,104]. Серьга полностью идентичная с верийской, обнаружена также в одном из погребений эпохи поздней бронзы в Марлике (Иран, раскопки Э.Нахичевана) [8,рис.79].

Другие аналогичные изделия пока нам неизвестны. Приведенные аналогии позволяют полагать, что верийские золотые изделия имеют иранское происхождение.

Группа предметов из Вери представлена бусами [2, с.83, рис. 85, 9, 11]. Самым интересным среди верийских материалов является предмет, имеющий витиеватую форму, изготовленный путем штампования [2, рис.85,12]. Аналогичные украшения обнаружены в Лчашене (Ордакли) и Лорибердском могильнике [9,с.181,рис.14,4,10].

Ж. де Морган отмечает, что сходные с этим предметом изделия выявлены также в Гиссарлыке (раскопки Г.Шлимана) [2,с.83,рис.86].

Другие сходные с верийскими предметами образцы материальной культуры обнаружены в памятнике Зивие [4,с.38,табл.VII]. Видимо, эти виды украшений употреблялись долго. Например, такие предметы украшения найдены в памятниках Ура, датируемых VII в. до н.э. [10,с.105-115,табл.XII,4].

Некоторые золотые изделия обнаружены среди материалов Нагорного Гарабаха. Так, Э.Реслер в 1893 г. в Довшанлинском кургане №1 [11,с.18; 12, с.223] наряду с другими материалами выявил золотые бусы [12,с.233] и золотую пластинку, украшенную геометрическим орнаментом [12,рис.42].

В 1894 г. в Довшанлинском кургане №2 была найдена очень редкая для эпохи бронзы золотая цилиндрическая печать [11,с.17;14,с.90].

В ходжалинском кургане №11 вместе с известной агатовой бусиной, с именем Ассирийского царя Ададнирари, редкими глазурованными сосудами выявлены также золотые украшения [14,с.177;с.15-21]. Они представлены тонкими колечками с несомкнутыми концами [2 шт.][14, рис.12;38,с.16], фрагментом полой бусины и фрагментами пластинки, украшенной геометрическими штрихами [14, рис. 13,а,в; 38, с.76,рис.6,а,в]. Идентичные предметы украшения выявлены Э. Реслером в 1896 г. в Ходжалинском кургане №14. С большим художественным вкусом изготовлена орнаментированная пластинка [14,с.181-182,рис.18,а,б,с]. Подобная орнаментация характерна для золотых украшений из курганов Ходжалы и Арчадзора.

В 1897 г. в кургане №18 Э.Реслером выявлено украшение, изготовленное из золотой проволки [16,с.152, рис.307].

Особый интерес представляет один из золотых предметов най-

денный в 1897 г. Э. Реслером в ходжалинском кургане №20. Этот предмет является полым, имеет цилиндрическую форму, завершается головой хищника (льва или тигра) [16,с.153;21,с.56,68]. Из этого же кургана происходят маленькое колечко и фрагмент пластинки орнаментированной геометрическими штрихами [39,с.443,рис.58].

Золотые изделия найдены также в ходжалинском кургане №1, раскопанном в 1926 г. под руководством И.И. Мещанинова [19, с.222-223]. Они состоят из двух цилиндрических предметов украшения, изготовленных из тонкого золотого листа и полой бусины. Поверхность одного из этих предметов орнаментирована вдавленными линиями, а другого – мелкими выпуклыми точками [1,с.175].

Я.И. Гуммель в ходжалинском кургане №120, раскопанном им в 1939 г. наряду с другими материалами, обнаружил золотую бусину [20]. Курган относится к периоду перехода от бронзы к железу.

А.А. Иссен и Т.С. Пассек отмечает, что наряду с ассирийской бусиной и глазурованной керамикой, золотые изделия, выявленные в Ходжалинском курганах, не являются продукцией местного производства, а были привезены с юга, из стран Передней Азии [1,с.175-176].

Отмечая большую роль Нагорного Гарабаха в связях Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа [40,с. 33; 21, с.68], Б.Б. Пиотровский золотые изделия, особенно золотую цилиндрическую печать и предмет с головой хищника, считает привозными из Передней Азии [21,с.56,68].

По Т.С. Пассек, привозные золотые изделия, выявленные в курганах Ходжалы и Арчадзора, указывают на то, что племена, проживающие здесь, имели широкие культурно-экономические и иные связи со странами, расположенными южнее реки Аракс [41,с.148].

Таким образом, вышеприведенные материалы и результаты исследований доказывают, что некоторые из золотых предметов, найденных в Ходжалинских и Арчадзорских курганах, без всякого сомнения, были привезены из стран Передней Азии. Золотые предметы, напоминающие ходжалинские и арчадзорские пластинки, выявлены в памятнике Зивие. Многочисленные золотые бусы и колечки, сходные с ходжалинскими, найдены в Нимруде. Идентичные с нагорно-гарабахскими бусинами шаровидные бусины добыты в большом количестве из погребений XIII – XII вв. до н.э. [4,с.40,табл.VIII, а,в;табл.IX].

Произведение искусства, сходное с украшением, завершающимся головой тигра или льва, из ходжалинского кургана № 20, выявлено в памятнике Чога – Занбил, датируемым XII – XI вв. до н.э. [23,с.139,рис.-253].

Два золотых предмета, относящихся к изучаемому периоду, выяв-

лены на территории Нахычеван. Одним из них является золотое колечко [25, с.3,рис.25], найденное среди материалов Кызылбуруна [43,с.29,-табл.1,2]. В 1936 г. в кромлехе, исследованном А.Алекперовым [42,-с.249-262], наряду с другими материалами [30 шт. глиняных сосудов] выявлено украшение из золота с бронзовой основой [43,с.29,табл.1,2].

Малочисленность Нахычеванских золотых изделий, а также отсутствие их аналогий не дают возможность установить их происхождение. Вероятнее всего они были привезены с юга в результате различных контактов. Наличие связей Нахичевани с сопредельными странами подтверждается такими материалами, как «кинжалы переднеазиатского типа», пастовые и стеклянные бусы, раковины каури и др.

В 1895 г. в Карабулахском кургане №5, исследованном А.А. Ивановским, наряду с другими находками были выявлены эллипсовидные и круглые бронзовые украшения, инкрустированные слоновой костью, перламутром и золотом [28,с.157-163,табл.XV,3-9]. Аналогичные украшения обнаружены в 1982 г. в Большом Борсунлинском кургане (об этом в последующих страницах). Упомянем, что слоновая кость не характерна для Кавказа. Она широко употреблялась в странах Древнего Востока [29,с. 134-140].

Выше было отмечено, что из 300 погребений, исследованных в Гянджачайском районе, лишь в одном была обнаружена золотая бусина. Она происходит из кургана №2 , исследованного в 1931 г. Я.И. Гуммелем вблизи Ханлара (Елендорф, ныне Гейгель) [30, с.12,рис.19-20].

На основе богатого погребального комплекса Я.Н. Гуммель считал, что в кургане захоронен один из вождей племени. Интересно также предложение Я. Гуммеля относительно захоронения здесь вождя племени этуини [30,с.31] (хотя этот вопрос является спорным). Я.И. Гуммель писал, что племена, имеющие многочисленные стада мелкого и крупного рогатого скота, меняли свою продукцию на изделия, которые не производились в районе их расселения (золото, олово, перламутр и др.) [30,с.32].

Золотые украшения известны также из древних памятников Мингечаура. Они происходят из кургана №5, раскопанного в 1947 г. Здесь была найдена серьга, концы которой имеют форму змеиной головки. Для подвешивания серьги на обоих ее концах имеются отверстия [31,-с.114-115, табл.XVIII,25]. Другое украшение напоминает бычью голову. Курган датируется XI в. до н.э. [31,с.115,рис.93].

Определенное количество золотых изделий происходит из Большого Борсунлинского кургана, исследованного в 1982 г. Г. Джафаровым. В погребальной камере громадного размера (общая площадь 256 м$^2$) были захоронены глава крупного племенного объединения в сопро-

вождении жен (а может быть наложниц) и слуг (всего девять человек). Погребение было ограблено еще в древности. Несмотря на это, сохранившиеся после грабителей материальные остатки по разнообразию поражают воображение. Здесь помимо других многочисленных изделий обнаружены золотые украшения: золотая пряжка, украшенная рельефными колосьями, маленькая пластинка с тремя отверстиями. Тонкими золотыми пластинками были покрыты шляпки бронзовых гвоздей, пуговиц, а также бляхи – обоймы из слоновой кости, и раковин крупных морских моллюсков. Курган датируется XIV – XIII вв. до н.э. [44,с.7,рис.18;45,с.102-109;особенно стр.107,табл.82,13-30].

Из новых находок можно отметить золотую бусину из Кюдурлинского кургана №13 и золотые украшения из гофрированных несомкнутых трубочек найденные в Кюдурлинских курганах №7 и №8 и раскопанные Т.Ахундовым [45,с.123,139,141].

Этим исчерпывается обзор золотых изделий, обнаруженные в памятниках исследуемого времени в Азербайджане. Проведенные наблюдения показывают, что золотые изделия встречаются лишь в богатых погребениях, по всей вероятности, принадлежавших представителям знати.

Как известно, золото из – за своей редкости еще в глубокой древности было объектом обмена [1,с.175]. Об этом свидетельствуют золотые украшения, выявленные в курганах эпохи ранней бронзы (курган №2 и №3 на правом берегу Хачынчая, раскопанные в 1897 г. Э.Реслером [16,с.156], курган №119, раскопанный в 1937 г. Я.И.Гуммелем в Степанакерте (ныне Ханкенди) [28,с.18,рис.8,6]. Вероятно, обменивались не только золотые украшения, но и слитки золота. Последние на местах в свою очередь шли на изготовление различных украшений. Думается, высокохудожественные предметы (орнаментированные украшения, золотая цилиндрическая печать, украшения с головками хищника и т.д.) были привозными, а простые золотые изделия (колечки, серьги, диски без орнамента, некоторые бусы и т.д.) могли быть изготовлены местными ювелирами из привозных слитков. Но это пока лишь предположение.

Золотые изделия обнаружены также в древних памятниках современной Армении (Шенгавит, Кировокан, Лчашен, Толорс, Двин и т.д. [33;34;35].

Все же в настоящий момент мы затрудняемся точно сказать, откуда именно поступали к местным племенам золотые слитки. Что касается некоторых золотых изделий, бесспорно неместного происхождения, то выше нами сделана попытка показать место первоисточника. Несомненно, дальнейшие исследования прольют свет на решение этого вопроса, имеющего немаловажное значение.

## Литература

1. Иессен А.А., Пассек Т.С. Золото Кавказа. – Изв. ГАИМК, 1935, вып.110.
2. Morgan J., de Mission scientifique en Perse, vol. IV – Paris, 1896
3. Scaeffer Cl. F.A. Stratigraphie compare' et chronologie de l 'Asie Occidental. – London, 1948
4. Culican W. Spiral and blads in western Asia. – “Iraq”, 1964, vol.26., 1964, vol.26.
5. Rapport A. Les fouilles de Marie – “Syria”, 1937, v. XVIII
6. Morqan J., de. La Prehistorie orientale. Vol.III – Paris, 1927
7. Мнацаканян А.О. Находки предметов бронзового века в селении Толорс (в Зангезуре) Армянской ССР. – КСИИМК, 1954, вып. 54
8. Negahban E.O. A Preliminary report on Marlik excavation. – Teheran, 1964
9. Деведжян С.Г. Лори – бердский могильник. – Советская Археология, 1974, №2
10. Maxwell – Hyslop K.R. The Ur jewellery. – “Iraq”, 1960, vol.22
11. ОАК за 1894г. – СПб., 1896
12. ZEVBGAEU, Berlin, 1894
13. Кушнарева К.Х. Памятники эпохи поздней бронзы Нагорного Карабаха. – Советская Археология, 1957, т. XXVII
14. ZEVBGAEU, Berlin, 1896
15. ZEVBGAEU, Berlin, 1895
16. ОАК за 1897г. – СПб., 1900
17. ZEVBGAEU, Berlin, 1897
18. Пиотровский Б.Б. Археология Закавказья с древнейших времен до I тыс. до н.э. – Ленинград, 1949
19. Мещанинов И.И. Краткие сведения о работах археологических экспедиций в Нагорный Карабах и Нахичеванский край, снаряженных в 1926г. Обществом Изучения Азербайджана. – Сообщ. ГАИМК, 1926, т.I
20. Гуммель Я.И. Археологические раскопки в районах Азербайджанской ССР (Отчеты за 1938 г.) Изв.Аз. Фан СССР, 1939, №3
21. Пассек Т.С. “Пиотровский Б.Б. Археология Закавказья с древнейших времен до I тыс. до н.э.” – Вестник древней истории, 1950, №2 (Рецензия)
22. Curtis E. and Maxwell – Hyslop K.R. The gold jewellery from Nimrud. – «Iraq», 1971, vol. 33, part 1
23. Hersfeld E. Iran in the ancient East. – London – New York, 1941
24. Porada E. Iran ancient. L'art a L'epoque preislamique – Paris, 1963
25. Спицын А.А. Некоторые Закавказские могильники – Известия императорской Археологической Комиссии, 1909, вып. 29
26. Голубкина Т.И., Расулова М.М. О связях древних кавказских албанцев со странами Древнего мира – Уч. Зап. АГУ, 1966, №6
27. Гуммель Я.И. Погребальный курган №1, около Еленендорфа в Азерб. ССР – Баку, 1931
28. Ивановский А.А. По Закавказью. – Материалы по Археологии Кавказа, М.,1911, т.VI

29.Кинг Х.А. Слоновая кость в древнейшем Египте. – Вестник древней истории, 1962, №3
30.Гуммель Я.И. Большой курган №2 около Ханлара Азерб. ССР – Научный Архив Института истории АН Азерб. ССР, д. №636
31.Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур.- Изд-во АН Азерб.ССР, Баку, 1959.
32.Гуммель Я.И. Некоторые памятники раннебронзовой эпохи Азербайджана – КСИИК, 1948, вып. XX.
33.Есаян С.А. Древняя культура племен Северо – Восточной Армении (III – I тыс. до н.э.) – Изд-во АН Арм.ССР, Ереван, 1976.
34.Мадатян Э.М. К истории разработок Зодского золоторудного месторождения. – Изв. АН Арм. ССР, серия наук о Земле, 1965, XVII, №3-4
35.Кушнарева К.Х. Производственный комплекс древнего Двина. – В кн. «Кавказ и Восточная Европа в древности». – Москва, «Наука», 1973.
36.Vander Berge OL. La necropole de Khurvin. Istanbul, 1964.
37.Morqan J., de. La Prehistroie Orientale.vol.III. - Paris,1927.
38.Пасек Т.С., Латынин Б.А. Ходжалинский курган №11 - ИООИА, 1926,№2.
39.ZEVBGAEU,Berlin,1898.
40.Пиотровский Б.Б. Основные итоги и проблемы археологического изучения Закавказья. – Ленинград, Изд-во ЛГУ,1948.
41.Пассек Т.С., "Пиотровский Б.Б. Археология Закавказья с древнейших времен до I тыс. до н.э.» – Вестник древней истории,1950, №2.
42.Алекперов А.А. Крашеная керамика Нахичеванского края и Ванского царства. – Советская Археология, 1937, №4.
43.Абибуллаев О.А. Материалы Шахтахтинского погребения (по раскопкам А.Алекперова). - Изв.АН Азерб.ССР, серия обществ наук, 1961, №5.
44.Джафаров Г.Ф. Борсунлу – погребение племенного вождя. Баку, Изд-во «Элм», 1986.
45.Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində. Bakı, "Elm",2000.
46.Ахундов Т.И. Северо-западный Азербайджан в эпоху энеолита и бронзы. Баку, Изд-во «Элм», 2001.

# AZƏRBAYCANIN QƏDİM DÖVR ABİDƏLƏRİNDƏN TAPILAN QIZIL ƏŞYALAR VƏ ONLARIN MƏNŞƏYİ MƏSƏLƏSİ

**Diana Cəfərova**

## Xülasə

**Açar sözlər: Azərbaycan, arxeologiya, qızılı, abidələr, material, zinət əşyaları.**

Azərbaycanın qədim dövr tarixinin mürəkkəb, lakin vacib problemləri sırasında arxeoloji abidələrdən məlum olan qızıl əşyalar və onların mənsubiyyəti məsələsi xüsusi yer tutur.

Tədqiqatlarla müəyyən edilmişdir ki, Azərbaycanın Dağlıq Qarabağ, Mingəçevir, Borsunlu, Gəncəçay, Şəki, Naxçıvan, Muğanın dağlıq zonasından tapılmış qızıl əşyaların bir qismi yerli, digər hissəsi Yaxın Şərq mənşəlidir.

# GOLD OBJECTS FOUND FROM THE ANCIENT MONUMENTS OF AZERBAIJAN AND THE PROBLEM OF THEIR ORIGIN

**Diana Jafarova**

## Summary

**Keywords: Azerbaijan, Archaeology, golden, monuments, material, jewelers, barrow.**

Gold objects found from the ancient monuments of Azerbaijan and the problem of their origin are of great interest among the complicated and important matters of Azerbaijani history. It has been determined with the analyses that some sort of gold objects found from Nagorno-Karabakh, Mingechevir, Borsunlu, Ganjachay, Sheki, Nakhchivan and mountainous part of Mugan are local and others have the origins of Middle East.

# GƏNCƏ-QAZAX BÖLGƏSİNİN ERKƏN METALLURGİYA VƏ METALİŞLƏMƏ SƏNƏTİNİN XAMMAL MƏNBƏLƏRİ

**Leyla Rüstəmova**

(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
leyla.rustamova84@gmail.com

**Açar sözlər: Gəncə-Qazax, mis, tunc, metal, mərgümüş, qalay.**

İnsanların ilk metal olan mislə tanışlığı hələ eneolit dövründən başlanmışdır. Metalın kəşfi bəşəriyyət tarixində, istehsal proseslərinin inkişafında əsaslı dönüş yaratmışdır. Metalın meydana çıxması haqqında 3 versiya mövcuddur. Birinci versiyaya görə metal dağlıq və meşəlik ərazidə böyük yanğın nəticəsində yer altından üzə çıxmışdır. İkinci versiyaya görə mis, onun filizinin - mineralının primitiv əridilməsi yolu ilə, üçüncü versiyaya görə isə, ilk dəfə oksidləşməmiş, sulfidli, mis filizinin, əsasən də mis kolçedanı-xalkopiritin əridilməsi yolu ilə əldə edilmişdir [1, s. 9,10]. Bununla yanaşı, bir mülahizə də mövcuddur ki, insanin ilk metal olan mislə tanışlığı ona lazım olan əşyaların hazırlanması üçün yeni və daha yaxşı daş axtarması zamanı baş vermişdir. Uzun müddətli axtarışlar nəticəsində insan təbiətin hazır neməti olan mislə rastlaşmış və əvvəlcə onu daşın bir növü hesab etmişdir.

Mis emalının qədim izlərinə Ön Asiyada təxminən 7 min il bundan əvvəl Anadoludakı Çayönü, Çatal-Höyük məskənlərində və Mesapotamiyada rast gəlinmişdir.

Arxeoloji ədəbiyyatda Qafqazda metalın meydana çıxması haqqında Avropa alimlərinin bir sıra fikirləri var [2, 142-143]. Bu alimlər Qafqazda metallurgiyanın sərbəst inkişafını inkar edirdilər. R.Virxov, Y. Şantr, J.de Morqan belə hesab edirdilər ki, metallurgiya Qafqaza miqrasiya yolu ilə başqa yerlərdən gətirilmişdir.

R.M.Munçayevin fikrincə isə, tuncun erkən meydana çıxdığı dövrdən başlayaraq Qafqaz ərazisi metallurgiyanın əsas aparıcı mərkəzlərindən biri olmuşdur [3, 403].

Qafqazda metallurgianın hansı yolla yaranması və inkişafı hələ də zəif öyrənilmişdir. Metallurgiya ilə bağlı ilk tapıntılar e.ə. VI minilliyin sonlarına aiddir və Şomutəpə mədəniyyətinə məxsus olan nadir yaşayış məskənlərində aşkar edilmişdir. Ehtimal olunur ki, metallurgiya Qafqazın hər iki yamacında, həm Şimali Qafqazda (Meşoko mədəniyyəti), həm də Cənubi Qafqazda (Əliköməktəpəsi-I Kültəpə, Darkveti və Sioni mədəniyyətləri) e.ə.V minillikdə tədricən inkişaf etmişdir [4, 1].

Qədim metallurgiyanın yaranması və inkişaf etməsi üçün yerli xammal bazası lazım idi ki, bu da Azərbaycan, o cümlədən Gəncə-Qazax bölgəsində

kifayət qədər idi. Tədqiq olunan bölgədə hələ qədim zamanlardan mis filizi çıxarılırdı. Bunu həmin regionda aparılan arxeoloji tədqiqatlar sübut edir.

Gəncə-Qazax bölgəsinin bir sıra yerlərində hələ qədim zamanlardan istismara başlanmış mis yataqları qeydə alınmışdır. Onlardan aşağıdakıları göstərmək olar:

1. Ən mühüm mis yataqları Gədəbəy yaxınlığında Mis dağında cəmləşmişdir. Bu dağın zirvəsində və yamaclarında dərinliyi 2 m, bəzən isə 5-6 m olan quyular var. Bunların qədim mis şaxtaları olduğu ehtimal olunur.

2. İstismar izləri olan ikinci qədim mis yatağı Gədəbəy rayonun Slavyanka kəndi yaxınlığında, Zəyəm dəmir yol stansiyasından cənub-qərbə doğru, təxminən 30 km məsafədə Başkənd dağında yerləşmişdir. Burada qədim şaxtaların izləri olan çökəklərə rast gəlinmişdir. Həmin çökəklərin ətrafında müəyyən miqdarda mis əridən zamanı alınan xılt( şlak) tökülmüşdür.

3. Mis yataqları Şəmkir rayonunun Çardaqlı kəndi yaxınlığında da qeydə alınmışdır.

4. Uçmuş qədim şaxtaların izləri Şəmkir çayının sağ sahilində, onun yuxarı axarlarında da var.

5. Xeyli sayda qədim Şaxta izlərinə Şəmkir çayının aşağı axarlarında və Gəncədən 25 km qərbdə rast gəlinmişdir.

6. Şəmkir rayonunun Seyfəli və Nuzger kəndlərinin arasında sürmə yataqlarının izləri olduğu göstərilmişdir [5, s.54-55].

Gədəbəy mis yataqlarının istismarı qədim dövrlərə təsadüf edir. Bu şaxtaların bəzilərində kərki izlərinə rast gəlinmişdir. Çox güman ki, bu metal kərkilərdən külçə çıxarılan zaman istifadə olunmuşdur.

Simensin fikrincə, Mis dağının yataqlarından qədimdə istifadə edilməsini burada təbii xalis misin ( bəzən 4 kq ağırlığında) olması və Gədəbəyin ətrafındakı çoxlu miqdarda qədim qəbristanlıqların varlığı sübut edir [5, 55].

Cənubi Qafqazın müxtəlif yerlərində mis, mərgümüş və s. təbii metal yataqları mövcud olduğundan bu ərazidə qədim metallurgiya özünün ilk yarandığı vaxtdan, yəni eneolit dövründən yerli xammal bazasına əsaslanmışdır [6, 98]. Əvvəlki dövrlərdə bir çox yerlərdən mis filizi əldə edilmiş köhnə şaxtalara rast gəlinmişdir ki, buradan da ancaq əritmək üçün asan olan sulfidli filiz çıxarılmışdır. İlk metallurqlar bilirdilər ki, mis sulfidi turşuya və karbonata çevirmiş üst qatların filizi, altdakı sulfid qatlarına nisbətən tez və asan əriyir. Mis filizi, dərinliyi bəzən 20 metrə çatan şaxtaların, quyuların və yaxud xəndəklərin qazılması yolu ilə əldə edilirdi.

Əsası eneolit dövründə qoyulan metallurgiya tunc dövründə daha da inkişaf etmiş, misin tərkibini dəyişmək üçün ona yeni metal mərgümüş əlavə olunmuş, yeni texnoloji üsulların tətbiqi nəticəsində müxtəlif təyinatlı məişət və təsərrüfat alətləri, bəzək nümunələri hazırlanmışdır. Sonrakı dövrlərdə isə mərgümüşlü misi qalaylı mis əvəz etmişdir. Qalaylı misdən hazır-

lanan məhsullar mərgümüşlü misdən hazırlananlara nisbətən daha möhkəm və keyfiyyətli olurdu.

E.ə. IV minilliyin ikinci yarısı - III minillikdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanın Gəncə-Qazax bölgəsində qədim metallurgiya və metalişləmə sənətinin inkişaf etdiyini sübut edən qədim metalişləmə ocaqları Azərbaycanın müxtəlif regionlarında olduğu kimi, Qazax rayonunda Ağstafa çayı sahilində yerləşən Babadərviş yaşayış məskənində də aşkar edilmişdir.

Tunc əşyaların çoxu daş və ya gil qəliblərə tökmə üsulu ilə hazırlanır və qəlibdən çıxarıldıqdan sonra əlavə olaraq döymə üsulu ilə təkmilləşdirilirdi.

Görkəmli alim İ.R.Səlimxanov arxeoloji və geoloji materiallara və axtarışlara istinadən, tunc məmulatların tarixi-kimyəvi analizini vermiş, tuncun tərkibini və keyfiyyətini, qədim tuncda olan kimyəvi elementlər və onların müəyyən olunma metodları, qədim metal məmulatların spektral analizləri, mis-mərgümüş ərintilərinin xassələrini müəyyən etmişdir [7].

Qafqaz ərazisində mərgümüşlü tuncdan hazırlanmış əşyalar e.ə. III minillikdən e.ə. II minilliyin əvvəllərinədək məişətdə qalmışdır [8, s.70]. Sonrakı dövrlərdə mərgümüşlü – nikelli və mərgümüşlü – qurğuşunlu tuncdan istifadə olunmuş və bu dövrdə də tuncun tərkibində mərgümüşün miqdarı getdikcə azalmışdır.

Qeyd edək ki, mərgümüşün Azərbaycan Respublikasında ən böyük yataqları Gədəbəy (Bitibulağ enargit yatağı) və Culfa (Darıdağ auripiqment-realqar yatağı) rayonlarında məlumdur.

Mərgümüş yataqlarına Qafqazda, Yaxın Şərqdə, Avropada və başqa ərazilərdə də rast gəlinir.

Mis 1064-1100 dərəcə selsidə əridiyi halda, ona 20 - 21% mərgümüş qatıldığında misin ərimə dərəcəsi 680-700 dərəcəyə enirdi. Sonrakı dövrlərdə, qalaydan istifadə olunan zaman misin əriməsi üçün daha az istilik tələb olunurdu. Məlumdur ki, qalay 232 dərəcə selsidə əriyir. Misin tərkibinə 8% qalay qatıldıqda 1020, 13 % qatıldıqda 980, 25 % qatıldıqda isə 800 dərəcə istilik lazım olur. Deməli, qalay misin ərimə dərəcəsini 200 dərəcəyə qədər aşağı salır. Misin tərkibində olan qalayın miqdarından asılı olaraq onun rəngində fərqlilik yaranırdı. Məsələn, tərkibinə 10 % və ya daha çox qalay qatılan misin rəngi qızılı olur və ondan başlıca olaraq bəzək əşyaları hazırlayırdılar. 16 % - a qədər olduqda qırmızımtıl-qızılı, 16-25 % arası sarımtıl – ağ, 31% dən artıq olduqda isə tunc ağ rəng alırdı [8, s.63].

Misin tərkibində qalayın miqdarı artdıqca tunc daha kövrək olur. Qədim metallurqlar yaxşı bilirdilər ki, yalnız 4-5% qalay qarışığı olan tuncu döymək olur . Ona görə də, silahların və əmək alətlərinin tərkibində 6% - dən çox qalay olmurdu [8, s.60-61].

Qeyd edək ki, Qafqaz ərazisində qalay tərkibli tunc məmulatlar aşkar olunsa da burada qalay yataqları mövcud deyil. İ.R.Səlimxanovun fikrincə,

qalay Qafqaza və Yaxın Şərqə Cənub-Şərqi Asiya ölkələrindən və Tailanddan Malayya yarımadası vasitəsilə gətirilirdi. Belə ki, qalay yataqları Billiton adalarının cənubunda və Cənub-Şərqi Asiya ölkələrində var [8, s.76].

Kiçik Asiyada qalay Tavr dağlarından, İran yaylasından isə Daraşandan (Xorasan) və Şərqi Beynəlnəhrdən (Mesopotamiya), Cənub-Qərbi Asiyada Malayya yarımadasından çıxarılırdı [9, s.154-164].

Tədqiqatçı alimlər belə hesab edirlər ki, Azərbaycanın eneolit dövrü mədəniyyəti ilə ilk tunc dövrü Kür-Araz mədəniyyəti arasında müəyyən varislik olmuşdur. Lakin Leylatəpə yaşayış məskəninin aşkar olunması və oradan müxtəlif metal məmulatların tapılması Kültəpə və Şomutəpə eneolit dövrü mədəniyyəti ilə Kür-Araz mədəniyyəti arasında yeni bir mədəniyyətin mövcud olduğunu sübut etdi. Leylatəpə adlanan bu mədəniyyət birincidən sonra, ikincidən əvvəl gəlmiş və bu mədəniyyətlərdən fərqlənmişdir [10, s. 43]. Onunla həmdövr abidələr Gəncə-Qazax ərazisində də aşkar olunmuşdur (Böyük Kəsik abidəsi, Soyuqbulaq kurqanları və s.).

Leylatəpə yaşayış məskənindən metallurgiyaya aid maddi mədəniyyət nümunələri tapılmışdır. Burada metal əşyalarla yanaşı, onların bilavasitə yaşayış məskənlərində hazırlanmasını göstərən maddi qalıqlar, məsələn, misi əridib tökərkən sıçrayan çoxlu miqdarda mis zərrəcikləri yerə dağılmış şəkildə aşkar edilmişdir. Bu fakt nəinki Azərbaycanda, hətta bütün Qafqazda yerli metal istehsalına aid ilk tapıntıdır. Leylatəpənin İlk tunc dövrünə qədər olan təbəqəsində (cədvəl 2, 1-4) 0,3- 1,35% mərgümüş və 0,5-0,55% nikel qatılmış mis ərintilərinə rast gəlinmişdir [10, s.44].

Tovuz rayonunun Aşağı Ayıblı kəndi yaxınlığında İ.Nərimanov tərəfindən hələ 1960 cı ildə aşkar olunan Menteştəpə yaşayış məskənində 2008-ci ildə Bertille Lyonett (CNRS) və Fərhad Quliyevin (AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu) birgə rəhbərliyi ilə Azərbaycan –Fransa müştərək arxeoloji ekspedisiyası qazıntılara başlamışdır. Burada aparılan son qazıntılar metallurgiyaya aid müstəsna nəticələr vermişdir. Aşkar olunan 138 metaldan 62-si e.ə. 4350-4200 - cü illərə - Son Eneolit dövrünün əvvəllərinə aiddir. Onlar mis mənşəli süxurlar (azurit, digenit, kuprit), texniki keramika ( butə, qəliblər), yarımfabrikatlar, metal istehsalı tullantıları və metal əşyalardan ibarətdir. Bu metalların böyük əksəriyyəti qatqısız misdən hazırlandığı halda, yalnız 8-i mərgümüşlü misdən düzəldilmişdir (1,4-3,2%-As). Yaşayış məskənindən tapılan halqa və bizlərdə qurğuşun və gümüş izləri əhəmiyyətli dərəcədədir [11, s. 2]. Qurğuşun və gümüş elementlərinin, eləcə də qurğuşun izotop analizlərinin təhlili mis filizinin mənşəyi barədə bu fikri söyləməyə əsas verir ki, 3 ərazi xammal mənbəyi ola bilər: Vulkanik massiv sulfid yataqları ya Şərqi Ermənistanda (Alaverdi, Vanadzor rayonları), ya Gürcüstanın cənub hissəsində (Madneuli) və ya Qərbi Azərbaycanda (Gədəbəy rayonu, Qoşa) yerləşmişdir.

2006-cı ildə Böyük Kəsik (Ağstafa rayonu) yaşayış məskənində N.Müseyibli tərəfindən BTC kəməri boyunca aparılan qazıntılar zamanı ümumilikdə 20 ədəd metal əşya tapılmışdır . Bu əşyaların Bakıda aparılan analizlərinin nəticəsi göstərdi ki, onlar qatqısız misdən hazırlanmışdır [11, s. 3]. Bu yaxınlarda Almaniyanın Bohum şəhərində onlardan 2-nin analizlərinin nəticəsinə görə bu əşyalar gümüş, qurğuşun və sürmə qatışıqlı misdən hazırlanmışdır (2,4 və 3,9% As).

2007-ci ildə Böyük Kəsiyin yaxınlığında Soyuqbulaqda B.Lyonnet və T.Axundovun rəhbərliyi ilə e.ə. IV minilliyin I yarısına kurqanlar qazılmışdır. Bu qazıntılar nəticəsində 1 biz, 1 xəncər, 2 halqa, 33 gümüş və 23 qızıl muncuq aşkar edilmişdir. Bohum laboratoriyasında rentgen şüalarının dispersiv enerji spektroskopiyası (EDAX ) və darayıcı elektron mikroskopu (SEM) analizləri həyata keçirilmiş və bu yaxınlarda bizin yeni nümunəsi İCP-MS vasitəsilə analiz olunmuşdur. Biz sürmə və nikel qatışıqlı mərgümüşlü misdən hazırlanmışdır (1,4% As). Üzük və 33 muncuq çox hissəsi mis və qızıldan ibarət olan gümüşdən hazırlanmışdır. Həmin əşyaların Bakıda da, paralel olaraq, OES analizləri aparılmış və bu analizlər oxşar nəticələr vermişdir. Lakin xəncərdə aşkar olunan qalay (0,37% Sn) İCP-MS ilə təsdiq edilməlidir. Təəssüf ki, qızıl muncuqlar böyük maraq doğursa da, onların üzərində arxeometallurgiya tədqiqatları aparılmayıb[11, s. 3].

Ağstafa rayonunda Poylu qədim yaşayış yerində BTC layihəsi çərçivəsində aparılan arxeoloji qazıntılar zamanı butə və biz tapılmışdır. İCP-MS vasitəsilə aparılan analiz nümunələrinə əsasən, məlum olmuşdur ki, biz gümüş qarışığı olan mərgümüşlü misdən hazırlanmışdır (3,3% As). Böyük Kəsik, Soyuqbulaq və Poylu yaşayış məskənlərindən tapılan 4 metal əşya üzərində qurğuşun izotop analizləri aparılmışdır [12, s. 59-64]. Bu tədqiqata görə istifadə olunan mis filizi şimal-qərbi Ermənistanda Alaverdi və Vanadzor yataqlarından gələ bilər. Lakin onların mənşəyi barədə fərziyyələri təsdiq etmək üçün yeni nümunələrə ehtiyac var.

Soyuqbulaqda tapılan qızıl muncuqlar qiymətli metalın mənşəyi məsələsini ortaya qoyur. Soyuqbulaqdan 70 km qərbdə yerləşən Saqdrisidə (Cənubi Gürcüstan) e.ə. IV minilliyin II yarısına və hətta, ola bilər ki, ondan da əvvələ aid olan qızıl mədəni aşkar olunmuşdur [11, s.4]. Soyuqbulaqdan tapılan qızıl muncuqlar üzərində arxeometallurgiya və izotopik tədqiqatlar qızılın Saqdrisi mədənindən gəlib-gəlmədiyini göstərə bilər.

Belə nəticəyə gəlmək olar ki, Gəncə-Qazax bölgəsində, eləcə də Azərbaycanda və bütün Cənubi Qafqazda eneolit və ilk tunc dövründə metallurgiyanın yaranması və inkişafı ardıcıl olaraq 3 mərhələdən keçmişdir. Birinci mərhələdə xalis misdən xırda əşyalar hazırlanmışdır. İkinci mərhələdə müxtəlif təyinatlı əşyaların hazırlanmasında xalis mislə yanaşı, süni ərintili metallardan da istifadə olunmuşdur. Ərintidə istifadə olunan element kimi mər-

gümüş nikeldən daha az üstünlük təşkil edirdi. Cənubi Qafqaz filizinin tərkibində nikelin olmaması, mis-mərgümüş-nikel tərkibli məmulatların mənşəyinin müəyyənləşdirilməsində çətinlik törədir. Buna baxmayaraq, mürəkkəb tərkibli metal məmulatların mövcudluğu metal istehsalının sonrakı inkişafından xəbər verir.

Kür-Araz mədəniyyəti dövründən – təxminən e.ə. IV minilliyin ortalarından metalişləmədə keyfiyyətcə yeni, daha çox inkişaf etmiş üçüncü mərhələ başlayır. Bu mərhələdə mərgümüşlü tunc və ondan hazırlanmış əmək alətləri və silahlar geniş yayılmışdı.

## Ədəbiyyat

1. Рагимова М.Н. Металлургия Азербайджана в эпоху энеолита и бронзы. Автореферат диссертации на соискание ученой степени доктора исторических наук. Баку, 2005, 44 с.
2. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc və ilk dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, Elm, 1959, 169 s.
3. Мунчаев Р. М. Кафказ на заре бронзого века. Москва, 1975, 476 с.
4. A.Courcier, A. Hauptmann, B. Jalilov, M.Ragimova, M.Prange "Beginnings of metallurgy in the Caucasus during the 5th millennia BCE: Insight through metallurgical evidences discovered at Mentesh-Tepe in Azerbaijan (nəşrdədir).
5. Иессен А.А. К вопросу о древнейший металлургии меди на Кавказе, ИГАИМК, вып. 126, 1935, с. 216.
6. İ.Nərimanov Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, AzSSR EA nəşriyyatı. 1958, 142 s.
7. Селимханов И.Р. Историко-химические и аналитические исследования древних предметов из медных сплавов. Баку, 1960, 183 с.
8. Селимханов И.Р. Разгаданные секреты древней бронзы. Москва, Наука, 1970, с. 79
9. Кашкай М.А., Селимханов И.Р. Из истории древней металлургии Кафказа. Баку, «Элм», 1949, с.223
10. Seyidov A., Həsənova Ə. Naxçıvanın qədim metalı. Bakı, Elm, 2005, 315 s.
11. Courcier Antoine, Bakhtiyar Jalilov, Idris Aliyev, Farhad Guliyev, Moritz Jansen, Bertille Lyonett, Nasib Mukhtarov and Najaf Museibli "The ancient metallurgy in Azerbaijan from the end of the Neoliythic to the Early Bronze Age ( 6th -3rd millennia BCE): an overview in the light of new discoveries and recent archaeometallurgical research (nəşrdədir).
12. N.Müseyibli Ağstafa rayonundakı neolit dövrü yaşayış məskənlərində arxeoloji qazıntılar. Azərbaycanda arxeoloji tədqiqatlar, 2010, Bakı. S. 59-64.

# RAW MATERIAL SOURCES OF THE ART OF EARLY METALLURGY AND METALWORKING IN GANJA-GAZAKH REGION

**Leyla Rustamova**

## Summary

**Keywords: Gandja-Gazakh, copper, bronze, metal, arsenic, tin.**

Favorable geographical position of Ganja-Gazakh region has favoured the development of the earliest metallurgy in the territory of the region since VI millennium BC. Ganja-Gazakh region became the metallurgical center of Azerbaijan, as well as, the whole Caucasus and played a significant role in the development of ancient metallurgy in the same region. As a result of the archaeological excavations carried out in the region a large number of metal products, residues from metal production were found. These findings show that, Ganja-Gazakh region had been the area of the establishment of metallurgy. It is known that, the local raw material base was necessary for the establishment and development of metallurgy. Such bases are enough in Ganja-Kazakh region.

# СЫРЬЕВЫЕ ИСТОЧНИКИ РАННЕГО ИСКУССТВА МЕТАЛЛУРГИИ И МЕТАЛЛООБРАБОТКИ ГЯНДЖА-ГАЗАХСКОГО РЕГИОНА

**Лейла Рустамова**

## Резюме

**Ключевые слова: Гянджа-Газах, медь, бронза, метал, мышьяк, олово.**

Выгодное географическое положение Гянджа-Газахского региона благоприятствовало развитию древнейшей металлургии на территории этого региона еще с VI тысячелетия до нашей эры. Гянджа-Газахский регион стал одним из важных металлургических центров Азербайджана, а также в целом Кавказа, и сыграл важную роль в развитии древнейшей металлургии данного региона. Здесь при археологических раскопках Гянджа-Газахского региона обнаружено огромное количество металлических изделий, а также остатков металлургического производства. Известно, что для появления и развития металлургии необходима сырьевая база. Такая база было достаточна на Гянджа-Газахском регионе.

# QARABAĞDA XOCALI-GƏDƏBƏY MƏDƏNİYYƏTİNİN II İNKİŞAF DÖVRÜNƏ AİD YENİ ABİDƏLƏR KOMPLEKSİ

**Hidayət Cəfərov**
(Azərbaycan Dövlət İqtisad Universiteti)
Hidayat-jafar@mail.ru

**Açar sözlər: Qarabağ, nekropol, Palıdlı, kurqan, torpaq qəbir.**

Son illərdə Qarabağda aşkar olunmuş arxeoloji abidələr içərisində son tunc və ilk dəmir dövrünə aid "Palıdlı" nekropolu xüsusi yer tutur. Nekropol Ağdam rayonunun Mirəşelli və Yüzbaşlı kəndləri arasında, suyu qurumuş köhnə çay yatağının hündür sağ sahilindədir. Nekropoldan bir qədər qərbdə eneolit dövrünün Şomutəpə, Kültəpə, Çardaxlıtəpə yaşayış məskənlərinin qalıqları yerləşir. Yaxınlıqda nekropolla həmdövr yaşayış məskəninin aşkar olunması istiqamətində apardığımız axtarışlar hələlik nəticəsiz qalıb.

Nekropol heç bir yerüstü əlamətlərə (torpaq topası, daş yığını, kromlex və s.) malik deyil.

Dəfn bir qayda olaraq, küncləri ovalvari düzbucaqlı torpaq çalalarda aparılmışdır. Qəbirlərin üstünə heç bir örtük qoyulmamışdır. Yeri gəlmişkən xatırladaq ki, Qarabağda yüz ildən çox müddətdə aparılmış arxeoloji araşdırmalar tarixində ilk dəfə olaraq yerüstü əlaməti olmayan dəfn abidəsinə təsadüf olunur. İndiyə qədər məlum olan qəbir abidələri torpaq və ya daş örtüklü kurqanlardan, daş qutulardan, dolmen, kromlex, üstü ağac örtülü qəbirlərdən ibarət olunmuşdur.

**1 saylı** qəbir yeniyetməyə məxsus olmuşdur. 1m dərinlikdə açılmış qəbir çalasının uzunu 1,7 m, eni 70 sm-dir. Ölü sağ yanı üstə, başı qərbə olmaqla sıx bükülü vəziyyətdə dəfn olunmuşdur. Başı sarı rəngli kiçik xeyrənin içərisinə qoyulmuşdur. Ətrafında daha iki saxsı qab yerləşdirilmişdir: dizi ilə qarnı arasında qulplu və lüləsi olan qara rəngli qazan qoyulmuşdur. Qollarında nazik tunc məftildən qolbaq, barmağında tunc məftildən spiralvari üzük, sol qulaq nahiyəsində firuzədən muncuğu olan tunc məftildən bir ədəd sırğa, boyun nahiyəsində əqiq və paştadan muncuq düzümü var idi.

**2 saylı qəbir.** 1 saylı qəbirdən 3 m şimal-şərqdə, 0.9-1m dərinlikdə aşkar olunmuşdur. Burada ölü sağ yanı üstə, sıx bükülü vəziyyətdə, başı qərb istiqamətində dəfn olunmuşdur. Skeletdən yalnız aşağı ətraf sümükləri və qol sümüyünün bir hissəsi qalmışdır. Qabırğa sümükləri tamam çürümüşdür. Ölünün başına yaxın tərkibi qum dənəli, astarı sarı, səthi qara rəngli qazan, qarın nahiyəsi yaxınlığında qara rəngli tək qulp kuzə qoyulmuşdur. Qəbrin təxmini ölçüləri: 1,7 x 0-9m x 9-1m-dir.

**3 saylı qəbir.** Əvvəlki iki qəbirdən xeyli aralıda, 0-1,2m dərinlikdə aşkar olunmuşdur. Qəbrin ölçüləri: 2,5m x 1,5m x 1-1,2m-dir. Ölü sağ yanı

üstə, başı şərqə olmaqla, bükülü vəziyyətdə dəfn olunmuşdur. Bel sütunu düz qalmış, bükülməmişdir. Bu baxımdan çox bükülü halda dəfn olunmuş əvvəlki iki qəbirdən fərqlənir.

Dəfn olunmuş şəxs orta yaşlı, uca boylu olmuşdur. Dişləri salamat qalmışdır. Başı "braxikefal"- "girdə başlı" şəxsə məxsusdur.

Qəbir avadanlığı: qulaq nahiyəsində tapılmış, göy rəngli muncuq salınmış nazik tunc məftildən sırğa, qalın divarlı, qırmızı rəngli xeyrə, qara rəngli, səthində yolkavari süyrələmə naxışları olan kiçik ölçülü kuzə; qırmızımtıl-sarı çalarlı 2 ədəd kiçik küpəcik.

**4 saylı qəbir.** Ölçüləri: uzunu 3,5m, eni-2,5m, dərinlik 1-1,2m-dir. Cənub-şərq, şimal-qərb istiqamətlidir. İnsan skeleti tapılmamışdır. Cənub şərq hissədə topa halında qaramal və davara məxsus sümüklər təmizlənmişdir.

Qəbir avadanlığı: cənub-şərq hissədə kiçik ölçülü, qara rəngli, qoşa qulplu küpələr, şar gövdəli, qara rəngli tək qulp küpə, cam, qara rəngli tək qulp kuzə, qara rəngli bərni, qara, qırmızı rəngli küpələr, nehrə, xeyrə və zənbilvari qulplu lüləsi olan orijinal quruluşlu bir qab - cəmisi 18 ədəd keramikadan ibarətdir. Nehrə olan hissənin alt qatından əqiq, sədəf və gətirilmə balıqqulaqlarından muncuqlar, nazik tunc məftildən sırğa, diametri 4 sm olan kiçik tunc medalyon tapılmışdır.

Cənub-şərq hissədə çox kiçik hissələrə parçalanmış, nazik tunc lövhədən hazırlanmış kəmərin fraqmentləri, onun yanında tuncdan şəbəkəli başlığa malik dəstəyi və dəmirdən tiyəsi olan kiçik xəncər, şarvari, yaxşı cilalanmış əqiq muncuqlar qoyulmuşdur.

Bütövlükdə qəbir avadanlığı, xüsusilə keramika nümunələri və bəzək əşyaları incə zövq və yüksək peşəkarlıqla hazırlanmışdır. Saxsı qablar bir qayda olaraq dulus çarxında düzəldilmiş, səthi səliqəli sığallanmış, süyrələnərək cilalanmış, müxtəlif süjetli naxışlarla (torşəkilli, rombvari, dalğalı, batıq-paralel, meandra, ziqzaqlar və s.) bəzədilmişdir. Keramika nümunələrinə süfrə, məişət və mətbəx üçün nəzərdə tutulan müxtəlif tipli qablar aiddir.

**5 saylı qəbir.** 2009 –cu ildə öyrənilmiş 1-3 saylı qəbirlərdən 20 m qərbdə yerləşir. Qəbrin bir hissəsi təsərrüfat işləri zamanı qismən dağıdılmışdır. Bu səbəbdən onun ölçülərini dəqiqləşdirmək mümkün olmayıb. 80 sm dərinlikdə parçalanmış, formasız sümük fraqmentləri, daş parçaları, saxsı qablara məxsus kiçik qırıqlar tapılırdı. Tapıntılar içərisində 2009 –cu ildə 4 saylı qəbir kompleksinə daxil olan dəmir xəncərin analoji nümunəsi vardır.

**6 saylı qəbir.** 6 saylı qəbir 5 saylı qəbirdən azacıq qərbdə yerləşir. Düzbucaqlı quruluşlu qəbir kamerasının uzunluğu 2,5 m, eni - 1,6 m, dərinliyi 1 m olmuşdur. Burada yeniyetmə dəfn olunmuşdur. Ölü sağ yanı üstə, başı qərb istiqamətində, sıx bükülü vəziyyətdə dəfn edilmişdir. Ərazinin mütəmadi suvarılması sümüklərin çürüməsinə səbəb olmuşdur. Qəbir avadanlığı mərhumun ailəsinin kasıb olmasını sübut edir. Onun qarın nahiyə-

sində qoyulmuş qara rəngli şar gövdəli küpə salamat qalmışdır. Qalan qab nümunələri fraqmentlər halında idi.

**7 saylı qəbir.** 5 və 6 saylı qəbirlərdən 30 m şərqdə, o qədər də 1-4 saylı qəbirlərdən cənubda, su arxının kənarında açılmışdır. Avadanlığın çoxluğu, dəfn olunmuş ölünün sümüklərinin yaxşı qalması ilə 5 və 6 saylı qəbirlərdən fərqlənir. Torpaq qəbirin uzunluğu 3,5 m, eni 1,6 m, dərinliyi 1,2 m olub qərb-şərq istiqamətində qazılmışdır. Ölü sol yanı üstə bükülü vəziyyətdə dəfn olunmuşdur. Skelet təmizlənərkən aydın oldu ki, əlləri başının altına qoyulmuşdur (çox insanlar yatarkən əllərini başının altına qoyduğu kimi).

Qəbir avadanlığı zənginliyi ilə 2009 –cu ildə tədqiq olunmuş 4 saylı qəbri xatırladır. Buradakı keramika nümunələri müxtəlifliyi ilə seçilir. Onların əksəriyyəti ayaqlarına yaxın, qurşaqdan aşağı hissədə yerləşdirilmişdir. Bunlar tək qulp, qulpsuz, şar və uzunsov gövdəli, kiçik dopu, cam, bərni, kuzə, qazan tipli, yaxşı bişirilmiş, dulus çarxında hazırlanmış qablardan ibarətdir. Qablardan biri sarımtıl rəngli olub ağzının kənarı antik dövr qablarında olduğu kimi axırımlıdır. Bu tip qablara son tunc və ilk dəmir dövrü abidələrində nadir hallarda təsadüf olunur. Ayaqların qatlanan hissəsində qoyulmuş boz rəngli başqa bir qab şar gövdəli olub qulplu və lüləklidir. Bu tip qablar 2009-cu ildə Palıdlı nekropolunun 1 və 4 saylı qəbirlərindən, habelə Mingəçevirin torpaq qəbirləri və kurqunlarından məlumdur[3.] Qoşa qulplu bir qab iri ölçüləri ilə fərqlənir. Bu hissədə müxtəlif tipli 7 saxsı qab qoyulmuşdur. Ölünün qurşaqdan yuxarı hissəsində də xeyli miqdar artefakt aşkar olunmuşdur. Kəllə sümüyünün qarşısında qara rəngli kiçik cam qoyulmuşdur. Qulaqlarının hər birində şar formalı əqiq muncuq keçirilmiş tunc məftildən hazırlanmış sırğalar, sağ qolunda yastı tunc lövhədən hazırlanmış, səthi relyef naxışlı incə qolbaq, barmaqlarında tunc məftildən hazırlanmış sprialvari üzüklər qalmışdır.

Uca boylu (1 m 90 sm-ə yaxın), ortayaşlı qadına məxsus olan bu abidədə ümumi sayı min ədədi adlayan müxtəlif tip muncuqlar aşkar edilmişdir.

Onların daha incə və formaca mükəmməl olanları qara, göy, sarı, ağımtıl-boz rəngli şüşə, sədəf və pastadan hazırlanmışdır. Bunlar qadının boğaz və sinə nahiyəsini bəzəmişdir. Şarvarı, uzunsov, yastı, çəlləkvarı, qırmızı və çəhrayı rəngli əqiq muncuqlar boğaz və qollara keçirilmişdir. Domino, mixəyə oxşar, yastı, şarvarı sədəf və pasta muncuqlar, balıqqulaqlarından olan bəzəklər onun sinəsini örtmüşdür. Güman ki, çoxsaylı biserlər qadının paltarına xüsusi yaraşıq vermişdir.

**8 saylı qəbir.** 2009 -cu ildə öyrənilmiş 4 saylı qəbirdən şimalda yerləşir. 1,3 m dərinlikdə aşkar olunmuş qəbirdə daimi rütubətdən skelet sümükləri çürümüşdür. Qəbir düzbucaqlı olub eni 1,6 m, uzunluğu 3,2 m, dərinliyi 1m-dir. Aşkar olunmuş arxeoloji materiallar yalnız müxtəlif ölçülü saxsı

qablardan ibarətdir. Bunların sırasında orta qalınlıqlı divara malik küpələr, qoşa qulplu kiçik küpəciklər və badya xüsusi yer tutur.

Materiallar içərisində 2009-cu idə tapılmış nehrənin analoqu olan nehrəcik diqqəti cəlb edir.

**Arxeoloji materialların təhlili:**

Nekropolun materialları bütövlükdə Xocalı-Gədəbəy mədəniyyətinin Qarabağ qrupu üçün xarakterik əlamətləri özündə əks etdirməklə, Dağlıq Qarabağın Gülyataq, Canyataq, habelə Mingəçevirin həmdövr materialları ilə daha çox yaxınlığa malikdir.

Diqqəti cəlb edən cəhətlərdən tunc kəmər, habelə dəmir tiyəli, şəbəkəli tunc başlıqlı dəstəyi olan xəncərin tapılmasıdır. 4 saylı Palıdlı torpaq qəbirindən tapılmış bu bimetal əşyaya həmdövr abidələrdə çox az təsadüf olunur. İki dövrün qovşağının (tuncun sonu və dəmirin əvvəli) göstəricisi olan bu əşyaların dəmirdən təkcə məişətdə deyil, habelə hərb işində - silahların hazırlanmasında da istifadə olunduğunu göstərir. Silahların hazırlanmasında dəmirdən istifadə dövrünün başlanğıc göstəricisi kimi bu tip maddi dəlillərin böyük əhəmiyyəti vardır. Qarabağın yüz ildən çox arxeoloji tədqiqatlar tarixində ilk tapıntı olan bimetal silahın oxşar nümunələrinə Abşeronda (Ağdaşdüzü-2)[1], habelə son illər aşkar olunmuş Goranboyun Muncuqlu nekropolunda[2] təsadüf olunmuşdur. Bimetal əşyaların Ermənistanın Carxeçi, Noyanberyan (Dilican)[3], Basarkeçər-Vardeniş abidələri kompleksinə daxil olması faktı da məlumdur[4].

Xatırladaq ki, e.ə. II minilliyin axırlarına aid edilən (əsasən XII-XI, daha çox XI əsrə) bir sıra abidələrdən az miqdarda olsa da dəmir əşyalar tapılmışdır. Belə tapıntılara XIX əsrin 90-cı illərində qonşu Dəmqolu və Gülyataq abidələrində (Ağdamın dağlıq hissəsi ilə qonşuluqda olan Ağdərə rayonunda) təsadüf olunmuşdur[5]. Dəmir əşyalar (xəncər və nizə ucu) həmçinin Mingəcevirin həm dövr abidələrindən məlumdur[6].

Yeri gəlmişkən xatirladaq ki, hələ XX əsrin 40-cı illərində görkəmli Qafqazşünas alim akad. B.A.Kuftin göstərmişdir ki, Qafqazda dəmirdən istifadəyə təxminən e.ə. XI əsrin əvvəllərindən başlanmışdır[7].

Sonrakı vaxtlarda, xüsusilə Mingəçevirdə aparılan kompleks tədqiqatların materiallarının təhlili nəticəsində alimlər dəmirdən istifadənin, xüsusilə alət və silahların geniş Ön Asiya regionunda e.ə. XII əsrdən başlaması ideyasını irəli sürmüşlər[8]. Son illərin tapıntıları (xüsusilə bimetal əşyaların) bunun bir daha doğru olduğunu sübut edir.

Bəzi fərqli xüsusiyyətlər nəzərə alınmazsa, “Palıdlı” nekropolundan tapılmış arxeoloji materialların əksər hissəsi Xocalı-Gədəbəy mədəniyyətinin ikinci inkişaf dövrü – e.ə. XII-XI əsrləri əhatə edən mərhələsi üçün xarakterik əlamətləri özündə əks etdirir. “Palıdlı” nekropolunun avadanlığı, xüsusilə müxtəlif çeşidli keramika məmulatının analoji nümunələrinə Azər-

baycanın həmdövr qəbir abidələrində dəfələrlə təsadüf olunmuşdur. Məsələn, oxşar nehrələr qonşuluqdakı Borsunlu nekropolunda 15 saylı kurqanda[9], Palıdlıdan məlum olan keramika nümunələrinin oxşarları daha çox Mingəçevirin kurqan və "Palıdlı" ilə eyni tip torpaq qəbirlərindən məlumdur. Məsələn, nehrələr Mingəçevirin 2 saylı kurqanının 5 və 10 saylı sallama qəbirlərindən, qulpsuz və təkqulp küpələr 53, 100, 110, 132, 161 saylı torpaq qəbirlərdən, kiçik ölçülü küpələr 40, 65, 75, 111, 118 saylı torpaq qəbirlərdən, dərin xeyrələr 2 saylı kurqandan, orjinal quruluşlu, zənbilvari qulpu və çaynikvari lüləsi olan qablar 43, 78, 110 saylı torpaq qəbirlərdən, 4 saylı kurqandan aşkar olunmuşdur[10].

**Palıdlı nekropolunda aparılan tədqiqatların ilkin təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:**

— Palıdlı nekropolu Qarabağın çoxillik arxeoloji tarixində torpaq qəbirlərinin aşkar olunduğu ilk bu tip abidədir;

— Arxeoloji materialların xarakterik əlamətləri burada dəfn olunmuş insanların sağlığında fərqli sosial statusa malik olduqlarını sübut edir; burada həm sadə, həm də təm-təraqlı dəfn adəti ilə müşayət olunan qəbirlərin varlığı bunu sübut edir;

— Arxeoloji materialların əksəriyyəti müxtəlif tip keramika nümunələrindən ibarətdir. Buraya iri təsərrüfat küpləri, mətbəxt keramikası (qazan, badya, boşqab və s.), ağartı məhsulları üçün qablar (sərnic, nehrə, bərni, tayqulp, parç), habelə kuzə, bardaq, çaynikvari saxsı qab nümunələri daxildir.

— Arxeoloji materialların (xüsusilə firuzə, sədəf balıqqulaqlarından muncuqlar və s.) təhlili əhalinin ətraf aləmlə, o cümlədən uzaq ərazilərlə iqtisadi-mədəni əlaqələr saxladığını göstərir;

—Avadanlığın böyük əksəriyyəti metal əşyalardan (qolbaq, üzük, sırğa, toqqa, muncuq və s.) ibarətdir. Bu metal işləmənin yüksək səviyyəsini göstərir.

— Arxeoloji materiallar qəbir komplekslərinin eyni vaxtda, e.ə. XII-XI əsrlərdə mövcud olmasını söyləməyə imkan verir;

—Bir çox əlamətləri ilə Qarabağın son tunç - ilk dəmir dövrünün öyrənilməsi üçün yeni mənbələr verir.

—Məlumdur ki, dəmirin meydana gəlməsi, dəmir əşyalardan ilkin istifadənin başlaması məsələsi indiyə qədər mübahisəli və mürəkkəb elmi problemlərdən biri olaraq qalır. Hərçənd e.ə. II minilliyin sonu və I minilliyin əvvəlləri son tunç və ilk dəmir dövrü adlanır, lakin bunu heç də həmişə sübut etmək olmur.

— Azərbaycanın başqa həm dövr abidələri (Xocalı, Gulyataq, Damqolu, Mingəçevir, Qalakand və s.) ilə yanaşı "Palıdlı" nekropolundan dəmir əşyanın (tunc başlıqlı xəncər tiyəsi) tapılması ərazidə dəmirdən ilkin istifadənin tarixi köklərini izləmək baxımından böyük əhəmiyyət kəsb edir.

—Arxeoloji materialların kompleks təhlili, Azərbaycanın başqa həmdövr abidələri ilə müqayisəli araşdırılması indiyə qədər məlum olan bir sıra faktları təsdiq edir. Bunların sırasında həm aran və həm də Qarabağın dağlıq ərazisinin tarixin bütün dövrlərində vəhdət təşkil etməsi, vahid etnik-coğrafi mühitin məhsulu olması təkzibedilməz faktlarla bir daha sübut edilir.

Yeni tip arxeoloji abidələrin aşkar olunması bəhs edilən dövrdə fərqli dəfn mərasiminin varlığına, bu isə öz növbəsində xalqımızın ən qədim dövrlərdən zəngin maddi-mənəvi aləmə sahib olmasına dəlalət edir. Bütün bunlar isə Qarabağın əzəli və ədəbi Azarbaycan torpağı olmasına şübhə ilə yanaşanlara tutarlı cavabdır.

**Ədəbiyyat:**

1. Qardaşxan Aslanovun qazıntıları.Nəticələr nəşr olunmayıb.
2. Hüseyinov M.Goranboyda Muncuqlutepe nekropolu. Azərbaycanda Arxeoloji Tədqiqatlar. ( 2009).Bakı,"Xəzər Universitetının" nəşriyyatı, 2010, s. 134-135.
3. Есаян С.А., Оганесян Г.А. Каталог археологических предметов Дилиджанского Краеведческого музея. Ереван,Изд.АН Арм.ССР, 1969, Табл. XXVII, 6.
4. Есаян С.А., Древняя култура племен Северо-Восточной Армении. Ереван,Изд.АН Арм.ССР, 1976, с. 124, 125.
5. Ивановский А.А. По Закавказью. МАК, М., 1911, вып. VI, с.145-146.
6. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, Изд.АН Азерб.ССР, 1959, с.121.
7. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тиблиси, Изд.АН Груз. ССР, 1940, с.55.
8. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Göstərilən əsəri, səh. 121.
9. Cəfərov.H.F Azərbaycan e.ə. IV minilliyin axırı -e.ə. I minilliyin əvvəllərində. Bakı, Elm nəşriyyatı, 2000, tablo 64,2.
10. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Göstərilən əsəri, tabl.XXIII, 11-12; tabl.XXVIII, 7, 10, 11; tabl.XXXIII, 2, 3, 9, 11;tabl. XLII, 3,4.

## THE NEW COMPLEX OF MONUMENTS OF THE SECOND PERIOD OF KHOJALY-GADABAY CULTURE OF KARABAKH

**Hidayat Jafarov**

### Summary

**Keywords: , Karabakh, necropolis, Palydly, kurgan, inhumation.**

After a twenty-year break, Karabakh Archaeological Expedition of the Institute of Archaeology and Ethnography of the Azerbaijan National Academy of Sciences restored field archaeological researches in the territory of Aghdam district and outskirts in 2009.

The main object of the expedition was to study Palydly necropolis of the Late Bronze Age and Early Iron Age. The necropolis is located between the villages of Yukhary Yuzbashly and Mirashelly of Agdam district. There are no ground signs of a hill, the pit or stone clusters. At a depth of 80 cm-1.2 m identified burial ground. For more than a century of archaeological research on the territory of Karabakh similar type of burial sites have been identified for the first time.

In 2009-2010 years, on the area of 300 m² investigated the remains of eight ground burials. The dimensions of burial ground vary (2.5x1.5x0.8; 3x1.7x1; 1.5x2.5x1.2). Burial ceremony: on the left or on the right side, head to the north-west (No. 1, 2, 7), to the east (No. 3), or without the burial of the deceased (No.4). Archaeological materials are mainly composed of ceramic vessels of various types, sizes and functions. These domestic agricultural pitchers are one-handed and without handles, vessels in the shape of teapot with two handles, equipped with drain spouts, churn, deep-bottomed dishes, cooking pots, bowls, miniature narrow-necked jugs etc. Colours vary from brown, shiny black to red. Some vessels are covered with mesh, grooved, spiral, threaded or polished lines, notches. Other archaeological findings are presented in an iron dagger with a bronze pommel, bronze bracelets, earrings, rings, lockets. Among the many ornaments large spherical beads with carnelian red and turqoize, pearl beads, producted of large marine molusks are marked out. Based on analysis of all the archaeological complex, burial ground of Palydly necropolis predates the XV-XI centuries BC. The whole complex chronologically fits into the second stage of Khojaly-Gadabay archaeological culture.

# НОВЫЕ КОМПЛЕКСЫ ПАМЯТНИКОВ ВТОРОГО ЭТАПА ХОДЖАЛЫ-КЕДАБЕКСКОЙ КУЛЬТУРЫ ГАРАБАХА

**Гидаят Джафаров**

## Резюме

**Ключевые слова: Гарабах, Палыдлы, некрополь, керамика, кинжал.**

После двадцатилетнего перерыва Гарабахская археологическая экспедиция Института Археологии и Этнографии Национальной Академии Наук Азербайджанской Республики в 2009г. возобновила полевые археологические исследования на территории Агдамского района и прилегающей зоне.

Основным объектом исследования экспедиции был некрополь эпохи поздней бронзы и раннего железа «Палыдлы». Некрополь находится между селениями Юхары Юзбашлы и Мирашелли Агдамского района. Наземные признаки в виде холма, ямы или же каменного скопления отсутствуют. На глубине 80см - 1,2м выявлены грунтовые погребения. За более чем столетний период археологических исследований на территории Гарабаха подобный тип погребальных памятников выявлен впервые.

В 2009-2010 гг. на площади 300м$^2$ исследованы остатки восьми грунтовых погребений. Размеры погребения различные (2,5х1,5х0,8; 3х1,7х1м; 3,5х-2,5х1,2м). Обряд захоронения: на левом или на правом боку, головой на северо-запад (№ 1, 2, 7), на восток (№3), или же без захоронения покойника (№4).

**Археологические материалы** в основном состоят из керамических сосудов различного типа, назначения и размеров. Это хозяйственные кюпы, одноручные и без ручек кувшины, чайниковидные сосуды с двумя ручками, снабженными слив-носиками, маслобойка, широкогорлые с глубоким дном блюда, кухонные горшки, миски, миниатюрные узкогорлые кувшинчики и т.д. Цветовые гаммы колеблятся от серего, блестящего черного до красного. Некоторые сосуды покрыты сетчатыми, желобчатыми, спиралевидными, нарезными или же лощенными линиями, насечками, коннелюрами.

Другие археологические находки представлены железным кинжалом с бронзовой навершией, бронзовыми браслетами, серьгами, кольцами, медальоном. Среди многочисленных украшений выделяются крупные шаровидные и рубленые бусы из красного сердолика, а также постовые, бирюзовые, перламутровые бусины, изделия из раковина крупных морских моллюсков.

На основе анализа всего археологического комплекса грунтовые погребения некрополя «Палыдлы» предварительно датируются XII-X1 вв. до н.э. Весь комплекс хронологически хорошо вписывается во второй этап развития Ходжалы-Гедабекской археологической культуры.

# FÜZULİ RAYONUNUN İLK ORTA ƏSR ABİDƏLƏRİ

**Mübariz C. Xəlilov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
xalilov_az@yahoo.com

**Açar sözlər: Qaraköpəktəpə, yaşayış yeri, Yedditəpə, qəbir abidəsi, ilk orta əsrlər.**

23 avqust 1993-cü il tarixli gündən artıq 21 il ötmüşdür. 21 ildir ki, Füzuli işğal altındadır. Tərk edilmiş yaşayış məntəqələri ilə yanaşı həmin ərazilərdəki tarixi-arxeoloji abidələrimiz də eyni taleyi yaşamaqdadırlar.

Füzuli rayonunun arxeoloji abidələri hələ XIX əsrdən başlayaraq tədqiqatçıların diqqətini cəlb etmişdir. Bunların arasında sonralar uzun illər ərzində ən yaxşı tədqiq olunanı ilk orta əsr mədəni qatına malik, çoxtəbəqəli Qaraköpəktəpə yaşayış yeridir. Əgər A.A.Bakıxanov Qarabağın Qaraköpək (Təxti-Tavus) adlı yerini xatırlayarkən burada hər hansı bir abidənin yerləşməsindən xəbərsiz idisə (2, s.108, 195), rus arxeoloqu A.A.İvanovski bu təpədə ölçmə işlərini icra etmiş, 1895-ci ildə E.A.Resler Qaraköpəktəpəni arxeoloji abidə kimi qeydə alaraq orada o qədər də uğurla nəticələnməyən müəyyən qazıntı işləri aparmışdı (6, s.5-6). Lakin Qaraköpəktəpəni dünya arxeologiyasına bəxş etmək missiyası Azərbaycanın görkəmli arxeoloqlarından biri, bu sətirlərin müəllifinə Universitetdə Qədim dünya tarixi fənnindən dərs demiş, diplom işinin elmi rəhbəri olmuş, tarix elmləri doktoru, professor, əməkdar müəllim, bu il anadan olmasının 80 ili tamam olan Qüdrət S.İsmayılzadəyə nəsib olmuşdur.

Qaraköpəktəpənin hal-hazırkı durumundan ürək ağrısı ilə bəhs edən Q.S.İsmayılzadə yazır: « Əcdadlarımızın bizim üçün müqəddəs olan qədim yaşayış yerləri və dəfn olunduqları yerlərin çox hissəsi müasir vandalların çirkli və ağır çəkmələrinin tapdağı altında yerlə yeksan olunmuşdur... Təhqir olunmuş belə abidələrdən biri Köndələnçayın hündür sağ sahilində, o qədər də böyük olmayan Füzuli şəhəri yaxınlığında yerləşmiş Qaraköpəktəpə çoxtəbəqəli qədim yaşayış yeridir» (9, s.74). Qaraköpəktəpədə arxeoloji tədqiqatların dayandırılmasının səbəbini oxucuların diqqətinə çatdıran Q.S.İsmayılzadə daha sonra yazır: «Qaraköpəktəpədə qazıntılar ötən yüzilliyin 80-ci illərinin axırınadək davam etmiş və bir ovuc erməni separatçısı tərəfindən törədilən mənasız, lakin çox amansız və qanlı Qarabağ müharibəsinin başlanması ilə dayandırılmışdır... Öz tarixi əhəmiyyətinə görə bütün bəşəriyyətə məxsus olan, Azərbaycanın dəyərəgəlməz qədim çoxtəbəqəli abidəsi – Qaraköpəktəpə hal-hazırda hələ də XXI əsr vandallarının əllərində qalmaq-

da, getdikcə daha böyük məhvedici dağıntıya məruz qalmaqdadır və bununla barışmaq çox çətindir» (9, s.76).

Q.S.İsmayılzadə Qaraköpəktəpə abidəsində tədqiqatlara 1964-cü ildə kəşfiyyat xarakterli qazıntı işləri ilə başlamışdır. Stasionar tədqiqatlar isə 1967-ci ildə əvvəlcə Azərbaycan Elmlər Akademiqyasının Tarix İnsitutunun, 1977-ci ildən etibarən isə Tarix İnstitutunun və Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) birgə Füzuli dəstəsi tərəfindən Q.S.İsmayılzadənin rəhbərliyi altında aparılmışdır (10, s.3-4; 15, s.9). Arxeoloji qazıntı işləri nəticəsində hündürlüyü 50 m-ə çatan Qaraköpəktəpədə e.ə. V minillikdən başlayaraq XVIII əsrədək, yəni 7000 ilə yaxın müddət ərzində yaşayış olduğu müəyyən olunmuşdur.

Qaraköpəktəpənin ilk orta əsr təbəqəsi əsasən 1975-ci ildə qazılaraq öyrənilmişdir. Həmin ildə 80 m² sahədə dərinliyi 2,7 m-ə çatan ilk orta əsr təbəqəsi tədqiq olunmuş, burada iri çay daşlarından hörülmüş divar qalıqları, keramika nümunələri və s. aşkar olunaraq III-VIII əsrlərə aid edilmişdir (14, s. 19-20). Arxeoloji qazıntılar nəticəsində Qaraköpəktəpədə daşdan binaların tikildiyi və təpədən mühüm əhəmiyyətli gözətçi-müşahidə məntəqəsi kimi istifadə olunduğu müəyyənləşdirilmişdir (9, s.76).

Füzuli rayonu ərazisində Q.S.İsmayılzadə tərəfindən tədqiq edilmiş digər ilk orta əsr abidəsi Yedditəpədir. Yedditəpə Füzuli şəhərindən 6-7 km şimal-qərbdə, Mirzəcamallı kəndi yaxınlığında yerləşmiş, daş qutu qəbirləri və təqribən 20 kurqandan ibarət, 1 hektara yaxın sahəni əhatə edən qəbir abidəsidir. 1972-1973-cü illərdə burada 25 daş qutu qəbri və 1torpaq qəbir üzə çıxarılaraq tədqiq olunmuşdur (12; 13, s.30-31).O qədər də dərin olmayan daş qutu qəbirlərinin kameraları ötəri işlənilmiş iri əhəngdaşı parçalarından qurulmuşdur. Bu qəbirlərin, o cümlədən, torpaq qəbrin üstü iri, ağır daş lövhələrlə örtülmüşdür. 26 qəbrin hamısında tək dəfn ayininə təsadüf olunmuşdur. Skeletlər əsasən sol böyrü üstündə bükülü vəziyyətdə olub, kəllələri şimal istiqamətinə yönəldilmişdir. Skeletlər eyni zamanda bir qədər şərqə və qərbə meyillidirlər. Qəbir kameralarının əksəriyyətinin döşəməsində, bəzi hallarda isə daş qutuların xaricində od, ocaq izləri qeydə alınmışdır (11, s. 108-109). Erkən xristian qəbirləri olduğu güman edilən (13, s.30) iki qəbir istisna olunmaqla digərlərində skeletləri çoxu metal əşyalar olmaqla zəngin avadanlıq müşayiət etmişdir (11, tablo XXXIII-XXXVI). Müqayisə üçün göstərmək olar ki, təkcə bir qəbirdən çoxlu miqdarda dəmir silah nümunələri, tunc qablar, doqquz cüt tunc və gümüş sırğa, on ədəddən çox möhür-üzük, çoxsaylı əqiq, yaqut, şüşə muncuqlar aşkar edilmişdir. Maraqlıdır ki, bütün kişi qəbirlərində dəmir silah nümunələrinə (qılınc, xəncər, nizə və s.) təsadüf olunmuşdur. Demək olar ki, bütün qəbirlərdə qayıq formalı, o qədər də böyük olmayan tunc camlar tapılmışdır. Qəbirlərin birində, tunc camın yanında qatlanmış tunc qaşıq qeydə alınmışdır. İki qəbirdən tapılmış, sinc

tipli musiqi aləti olduğu güman edilən iki cüt tunc əşya da unikal tapıntılar sırasına aid edilə bilər. Üzə çıxarılmış digər arxeoloji materiallardan tuncdan hazırlanmış dağ keçisi və ikibaşlı qartal fiqurlarını, kəmər dəstlərini, çoxlu miqdarda tunc şəbəkəli toqqaları, sancaqları, tunc bardaq, zınqrov, balta, şüşə cam və s. qeyd etmək mümkündür. Hər bir qəbirdə az miqdarda saxsı məmulatı aşkar edilmişdir. Bunlar əsasən üç novçalı ağıza malik kiçik ölçülü bardaqlardır. Saxsı qabların bir hissəsi kəsmə, cızma naxışlarla, bəzi hallarda yapma düyməciklərlə bəzədilmişdir ki, bu da ilk orta əsr Albaniyasının keramika istehsalına xas olan əlamətlərdən biri hesab olunur.

Yedditəpəyə həsr olunmuş «İlk orta əsr Azərbaycanın yeni tətbiqi incəsənət əsərləri və onların Sasani İranı torevtikası və qliptikasında paralelləri» adlı məqaləsində Q.S.İsmayılzadə bu abidənin məxsus olduğu qədim əhalinin İranla qurduğu mədəni əlaqələri qabartmışdır (11). Xarici mədəni əlaqələrin öyrənilməsi baxımından ikibaşlı qartal fiquru da maraq doğurur. Əvvəllər Albaniyanın Xınıslı, Şərgah (Şamaxı rayonu) və başqa abidələrindən müxtəlif materiallardan, o cümlədən, tuncdan hazırlanmış qartal fiqurları tapılmışdır (1, s. 27; 4, tablo II, 7; 7, tablo V, 10). Əgər Xınıslıdan aşkar olunmuş tunc əsaslı, qızıl örtüklü, II əsrdə qədim Roma əyalətlərindən birində istehsal edilmiş qartal fiquru Albaniya-Roma əlaqələrini əks etdirirdisə (4, s.63), digər qartal təsvirləri yerli istehsal nümunələridir. Başqa sözlə desək, qartal surətinin yaradılması Albaniya incəsənətinə də yad deyildi. Lakin Yedditəpə qartalının ikibaşlı təsvir edilməsi bu fiqurun Bizans mədəniyyətinin təsiri altında hazırlandığına işarə edən bir əlamət ola bilər. Yedditəpədə xarici mədəni əlaqələrin təcəssümü kimi çıxış etdikləri güman olunan belə materialların aşkar olunması bu abidənin albanlara məxsus olmasını şübhə altına almır. Əksinə, yaxşı məlumdur ki, daş qutu tipli qəbirlər Albaniya üçün xarakterik hesab olunur (17). Yuxarıda göstərildiyi kimi, Yedditəpədəki iki qəbrin xristian mədəniyyəti ilə bağlılığı güman edilir (13, s. 30). Eyni qəbristanlıqda həm bütpərəstlərin, həm də xristianların dəfn edilməsi hallarına Albaniyanın Mingəçevir, Qəbələ, Govurqala (Ağdam rayonu) və başqa abidələrində də təsadüf olunmuşdur. Bu hal təsdiq edir ki, albanlar arasında dini cəhətdən parçalanma baş vermişdisə də, həmin proses etnik yadlaşmaya gətirib çıxarmamışdı. Belə bir vəziyyət alban xristian və bütpərəst əhalisinin müəyyən yaşayış yerlərində birgə məskunlaşmasından da xəbər verir (5, s.203).

Yedditəpə qəbirlərindən əldə olunan materialların təhlili bu qəbir abidəsini təqribən III-VI əsrlərə aid etməyə imkan vermişdir (13, s.31).

Füzuli rayonunun ilk orta əsrlərə aid digər abidəsi Yağləvənd kəndinin ərazisində, dağlıq sahədə 1964-cü ildə S.M.Qazıyev tərəfindən üzə çıxarılmışdır. Arxeoloji qazıntı işlərində R.B.Göyüşov da iştirak etmişdir (8, s.111). Arxeoloji ədəbiyyatda burada Füzuli rayonunun Yuxarı və ya Aşağı

Yağləvənd kəndlərindən hansının nəzərdə tutulduğu dəqiqləşdirilməsə də, dağlıq ərazinin xatırlanmasından söhbətin Yuxarı Yağləvənd kəndindən getdiyi sezilir. Xristian qəbir abidəsində tədqiq olunmuş düzbucaqlı formalı 9 daş sərdabə yonulmuş əhəngdaşından inşa edilərək tağvari örtüyə malikdir. Sərdabələrin uzunluğu 1,22 - 3 m, eni 0,98 - 2,7 m, hündürlüyü 1,5 - 1,93 m-dir. Sərdabələrin cənubda yerləşən girişi yastı lövhələrlə qapanmışdır. Skeletlər sərdabələrin şimal divarı yaxınlığında, kəlləsi qərbə yönəldilmiş vəziyyətdə qeydə alınmışlar. 6 saylı sərdabədən başqa digər sərdabələrdəki skeletlərin sol əli sifət nahiyəsinə tərəf qaldırılmış, sağ əli isə döş qəfəsi üzərindədir. 3 saylı sərdabədə iki, digər sərdabələrin hərəsində bir skelet aşkar olunmuşdur. 2 saylı sərdabədə, skeletin yanında ilk orta əsrlərə aid, əldə formalaşdırılmış saxsı süddan (8, tablo XXI, 4), 7 saylı qəbirdə, skeletin boğaz nahiyəsində metal muncuqlar (8, tablo XX, 2) üzə çıxarılmışdır. Yağləvənddən başqa alban xristian daş sərdabələri Yeddi kilsə və ya Ləkit-Kötüklü monastırında (Qax rayonu), Kiş məbədi (Şəki rayonu) ərazisində, Albaniyanın tarixi Kambisena (Ereti) hüdudlarındakı Xornabuci şəhərgahı (Gürcüstan) yaxınlığında və s. yerlərdə də qeydə alınaraq tədqiq edilmişdir. R.B.Göyüşov erkən orta əsrlərə aid analoji Dzveli Anaqa sərdabələri (Gürcüstan) ilə müqayisə etdiyi Yağləvənd qəbirlərinin də ilk orta əsrlərə aid olduğunu güman etmişdir (8, s.111).

Yağləvənddə tədqiq olunmuş digər ilk orta əsr xristian abidəsi yarımqazma tipli sövmədir (8, s.97). Elmi ədəbiyyatda Yağləvənd sövməsinin geniş təsviri verilməsə də, R.B.Göyüşovun müraciət etdiyi analoji abidələrdən məlum olur ki, bu cür sövmələrin interyeri dairəvi formalı olub, üstü ağac tirlərlə örtülürdü. Belə sövmələrin şərq tərəfində, mehrab yerində xaçdaş dikəldilirdi (8, s.97-98).

Azərbaycan ərazisindəki alban dövrünə, o cümlədən, ilk orta əsrlərə aid daşdan yonulmuş insan heykəllərinin ümumi tədqiqi ilə məşğul olarkən diqqətimi arxeoloji ədəbiyyatdakı bir məlumat cəlb etmişdi. Burada göstərilirdi ki, monoteist dini ideologiyasının Azərbaycanda zəfər çaldığı dövrdə bir sıra politeist xarakterli sitayiş əşyaları ilə yanaşı daş bütləri də qırıb dağıtmış, «hətta Füzuli rayonunun Araz Yağləvəndi kəndində bu bütləri yığıb bir təpənin altında basdırmışlar» (3, s.33). 1982-ci ildə həmin daş bütlərin sorağı ilə rəsmi adı Aşağı Yağləvənd olan bu kəndə elmi səfər etdik. Yerli sakinlərin bələdçiliyi ilə göstərilən təpəni və yer qazılarkən oradan tapılan hamar yonulmuş daş parçalarını müşahidə etdik, lakin vaxt məhdudluğu ucbatından geniş arxeoloji qazıntı işləri aparmaq imkansız olduğu üçün Aşağı Yağləvənd daş heykəllərini aşkara çıxarmaq bizə nəsib olmadı (16, s.438).

Ümid edirik ki, həmin təpə hələ də salamatdır və nə vaxtsa Azərbaycan arxeoloqları onun və Füzuli rayonunun işğal olunmuş ərazisindəki abi-

dələrin geniş tədqiqi ilə məşğul olaraq Qarabağ müharibəsinin yarımçıq qoyduğu işləri davam etdirmək fürsətini qazanacaqlar.

## ƏDƏBİYYAT:

1. Abbasova F.Ə. Azərbaycanın orta əsr zoomorf əşyaları. Bakı, Elm, 2004.
2. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, 1951.
3. Göyüşov R. Arxeologiya və din. Bakı, 1965.
4. Xəlilov C.Ə. Albaniyanın qəbir abidələrinin dövrünün təyinində antik sancaqların rolu // Azərbaycan arxeologiyası, cild 16, № 1, 2013, s. 57-67.
5. Xəlilov M.C. Albaniyanın xristian abidələri (IV-X əsrlər). Bakı, 2011.
6. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, Elm, 1981.
7. Nuriyev A.B. Şərgah küp qəbirləri haqqında / Azərbaycanın maddi mədəniyyəti, VII cild. Bakı, Elm, 1973, s. 220-232.
8. Геюшев Р.Б. Христианство в Кавказской Албании. Баку, Элм, 1984.
9. Исмаилзаде Г. Гаракепектепе - уникальный памятник древности // Azərbaycan arxeologiyası, № 3-4, 2000, s. 74-76.
10. Исмаилов Г.С. Поселение Гаракепектепе. Баку, 1985.
11. Исмаилов Г.С. Новые памятники прикладного искусства раннесредневекового Азербайджана и их параллели в торевтике и глиптике Сасанидского Ирана / Искусство и археология Ирана. Москва, Наука, 1976, с. 107-113.
12. Исмаилов Г.С., Даниелян О.А. Исследования в междуречье Гуручай и Кенделенчай / Археологические открытия 1973 года. Москва, Наука, 1974, с. 450-451.
13. Исмаилов Г.С., Даниелян О.А. Археологические исследования в междуречье Гуручай и Кенделенчай / АЭИА (1973 г.). Баку, 1974, с. 29-31.
14. Исмаилов Г.С., Даниелян О.А. Итоги археологических исследований 1975 года в междуречье Гуручай и Кенделенчай / АЭИА (1975 г.). Баку, Элм, 1978, с. 19-21.
15. Исмаилов Г.С., Даниелян О.А. Результаты исследования в междуречье Гуручай и Кенделенчай в 1977 г. / АЭИА (1977 г.). Баку, Элм, 1980, с.9-11.
16. Халилов М.Дж. Исследование каменных изваяний Карабаха / Археологические открытия 1982 года. Москва, Наука, 1984, с. 438-439.
17. Халилов М.Дж. Раннесредневековые каменные ящики Хыныслы / Международная научная конференция «Кавказ: археология и этнология». Материалы конференции. Баку, 2009, с. 237-243.

# EARLY MEDIEVAL MONUMENTS OF FIZULI REGION

**Mubariz Khalilov**

## Summary

**Keywords: Karakopektepe, settlement, Yedditepe, burial, early medieval.**

The article is dedicated to the early medieval archaeological sites of Fizuli region, which most territories are currently under Armenian occupation. It presents data on the history of the study, characteristics of settlements, burial grounds and express confidence that the day is near when the study will be restored by Azerbaijani archaeologists in this region of Azerbaijan republic.

# РАННЕСРЕДНЕВЕКОВЫЕ ПАМЯТНИКИ ФИЗУЛИНСКОГО РАЙОНА

**Мубариз Халилов**

## Резюме

**Ключевые слова: Гаракепектепе, поселение, Еддитепе, могильник, раннесредневековье.**

Статья посвящена раннесредневековым археологическим памятникам Физулинского района, большая часть которого в настоящее время находится под оккупацией Армении. В статье приводятся данные об истории изучения, характеристике поселений, могильников и выражается уверенность в том, что недалек тот день, когда будут восстановлены исследования азербайджанских археологов в данном регионе Азербайджанской Республики.



Şəkil1. Araz Yağləvənd (Aşağı Yağləvənd) kəndi. 1982-ci il.



Şəkil 2. Araz Yağləvənddəki təpədən tapılmış daş məmulatı.




Şəkil 3. Yedditəpə materialları: 1, 2 - tunc fiqurlar; 3 - metal toqqa; 4 - tunc qab; 5 - şüşə cam; 6 - tunc zınqrov; 7, 8 - saxsı qablar.

# ORTA ƏSR ŞƏMKİR ŞƏHƏRİNİN MARQANS NAXIŞLI ŞİRLİ SAXSI QABLARI

**Tarix Dostiyev**
(Bakı Dövlət Universiteti)
dostiyev_tarix@yahoo.com, dostiyev.tarix@mail.ru

**Açar sözlər: Şəmkir, Orta əsr, şirli keramika, marqans naxışlı, anqob.**

Orta əsrlərdə mühüm sənətkarlıq və ticarət mərkəzi olan Şəmkir şəhərində xalqın zövqünü, dünyagörüşünü, hislərini özündə təcəssüm etdirən bədii sənət sahələri coşqun inkişaf etmişdi. Yerli sənətkarların yüksək peşəkarlığını və incə zövqünü müəyyən etmək üçün arxeoloji qazıntılar zamanı aşkarlanmış bədii keramika, şüşə, metal, daş məmulatı, bəzək əşyaları və s. təkzib olunmaz maddi dəlillərdir. Onların arasında bədii keramika məmulatı kütləviliyi ilə fərqlənir. Tədqiqatçılar tamamilə haqlı olaraq bildirirlər ki, keramika ilk növbədə sənətkarlığın texniki səviyyəsini göstərən istehsal məhsuludur, ikincisi şəxsi və sosial, eləcədə milli məişəti səciyyələndirən istehlak əşyasıdır, üçüncü dövrün üslub və ana xəttini, xalq yaradıcılığını səciyyələndirən sənət əsəridir (8, s. 3).

Şəmkir dulusçuları əhalini iri tutumlu təsərrüfat küplərindən başlamış ta kiçik duzqabılaradək ev təsərrüfatında zəruri olan bütün qablarla təmin edirdilər. Şəmkirin dulusçuluq emalatxanalarında istehsal təkcə yerli bazarın tələbatının ödəməsinə yönəlməmiş, həm də Şəmkir keramikası dünya bazarında layiqli mövqeyə malik olmuşdur. Yazılı mənbənin məlumatına görə Şəmkir şəhərinin ixracat malları arasında yüksək keyfiyyətli bıçaqlar və saxsı məmulat məşhur idi (12, c. 207).

Qabların bədii tərtibatı yerli dulusçuların fantaziyasının məhsulu idi. İlk növbədə utilitar təyinata malik konstruktiv formalara üstünlük verilirdi. Şəmkir Azərbaycan dulusçuluğunun inkişafında öz payı olan, ona yeni çalarlar, yeni nəfəs gətirən Arran keramika məktəbinin mühüm mərkəzlərindən idi.

Məlum olduğu kimi, VIII əsrin sonu – IX əsrin əvvəllərində saxsı məmulatı istehsalı texnologiyasında yenilik meydana çıxır - saxsı məmulatının bədii tərtibatında anqob, marqans və şir geniş tətbiq olunur. Şir qurğuşun oksidindən hazırlanırdı. O saxsının möhkəmliyini artırır, onun su keçirməzliyini yüksəldir, qabın üzərinə parlaqlıq verirdi (1, s.127). Rəngsiz, şəffaf qurğuşun şirinin tərkibinə digər metal oksidləri qatmaqla müxtəlif rənglər alırdılar. VIII-X əsrlərdə saxsı məmulatı rəngsiz, şəffaf şirlə yanaşı, həm də açıq sarı (dəmir oksidi), yaşıl (mis oksidi) və bənövşəyi (marqans oksidi) rəngli şəffaf şirlə şirlənirdi. Şəffaf, rəngsiz şir altından görünən naxış rəng

kontrastlığı və ya ahəngdarlığı ilə canlanırdı (5, s. 20). VIII-X əsrlərdə şirli saxsı məmulatının bədii tərtibatında bəzəyin əsas texniki vasitələri saxsının rəngi, anqob və şir idi. Bunlar dulusçulara bədii cəhətdən müxtəlif saxsı məmulatı hazırlamağa imkan yaradırdı (13).

Hazırkı məqalədə qarşıya qoyılan məqsəd orta əsr Şəmkir şəhər yerində 2006-2014-cü illərdə aparılmış arxeoloji qazıntılardan əldə olunmuş erkən şirli saxsı qablardan bir qrupunu – marqansla naxışlanaraq şəffaf rəngsiz və ya açıq sarı rəngli şirlə şirlənmiş, bədii ideya yükü daşıyan şirli saxsı qabları araşdırmaq və elmi dövriyyəyə daxil etməkdən ibarətdir.

Marqansla bəzədilərək şəffaf qurğuşun şiri ilə şirlənmiş saxsı məmulatı VIII-X əsrlər üçün səciyyəvidir. Naxış motivləri arasında həndəsi ornamentlər- dairə, spiral, qövsvari və badamvari fiqurlar, şaquli zolaqlar və s. üstünlük təşkil edir.

Halqavarı oturacaqlı boşqab tipli qabın mərkəzində marqansla dairə, onun ətrafında biri digərini kəsən qövsvari zolaqlar çəkilib. Bu zolaqlar qabın mərkəzində dördguşəli ulduz, qabın içərisində isə mürəkkəb həndəsi naxış yaradırlar. Fraqment kiçik olduğundan kompozisiyanı tam izləmək mümkün deyil (I tablo, şəkil 1). Boşqab tipli qaba məxsus digər bir fraqment üzərində də oxşar naxış, marqansla çəkilmiş biri-digərini kəsən dairələr, onların içərisindəki boşluqda isə dairəcikdən ibarət həndəsi naxış vardır (I tablo, şəkil 8). Radial genişlənən, hündür divarları qatlanaraq şaquli forma alan, düz ağzı olan xeyrə tipli qabın 3/1 hissəsi bayır tərəfdən qazıma cüt dalğalı xətlə bəzədilmiş, qabın ağzı dərin qazıma xətlə fərqləndirilmişdir. İçəri tərəfdən qabın divarlarına marqansla xoş görünüşə malik, "bulud" naxışını xatırladan burulan zolaqlardan ibarət naxış çəkilmiş, qab açıq sarı, şəffaf şirlə şirlənmişdir (4, s. 298, inv.752/09). Xeyrənin ağzının diametri-34 sm olmuşdur. Xatırladaq ki, Azərbaycan ornamental sənətinin əsas elementlərindən olan "bulud" rəsmi dekorativ-tətbiqi sənətdə, memarlıqda, xüsusilə xalçaçılıqda geniş tətbiq olunurdu. Qədimdən məlum olan bu naxış motivi orta əsrlərdə inkişaf etdirilərək mükəmməl forma almışdır (10, c.83). XVI əsrdə yaşamış məşhur Azərbaycan rəssam və xəttatı Sadıq bəy Əfşar "Qanun əs-suvar" əsərində qeyd edir ki, "Əgər sənə bulud və vaq məlum olsa, fransızlar niluferi sevdiyi kimi sən onları sevecəksən" (14).

Ağzında gəz olan kiçik tutumlu boşqab fraqmentində marqansla çəkilmiş qövsvarı zolaqlar həndəsi naxış əmələ gətirir (I tablo, şəkil 2).

Alçaq, halqavarı oturacaqlı nimçə tipli qaba məxsus fraqment üzərində marqansla dairə və ondan ayrılan, burularaq kənarlara uzanan zolaqlar çəkilib. Qab fraqment halında tapıldığından kompozisiyanı tam seyr etmək mümkün deyil. Fraqment əsasında dulusçu-rəssamın çərxi-fələk naxışını çəkdiyini düşünmək olar (I tablo, şəkil 3). Qeyd edək ki, mənşəyi minilliklərin dərinliyinə gedən bu naxış digər astral naxışlar kimi Şəmkir dulusçu rəs-

samların tez-tez müraciət etdikləri naxışlardandır. İslam dininin hakim ideologiya olduğu şəraitdə bu naxışın belə geniş yayılması onun transformasiya olunaraq islam dəyərlərinə uyğunlaşdırılması, nurun, həyatın mənbəyi, kainatın mövcudluğunu təcəssüm etdirməsi ilə bağlıdır.

Boşqab və ya kasa tipli qab fraqmentində, qabın dibində, kompozisiyanın mərkəzində marqansla xaçabənzər naxış elementi çəkilib. Xaçın qolları ucda hacalanır. Qabın divarları qırıldığından naxışın xarakterini tam aydınlaşdırmaq çətindir (I tablo, şəkil 4).

Nəzərdən keçirilən qrupu təmsil edən nümunələr arasında bir neçə duzqabı vardır. Divarları radial şəkildə genişlənən duzqabının içərisinə marqansla mərkəzdən qabın ağzına uzanan dörd zolaq çəkilib və həmin zolaqlar duzqabının daxili səthini dörd sektora bölür (I tablo, şəkil 5). Diskşəkilli oturacağı, kəsilmiş konus şəkilli gövdəsi, yastılaşdırılmış ağzının ortasında şırım olan duzqabının içərisinə marqansla qısa, nizamsız zolaqlardan ibarət naxış çəkilib. Qab açıq qəhvəyi şəffaf şirlə şirlənib. Ağzının diametri 8 sm, hündürlüyü 2,8 sm. (I tablo, şəkil 6). Diskşəkilli alçaq oturacağı, divarları radial genişlənərək sonda haçalanan, bir çıxıntı şaquli forma alaraq düz kənarlı ağzı, digər çıxıntı gövdənin yuxarısında qabarıq qabırğavarı qurşaq əmələ gətirən duzqabının ağzının kənarı çərtmələr düzümü ilə, içərisi marqansla çəkilmiş buketəbənzər ləkələlər ilə bəzədilib. Qab şəffaf, rəngsiz şirlə şirlənib (inv. 732/2011).

Erkən şirli saxsı məmulat arasında, az da olsa, küpə tipli qablara da rast gəlinir. Diskşəkilli oturacağı, armudvarı, oturacağa doğru daralan gövdəsi, maili çiyni, qısa, gen boğazı, bayıra qatlanmış ağzı olan küpənin çiyninə paralel, iki dairəvi cızma xətt salınmış, boğaz, çiyin və gövdəni əhatə edən müəyyən məsafələrlə qeyri-simmetrik üç yerdə yayğın marqans zolaq çəkilmiş, qab şəffaf, açıq sarı şirlə şirlənmişdir (I tablo, şəkil 7). Küpənin diametri oturacağında 5,6 sm, gövdəsində 11,3 sm, ağzında 8,2 sm, hündürlüyü 11,3 sm.

Bəzi nüsxələrdə marqans naxışlar anqob işləmələrlə daha da canlandırılmışdır. Alçaq, halqavari oturacaqlı kasa fraqmentinin hər iki üzü şirlənib. Qabın içəri tərəfində biri digərinin içərisində olmaqla iki dairə çəkilib. Dairənin içərisində çərxi-fələk naxışı çəkilmiş, bu naxışın daxilinə anqobla dairəciklər vurulmuşdur. Qabın bayır tərəfinə isə marqansla zolaqlar çəkilmişdir. Qab səffaf şirlə şirlənmişdir (inv. 694/2009). Boşqab tipli qabın içərisinə isə marqansla dairələr çəkilmiş, hər bir dairənin mərkəzinə marqansla badamvari ləkə vurulmuş, onun ətrafına dairə yaradan anqob nöqtələr qoyulmuşdur. Anqob nöqtələr həm də dairələr arasındakı boşluğa vurulub (II tablo, şəkil 1).

Gen, alçaq halqavari oturacağı olan boşqab və ya xeyrə tipli qabın alt hissəsini əks etdirən fraqment də diqqətəlayiqdir. Kompozisiyanın mərkə-

zində, qabın dibində marqansala dairə çəkilmişdir. Dairənin içərisində isə üç cərgə qövsvari işarələr çəkilərək onların daxilində anqob ləkələr qoyulmuşdur. Anqob ləkələr günəbaxan dənəsinə bənzəyir. Qabın divarlarında marqansla mürəkkəb həndəsi fiqur spiral üzrə burulan naxış elementi çəkilərək anqob ləkələr- günəbaxan dənəsinə bənzər işarələr ilə bəzədilmişdir. Qab şəffaf şirlə şirlənmişdir. Qeyd etmək lazımdır ki, spiral üzrə burulan həndəsi naxış qab qırıldığından tam müəyyənləşdirilməyib, bununla belə onun həndəsiləşdirilmiş "islimi" naxışı olması ehtimalı da diqqətdən kənarda qalmamalıdır (II tablo, şəkil 3). Divarları hündür olub radial genişlənərək ağıza keçiddə qatlanıb içəriyə meylli ağız əmələ gətirən kasa tipli qab fraqmentində marqansla oval və kiçik, düzgün olmayan dairənin növbələşdiyi həndəsi naxış salınıb. Naxış anqob ləkələrlə daha da canlandırılıb və açıq sarı şirlə şirlənib (II tablo, şəkil 4).

Halqavari oturacaqlı boşqab tipli qabın fraqmenti marqansla dairələrin yaratdığı həndəsi naxışla bəzədilib. Qabın dibində, kompozisiyanın mərkəzində biri-digərini içərisində olmaqla iki dairə, daxili dairənin içərisində isə, ehtimal ki, tor çəkilib. Torun damaları anqob nöqtə, iki dairə arasındakı boşluq isə dairə boyunca nöqtələr düzümü ilə canlandırılıb. Fraqmentdən bəlli olur ki, qabın divarında eyni naxış elementi təkrarlanırmış (II tablo, şəkil 5). Oxşar naxış elementinə monumental binadan tapılmış boşqab oturacağında rast gəlinib. Yuxarıda təsvir olunan fraqmentdə kompozisiyanın mərkəzindəki dairənin içərisində torun olduğunu ehtimal etdiyimiz halda, bu fraqmentdə dairənin içərisindəki torun üçbucaqlardan əmələ gəldiyini və hər bir üçbucağın daxilində anqob nöqtənin olduğunu aydın görürük (II tablo, şəkil 7). Başqa bir alçaq, halqavari oturacaqlı boşqab fraqmenti marqansla çəkilmiş dairə və qövsvari zolaqlar vasitəsi ilə həndəsi naxış – ehtimal kimi çoxguşəli ulduzla bəzədilib. Ulduzun ortasındakı boşluğa marqansla düzgün olmayan dairəcik salınıb və anqobla damcıyabənzər ləkə vurulub. Anqoblu damcıyabənzər naxış elementi ulduzun guşələri içərisində və guşələr arası boşluqda da qoyulub (II tablo, şəkil 6). Dibində, kompozisiyanın mərkəzində dairə, divarlarında çoxguşəli ulduz, ulduzu hüdudlayan dairə çəkilmiş dekora malik boşqabın fraqmentləri tapılıb. Naxış marqansla çəkilmiş, marqans zolaqlar anqob nöqtələrlə canlandırılmışdır (4, s.297, inv. 270/2011). Bu naxışı canlandırmaqla yanaşı həm də ona xallılıq xarakteri verir

Marqansla çəkilmiş sırf nəbati naxış elementlərinə az rast gəlinir. Misal üçün, şirli qab fraqmenti üzərində konsentrik dairələrin mərkəzində səkkizləçəkli gül təsviri çəkilib. Nəbati naxış marqansla icra olunub. Ləçəklərin içərisinə anqob nöqtələr düzümü salınıb. Çiçəyi dövrələyən dairələr marqansla çəkilmiş, onların arasındakı boşluqda isə anqob nöqtələr düzümü dairə əmələ gətirir. Qab açıq sarı şirlə şirlənib (II tablo, şəkil 8).

Şir altından marqansla naxışlanmış saxsı qablar VIII-X əsrlərdə Azərbaycanın bütün dulusçuluq mərkəzlərində istehsal olunurdu və arxeoloji qazıntılar aparılmış orta əsr abidələrindən yaxşı məlumdur (1, s.67; 2, s.137; 3, s.162; 6, s.32-33;7, s. 53, 55; 9, c.57;11, c.123).

Orta əsr Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılardan əldə olunmuş marqansla naxışlanaraq şəffaf şirlə şirlənmiş erkən şirli saxsı qabların araşdırılmasına yekun vuraraq bu keramikanın VIII-X əsrlərdə şəhər sakinlərinin məişətində əsasən süfrə qabları təyinatına malik olduğunu, onların bədii tərtibatında həndəsi ornamentlərin üstünlük təşkil etdiyini, rast gəlinən nəbati naxışların stilizə olunaraq həndəsiləşdirildiyini təsdiqləyə bilərik.

**Ədəbiyyat:**

1. Azərbaycan arxeologiyası. Altı cilddə. Bakı, "Şərq-Qərb"nəşr., 2008, 632 s.
2. Babayev İ.A. Qəbələnin ilk şirli qabları. // Azərbaycanın maddi mədəniyyət tarixi. Bakı, Azərbaycan SSR EA nəşr., 1964, V ciıld, s. 131-148
3. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan XI-XV əsrlərdə. Bakı,Bakı Universitetinin nəşr., 2001, 396 s.
4. Dostiyev T.,Bəşirov R., Mirzəyev R., Hüseynli N. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı, Çaşıoğlu nəşr., 2013, 516 s.
5. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, "Şərq-Qərb"nəşr., 2007, 160 s.
6. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı, Elm,1979, 198 s.
7. İsmayılzadə Q.S. Təxti-Tavusun sorağında. //Azərbaycan arxeologiyası, 1999, 3-4, s.46-55.
8. Агамалиева С.М. Гончарство Азербайджана. Баку, Элм,1987, 136 с.
9. Ахмедов Р.Дж. Керамика Баку IX-XVII вв. Баку, Элм,1992, 152 с.
10. Керимов Л.Г. Азербайджанский ковер. Баку, Гянджлик,1983, т.II, 242 с.
11. Кудрявцев А.А. Поливная художественная керамика Дербента VIII-X вв. // Народное декоративно-прикладное искусство и современность. Махачкала, 1979, с. 111-132.
12. Миклухо-Маклай Н.Д. Географическое сочинение XIII в. на персидском языке. // Ученые записки Института Востоковедения АН СССР, т. IX, 1954, с.175-210.
13. Наджафова Н.Н. Художественная керамика Азербайджана XII-XV вв. Баку, Изд-во АН Азербайджанской ССР, 1964, 140 с.
14. Садык-бек Афшар. Ганун ас-сувар. Перевод с персидского, комент. и примеч. А.Ю.Казиева. Баку, Изд-во АН Азербайджанской ССР ,1963.

# GLAZED POTTERY OF MEDIEVAL SHAMKIR WITH MANGANESE ORNAMENTS

**Tarikh Dostiev**

## Summary

**Keywords: Shamkir, medieval, glazed ceramics, manganese ornaments, slip.**

In decorating pottery of medieval Shamkir, manganese ornaments were widely used under transparent glaze of lead in VIII-X centuries. Geometric patterns, such as circles, spirals, almond shaped and arch shaped figures, vertical stripes etc. dominated in décor of pottery shards with manganese ornaments. Noteworthy is the third part of a dish, decorated with a pattern reminiscent of the drawings “bulud” – “cloud”, stamped manganese ornaments. The décor, painted with manganese ornaments with white slip has been found as well.

# ГЛАЗУРОВАННАЯ КЕРАМИЧЕСКАЯ ПОСУДА СРЕДНЕВЕКОВОГО ГОРОДА ШАМКИР РОСПИСЬЮ МАРГАНЦЕМ

**Тарих Достиев**

## Резюме

**Ключевые слова: Шамкир, средневековый, глазурованная керамика, роспись марганцем, ангоб.**

В VIII-X вв. в декорировке керамики Шамкира широко применялась роспись марганцем по черепку под свинцовой прозрачной глазурью. В декоре керамики росписью марганцем преобладают геометрические орнаменты: круги, спирали, дугообразные и миндалевидные фигуры, вертикальные полосы и т.д. Заслуживает внимания фрагмент блюда, украшенный узором, напоминающий рисунки «булут» - «облако», нанесенный росписью марганцем. Встречается также декор, расписанный марганцем с белой ангобной расцветкой.


1

2

3

4

5

6

7

8

I Tablo. Marqans naxışlı erkən şirli saxsı qablar.


1



2



3



4


5


6



7


8

II Tablo. Marqansla naxışlandaraq anqob ləkə və ya dairəciklərlə canlandırılmış erkən şirli saxsı qab nümunələri.

# QAYAÜSTÜ İNCƏSƏNƏTDƏ AT VƏ ATLI TƏSVİRLƏRİ

**Sevinc Şirinli**
(Qobustan Milli Tarix-Bədii qoruğu)
shirinova-sevinc@mail.ru

**Açar sözlər: Qayaüstü təsvirlər, atlı, ov səhnələri, orta əsrlər.**

Arxeologiyanın tədqiq etdiyi maddi-mədəniyyət nümunələri müxtəlif təyinatlıdır: qədim daş dövrü mağaraları, insanların son sığınacağı olan qəbir abidələri, tarixin çox hadisələrinə şahidlik edərək indi sükuta qərq olmuş orta əsr şəhərləri və s. Amma bu arxeoloji fenomenlər içərisində ibtidai rəssamların özləri də bilmədən əsl incəsənət nümunələrinə çevrilmiş əsərləri-qayaüstü təsvirlər xüsusi yer tutur. Bu gün dünyanın bütün coğrafiyalarında yayılan bu nadir rəsmlər arxeoloqların, sənətşünasların, etnoqrafların və digər elm sahələri tədqiqatçılarının diqqətini özünə cəlb edir. Müasir dövrdə Azərbaycan ərazisində qayaüstü təsvirlər olan 4 ocaq qeydə alınmışdır:

1. Böyük Qobustan zonası. Bu zona Böyükdaş, Kiçikdaş, Cingirdağ, Şıxqaya və Şonqardağ dağlarının ərazilərini əhatə edir.
2. Abşeron yarımadası zonası. Bura Bəndüstü düzənliyi və Ağdaş düzü, həmçinin Dübəndi, Türkan, Zirə, Bilgəh, Mərdəkan, Şüvəlan, Ramana qəsəbələri daxildir;
3. Gəmiqaya dağı zonası;
4. Kəlbəcər rayonunda Dəlidağın ətəkləri (5, 12-13).

Azərbaycanın təbii coğrafi şəraiti ilə əlaqədar minilliklər boyu ata böyük ehtiyac olmuş, at həm də ən qiymətli xalq nəqliyyatı vasitəsi sayılmışdır. Qazıntılardan əldə edilən osteoloji qalıqlar atçılığın qədim dövrlərdən Azərbaycanda təşəkkül tapdığını söyləməyə imkan verir. Bu baxımdan Azərbaycanın cənub-şərqində yerləşən Cəlilabad rayonu ərazisində Eneolit dövrünə aid Əliköməktəpəsində qazıntılar zamanı 75% təşkil edən iki növ əhliləşmiş at sümüyünün tapılması böyük maraq doğurur (1, 178). Bu tapıntı Qafqazın cənub-şərq ərazilərinin ən qədim at əhliləşdirilmə ocaqlarından biri kimi çıxış etməsinə imkan yaradır. Görünür daş dövründə Qobustanın savanna tipli landşaftı burada da at sürülərinin yaşamasına imkan vermişdir. Qobustan qayaüstü təsvirlərinin tədqiqi nəticəsində atın əhliləşdirilməsi, ondan qoşqu və minik heyvanı kimi istifadə edilməsi daha sonrakı tarixi mərhələlərə aid edilir (8, 61).

Artıq tunc dövründən etibarən yüksək bədii dəyərə malik at və atlı təsvirləri meydana çıxır. Nizə, üçdişli yaba, qılınc və kəmənd silahlanmış süvari rəsmləri, ov səhnələri bu dövrə aid edilir. Qobustanda Yazılıtəpədə bir daşın üzərində çılpaq atın ağzına gəm verilmişdir. At üzərində olan süvarinin əlində yabaya oxşar alətlə maral ovladığı təsvir edilmişdir. Xüsusilə köçmə

maldarlıq formasının inkişafı, tayfalar arası mübarizənin güclənməsi, ilk sinifli cəmiyyətin və dövlətlərin yarandığı bir şəraitdə atdan istifadə və ona olan tələbat getdikcə artır. Əhali arasında ata böyük etiqad yaranır (2, 67-68).

At və atlı təsvirlərinin yaradılması ənənəsi orta əsrlər dövründə də davam etdirilir. Bu dövr üçün atlı və dinamik ov səhnələri daha çox xarakterikdir. Məlumdur ki, bu dövrdən ovçuluq artıq əvvəlki əhəmiyyətini itirmiş, mahiyyətinə görə əyləncəyə və ya idmana çevrilmişdir. Ov ox, nizə, qılınc, örkənlə, it və ya ov quşlarının köməyi ilə həyata keçirilir. Sonuncuya aid ən yaxşı nümunə Böyükdaş dağının aşağı səki sahəsində 258 N-li daşda saxlanılmışıdr. Burada sürtmə üsulu ilə çəkilmiş bir neçə rəsm vardır ki, onlardan biri də ov quşu ilə ov edən atlı təsviridir. Real quruluşda çəkilmiş bu təsvirdə at profildən, sanki yüngül qaçışda çəkilmişdir. Atın belində oturmuş ovçunun hər iki ayağı atın bir yanından asılmışdır. Bir əli ilə cilovu tutan ovçu başı üzərinə qaldırdığı digər əlində hansısa ov quşu –şahin-tutmuşdur. Təsvirin dəqiqliyinə əsasən tədqiqatçı İshaq Cəfərzadə onun profildən çəkildiyini qeyd etmişdir (7, 108-109).

Yazılıtəpə sahəsində 9 N-li daşda erkən orta əsrlər dövrünə aid edilən at təsvirləri vardır. Dinamik vəziyyətdə təsvir edilən bu atın baş detalları qeyd edilməyib. İkinci rəsmdəki heyvan isə bir qədər kobud və sxematikdir. Rəsmdən sonra heyvanın qulağının dibindən uzun qılıncvari buynuzun çəkilməsi heyvanın növünün müəyyənləşdirilməsində çətinlik yaratmışıdır. Həmin daşda daha 3 atlı təsviri qeydə alınmışdır ki, onlardan 2-si e.ə. II-I minilliklərə, biri isə son orta əsrlər dövrünə aid edilir. Sonuncuda atlı nizə ilə yox, hansısa dəyirmi bir alət, ola bilsin ki, örkən tutmuş vəziyyətdə təsvir edilmişdir. 34 N-li daşda qeydə alınmış sxematik atlı isə XVIII-XIX əsrlərə aid edilir. At profildən, sanki asta yeriyən vəziyyətdə təsvir olunmuşdur. Atlının irəli uzadılmış əllərində sağa doğru istiqamətlənmiş ucu şiş nizə vardır.

47 N-li daşda qeydə alınmış 2 atlı təsvirindən birincisi erkən orta əsrlər dövrünə, onun altında yerləşən 2-ci rəsm isə e.ə. II-minilliyin son əsrlərinə aid edilir. Atın belində yəhərsiz oturmuş atlı anfasdan göstərilib. Atlının üz cizgiləri verilməmişdir. Silahsız təsvir olunmuş atlının əlləri yana doğru açılmışdır.

63 N-li daşda qeydə alınmış atlı təsvirləri süvarilərin geyiminin təsviri baxımdan maraq doğurur. 4-cü rəsmdəki atlı enli geyimdə olub yəhərsizdir. Yalnız nizə tutmuş və yuxarı qaldırılmış bir əli təsvir olunmuşdur. Nizənin şiş ucu heyvanlara doğru istiqamətlənmişdir. Atın ağzının axırında atlının əlinə tərəf çəkilmiş xətt cilov kimi qeydə alınmışdır. 5-ci rəsmdəki atlı da qısa geyimdə əlində silah ola bilsin ki, ox, sağ əli ilə isə yayı dartan vəziyyətdə təsvir olunub. Ümumilikdə bu kompozisiya eramızın əvvələrinə aid edilir. 27-ci rəsmdə isə son orta əsrlərə aid edilən yəhərsiz oturmuş atlı təsvir edilib. Atlının qabarıq çəkilmiş baş forması xüsusi baş geyimini xatır-

ladır. Profildən, realistik təsvir olunmuş at yüyənsizdir. Dinamik təsvir edilmiş bu səhnədə at sanki hərəkət etmək istəmir, adam qırmanc və ya haça uclu çubuqla onu qaçmağa məcbur edir. Atlının əlində çatını xatırladan əşya da vardır.

136 N-li daşda 3 atlı təsviri vardır. 1-ci rəsm e.ə. II-I minilliklə, 2-ci rəsm e.ə. I minilliyin ortalarına, 3-cü rəsm isə eramızın əvvələrinə aid edilir. Sonuncuda atlı yəhərsizdir, bir əlində cilov, çiyni bərabərliyinə qaldırdığı digər əlində isə nizə tutmuşdur.

Böyükdaş dağının yuxarı terrasında da at və atlı təsvirləri vardır. "Çardaq zağa" sığınacağının cənub tərəfini təşkil edən 13 N-li daşda 3 atlı və 1 at təsviri qeydə alınıb. 4-cü və 6-cı şəkillərdə döyüş səhnəsi əks olunub. Hər 2 atlı atın yüyəninin cilovundan tutmuş, qılınc o biri əllərini isə yuxarıya qaldırmışlar. 4-cü rəsmdəki atlının belindəki qılıncın qını aydın görünür. Atın irəli istiqamətlənmiş başı, yuxarı qalxan quyruğu və ayaq vəziyyətinə əsasən hücum edənin 1-ci atlı olduğu nəzərə çarpır. Digər at və atlı da metal alətlə çəkilmişdir. Maraqlı kompozisiya təşkil edən bu səhnə erkən orta əsrlər dövrünə aid edilir.

30 N-li daşda kobud və sxematik şəkilmiş 3 at son orta əsrlərə, 1 atlı təsviri isə VIII-IX əsrlərə aid edilir.

90 N-li daşda isə çox aydın nəzərə çarpan bir kompozisiya vardır. Bu silahlı atlının qabanı ovlaması səhnəsidir. Atlı bir əli ilə cilovu, yuxarı qaldırdığı əli ilə isə düz tiyəli qılınc tutmuşdur. Atın ağzından üç kiçik şaquli xətlə göstərilmiş köpük ovun uzun müddət davam etdiyini göstərir. Asta qaçan qaban profildən təsvir edilmişdir. Qaban üçün səciyyəvi olan, yuxarı qalxmış gödək quyruğun ucunun bucaq altında belə doğru yönəldilməsi rəssamın məharətini göstərir. Kompozisiyada iki it də yer almışdır ki, boynunda xalta olan it hücüm vəziyyətindədir. O biri isə sanki geri çəkilir. Bu dinamik ov səhnəsi bizim eranın əvvəllərinə aid edilir.

Digər ov səhnəsi 103 N-li daşda qeydə alınmışdır. Burada metal alətlə sxematik təsvir olunmuş 8 rəsm vardır. Qrupun yuxarısında yerləşdirilmiş birinci atlı nizəsini marala tuşlayıb. Kəmənd və qılıncla silahlanmış bu süvari hərəkətdə- nizəni atarkən çəkilmişdir. Maraqlı cəhətlərdən biri də budur ki, hər iki atlının ayaqları atın gövdəsinin yalnız bir yanında göstərilmişdir, sanki onlar atın belində ayaq üstə dayanmışlar. İkinci atlı da nizəni atan vəziyyətdədir. Nizənin sapının dal ucunda qalın xətlə çəkilmiş əşya görünür zərbəni qüvvətləndirmək üçün istifadə edilmişdir. Atın altında dayça da vardır. 7-ci rəsmdə ayaq üstdə dayanmış at da təsvir edilmişdir. Kompozisiyada atlılar tərəfindən qovulan vəziyyətdə göstərilən maral profildən çəkilmişdir. Ümumilikdə bu səhnə V-VI əsrlərə aid edilir.

Qobustanda qayaüstü təsvirlərdən əlavə atla bağlı digər maraqlı tarixi yadigarlara da rast gəlinir. Ümumiyyətlə heyvan təsvirlərini tədqiq edən za-

man onların arxaik inamlarla bağlı olması istisna edilmir. Bu baxımdan qeyd edək ki, təkcə azərbaycanlıların deyil, Avropa və Asiya xalqlarının bir çoxunda at həm də mifoloji düşüncənin əsas obyektlərindən biri olmuşdur. Çox vaxt Tanrının, səma cisimlərinin atla, ya da at qoşulmuş arabalarda hərəkət etdiyi nəql olunur (4, 345). Azərbaycanda arxeoloji qazıntılarda aşkarlanan at heykəlcikləri, at formalı qəbir daşları, hətta at dəfnləri bunu təsdiqləyir. Görünür Qobustanda da atla bağlı "Qara atlı" pirinin olması təsadüfi xarakter daşımamışdır. Kiçikdaş dağının cənub qurtaracağında, iri qaya parçalarından birində yerləşən pir yerli əhali arasında indi də məhşurdur. Pirin yaranmasında yaxınlıqdakı qəbirstanlıqda olan at formalı qəbir daşı da müəyyən rol oynamışdır. Burada başsız və ayaqsız, üzərində yəhər və silah növləri olan at bədəni aşkar olunmuşdur. Yanındakı yonulmuş daş parçası isə atın kəsilmiş başını xatırladır (6,120). Qara atlı qəbirstanlığındakı at fiquru Azərbaycanın bir sıra rayonlarındakı orta əsrlər dövrünə aid məlum at heykəlləri ilə yaxınlıq təşkil edir.

Etnoqrafik materiallara istinad edərək deyə bilərik ki, at xoşbəxtlik və uğur gətirən qüvvə kimi bu gündə xalq təfəkküründə xüsusi yer tutmaqdadır (3, 58). Çoxsaylı folklor nümunələrinin təhlili göstərir ki, at təkcə azərbaycanlılar arasında deyil, bütün türk etnocoğrafiyası daxilində hələ ibtidai çağlardan yüksək qiymətləndirilmiş və xüsusi ehtirama layiq görülmüşdür.

**Ədəbiyyat:**

1. Azərbaycan Arxeologiyası I cild, Bakı, "Şərq-Qərb", 2008, 445 s.
2. Azərbaycan Etnoqrafiyası I cild, Bakı, "Şərq-Qərb", 2007, 543 s.
3. Azərbaycan Etnoqrafiyası III cild, Bakı, "Şərq-Qərb", 2007, 567 s.
4. Əliməmmədov A. İslamaqədərki inamların öyrənilməsində qayaüstü təsvirlərin roluna dair // Milli Azərbaycan Tarixi Muzeyi, Bakı, "Ziya", 2013, 345 s.
5. Fərəcova M. N. Azərbaycan qayaüstü incəsənəti, Bakı, "ASPOLİQRAF", 2009, 373 s.
6. Rüstəmov C. Qobustan dünyası, Bakı, " Azərbaycan Dövlət nəşriyyatı", 1994, 174 s.
7. Джафарзаде И. М. Гобустан- наскальные изображения, Баку, Издательство "Элм" 1973, 346 s.
8. Исмаилзаде. Г.С. Петроглифы Азербайджана как составная часть древнейшего искусства Евразии // Кавказ в контексте всемирной истории, Тбилиси, 1996.

## HORSE AND HORSE-RIDER IN THE ROCK ART

**Sevinj Shirinli**

**Summary**

**Key words: Rock engravings, horse rider, hunting scenes, Middle Ages.**

The article is about the descriptions of horse and horse-riders which belong to Middle Ages. Obviously, there are several areas of distribution of petroglyphs in Azerbaijan; rich collection of drawings are located in Gobustan, Absheron, Nakhchivan and the high mountaneous areas of Kalbajar. Due to the natural geographical condition of Azerbaijan, a horse has been considered as a valuable mean of transport for thousands of years. On the basis of osteological remains, it has been substantiated that horse-breeding has been evolved since Neolithic period. Apparently, savanna-type landscape of Gobustan was convenient for horses to live here in Stone Age. Studying rock engravings of Gobustan shows that domestication of horse and using it as a mean of tansport and carriage dates back to Neolithic and Paleometalic periods.

## КОНЬ И ВСАДНИК В НАСКАЛЬНОМ ИСКУССТВЕ

**Севиндж Ширинли**

**Резюме**

Известно, что в Азербайджане в настоящее время наличествует несколько очагов древнего наскального искусства. К ним относятся общеизвестные Гобустанские и Абшеронские наскальные изображения, а также изображения Нахчыванского и Кельбаджарского высокогорных зон. Среди выявленных древних изображений особое место занимают изображение коня и всадника. В этом отношении большую научную значимость представляют изображения Гобустана. В хронологическом отношении они охватывают огромный отрезок времени – от неолита до средневековья, что позволяет нам проследить все последовательные этапы истории коневодства.

Примечательно, что средневековые изображения Гобустана имеют аналогии со всего тюркского мира.



Şəkil1. Atlı təsvirləri. Yazılıtəpə 34 N-li daş (Джафарзаде И. 1973)



Şəkil 2. Atlı təsvirləri. Yazılıtəpə 47 N-li daş (Джафарзаде И. 1973)



Şəkil 3. Ov səhnəsi Böyükdaş, yuxarı səki, 103 N-li daş (Джафарзаде И. 1973)



Şəkil 4. Ov səhnəsi Böyükdaş, yuxarı səki, 90 N-li daş (Джафарзаде И. 1973)



Şəkil 5. Atlı təsviri Böyükdaş, aşağı səki, 258 N-li daş (Джафарзаде И. 1973)

# ИКОНОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ НУМИЗМАТИЧЕСКИХ МАТЕРИАЛОВ АЗЕРБАЙДЖАНА ПЕРИОД САСАНИДОВ И АРАБСКОГО ХАЛИФАТА

**Ганира Пиргулиева**
(Бакинский Государственный Университет)
P_qanira@hotmail.com

**Ключевые слова: денежные номиналы, отдельные элементы, суры и аяты, ободок и кружки.**

В изучении нумизматических материалов иконографический анализ занимает особое место. Этот метод со своими некоторыми особенностями отличается от других способов изучения монетных материалов.

Период средневековья (V- нач.X века) в денежном обращении Азербайджана является временем зарождения, формирования и упадка денежных отношений и денежного рынка. В начале, точнее в V- нач. VI века, когда территория Азербайджана входила в состав Сасанидской империи, появляется первые монетные дворы в центральных городах страны. Эти города - Нахчыван, Барда, Баку, Дербент, Гянджа, Тебриз, Экбатан, Гилан, Двин, Атропатена. Впервые на монетах с указанием названия этих городов чеканили краткие монограммы с местом чеканки. В оформлении картуша присутствует лаконичность, точность. В указанные столетия территория современного Азербайджана в составе Сасанидской империи входил в т. наз. третий или же северный сипахбуд, который в некоторых некоторых письменных источниках обозначен местом Бахтер. По мнению востоковедов-иранистов, в эту область входили, кроме территории исторического Азербайджана, Армения в Киликии, современная территория Турции, весь Кавказ, Фарустан и Демавенд (5, с.81).

В централизованном Сасанидском государстве выпускали серебряные драхмы, которые являлись основной единицей денежно-весовой системы всей империи. Сасанидские серебряные номиналы в иконографическом отношении отличались от предыдущих парфянских – аршакидских монетных номиналов со своим высокохудожественным оформлением картуша. Эта было «кульминационное время» в целом в развитии древневосточных денежных единиц. Иконографические отличия сасанидских монет, в том числе и изделий монетных дворов Азербайджана, выявляются в нижеследующих элементах:

1. На лицевой стороне, в аверсе, нагрудной портрет правителей-шахиншахов носили характер точности, т. е. из – за того, что лица не повторяются можно предполагать, что они не являлись схематичными

изображениями. На оборотной стороне, на реверсе, характерная общепринятая с античного времени во всех империях сцена божественной инвеституры правителей отличаются у каждого из них

2. Как и у Парфянских - Аршакидских правителей, на монетах Сасанидов одним из главных отличительных особенностей является тип короны, формы третичного волосяного покрова - волосы, усы, бороды в виде целой интересной прически. Тут особо следует отметить, что в украшении головы присутствуют интересные формы ленты (возможно из дорогих тканей), серьги всевозможных форм, нагрудное ожерелье (возможно из драгоценных металлов).

3. Важнейшие данные – монограммы, чеканились в основном на лицевой стороне вокруг головы правителей на поверхности поля до различных оформлений ободка. В прошлом веке Е.А.Пахомов особо подчеркивал, что «если с начала V века указание монетного двора ставится в различных местах монеты, то с конца V века оно окончательно получает постоянное место на обороте монеты в правой от штемпеля стороне. Это же место оно сохраняет и на чеканке, выпускавшееся при арабах, после падения сасанидов, но по сасанидскому типу» (3, с.10).

На территории современного Северного Азербайджана продукции местных монетных дворов повсеместно чеканятся со времени 6-го года Хормузда IV (570-590). Интересно, что здесь найдены также подражания этим денежным единицам. Возможно, экономическое усиление, геополитическое местоположение, стратегическое преимущество и другие объективные причины привели к нехватке наличных валют от имени этого правителя, в результате чего появляется не законные, а грубые и резко отличающие от государственного чекана монеты на территории страны в указанное время. По иконографическим и статистическим анализам монет можно предполагать, что эти монеты – подражания также присутствовали во внутреннем денежном обращении, но с низкой себестоимостью. Возможно, из-за низкого качества и малого количества серебра в составе этих единиц, также из-за грубых непонятных монограмм, неразборчивых портретных изображений, эти монеты - подражания ценились на денежных рынках соответственно ниже, чем законные. Сохранность этих монет в основном неудовлетворительная, степень стертости высокая. Благодаря этим иконографическим признакам предполагаем, что эти монеты подражания имели хождение внутри тех городов или регионов, где собственно и чеканились. Другой вывод заключается в том, что появление на рынках таких монет было результатом политических распрей, ослабление центральной власти и усиление отдаленных населенных пунктов и городов от столицы. К началу VII века в государстве начинается сильный экономи-

ческий и политический упадок, и интересно, что на территории Азербайджана продолжают чеканить в монетных дворах монеты от имени сасанида Хормизда IV, относящиеся к его пятому и шестому году правления.

При ранних арабских нашествиях из-за нехватки времени и экономических возможностей, в том числе из-за непотребности собственный чекан в завоеванных территориях не устанавливался. Однако науке известны арабо - сасанидские, арабо-византийские денежные единицы, употребляемые внутри государства. В это время некоторые монетные дворы продолжали функционировать. Однако на основе топографических исследований найденных монет и кладов этого государства на нашей территории можно утверждать, что особого прорыва со 2 –ой половины VII- до начала IX века не наблюдался. Продукция монетных дворов Азербайджанских городов указанных столетий сравнительно малочисленна. В это время с некоторыми перерывами работали монетные дворы Нахчывана, Газака, Гилана, Шиза, Занджана, Гянджа и Двина, где чеканили идентичные типам драхм сасанида Хосрова II и его преемников. Однако в некоторых северных и северо-восточных районах современного Азербайджана найдены уникальные медные монеты с легендой на фарсидском языке. В них ясно читается место чеканки Арз–аз Хазар, в буквальном переводе- земля хазаров или место хазаров. По истории известны точные факты о том, что на территории Азербайджана велась 100- летняя война между арабами и хазарским каганатом. Однако какие-либо существенные находки монет или кладов по сей день в науке не зарегистрированы. Нам посчастливилось увидеть некоторые единичные находки с указанием этого монетного двора из вышеуказанных областей страны. Итак, в первой половине XIX века русские ученые, занимаясь вплотную составлением истории Российского государства, неоднократно обращали особое внимание на нумизматические материалы, найденные на территории России. По вопросу связанные с хазарами и их монетных дворов некоторые из них писали: «Западный берег Каспия от устьев Волги до Ширвана, в то время (имеется ввиду VII-IX века –авт.) признавали власть сильной и воинственной державы Хазар. Они первые из народов России вступили в непосредственные сношения с арабами, сперва в битвах против них на берегах Аракса, и в Закавказье, а потом в торговле с ними на берегах Итиль» (1, с.XVIX). Другие ученые пишут, что «торговлями руководил сам хазарский хакан- каган, который имел крепость и резиденцию Хазарань», которую локализуют на восточном берегу современного Каспийского моря. “Хазарань- торговая гавань и биржа Итиль, Васильевский остров Хазарского Петербурга Итиль отдаленной от него рекой”

(1,с.LXII). Главные научные заключения этих ученых написаны так: "куфические монеты VII, VIII, перв. пол.IX века вырытых в России, можно сказать буквально положены в основании здания Государства Российского" (3, с.LXXV).По поводу монетного двора Арз-аз Хазар, в 1861 году в другом академическом издании Императорского Археологического Общества написано, что"в России в нач. IX века существовало 2 торговых союза - один восточный или Низовый, в который входили Булгары, Эрза или Мордва или часть Веси, другая западная". Здесь автор предположительно называет старое название Арз- аз Хазар, как Эрза, и новое название Мордва или часть Веси ( 4, с.228; 2, с. XII). Значит, мы имеем полное право среди монетных дворов чеканившие монеты в это время называть Арз-аз Хазар, который чеканил медные монеты .

Первые арабские медные мусульманские монеты появляются в денежном хозяйстве и на рынках, чеканенные в 776\777 годах в Арране. Этот монетный двор находился в Барде. Этот факт означает, что арабский халифат Омейядов разрешил чеканить денежные номиналы в некоторых центральных городах, но с указанием названия области, а не самого города, где находился монетный двор.

В результате иконографического анализа, проведенного нами, установлены нижеследующие факты на нумизматических материалах, чеканенные в монетных дворах Азербайджана в указанное время:

1. Омейяды чеканили монеты с указанием крупных административных делений. Относительно исторических территорий Азербайджана - это название Азербайджан с главным монетным двором в Ардебиле и Арран со столицей Барда. Оба названия указаны на всех трех номиналах - золотом динаре, серебряной дирхеме и медном фулусе. В нумизматических фондах музеев Европы и Азии сохраняются множество таких денежных единиц.

2. Как в центральных городах халифата, так и в монетных дворах Азербайджана на монетах в основном чеканены 33 стих 9 суры и 9 стих 61 суры из Корана, где смысл об истине и о пророке Мухаммеде в достижении Аллаха, также без каких-либо изменений священная калима. У всех денежных единиц указаны один из самых важных элементов в легенде- название номиналов - динар, дирхем и фулус, что со временем исчезает из мусульманских монет. Причиной, по нашему предположению является тот факт, что население со временем запомнило эти названия, и не осталось нужды для чеканки этой информации. И конечно, товаро -денежные отношения велись на основе серебряных дирхемов, точнее монометаллизм, которое имело исключительное значение среди многомиллионного населения Арабского Халифата.

3. Важным результатом проведенных иконографических анализов было то, что выявлено новое название монетного двора Байджа или Балх-аль-Байджа. Балх - это название области, находящееся в современной Средней Азии. В буквальном переводе это слово можно перевести с арабского языка Байджа в Балхе. По мнению некоторых ученых, это название сельской местности, которая, располагалась в современной южной части в приморском Дагестане. Некоторые ученые относят эту местность к хазарам. После победы над хазарами арабы стали чеканить монеты с указанием места чеканки аль-Баб вместе Дербенда. Самые ранние монеты, чеканенные в этом монетном дворе, относятся к 121 г.х.(738\39гг).Следует отметить, что арабы полностью не изменили название города Дербенда, так как слово Дербенд, как и аль-Баб переводится на обоих языках -на арабском и на фарси-запертая дверь или дверь. Они просто перевели слово Дербенд на арабский язык.

4. Одним из интересных выводов иконографического анализа монет ранних арабских номиналов являются небольшие кружки, выбитые в основном на лицевой стороне этих номиналов. Так, на серебряных монетах, по кругу ободка - 5 кружочков, на медных фулусах- 4 кружка. Возможно, 5 кружков относился к настоящей цене дирхема по отношению к золотому динару, а 4 круга -по отношению фулусов к серебряным дирхемам. В метрологическом понятии это соотношение золотого динара к серебряному дирхему 1: 5, медныхфулусов к серебряным дирхемам 1:4.

По реформе «революционера», главного строителя экономики Арабского Халифата Абд-аль Малика Мервана на денежных единицах были указаны все данные метрологического порядка. Любой мусульманин, зная основы арабского языка и основы торговых сделок тех времен, мог бы спокойно понимать важность всех важных слов и элементов, рассмотрев монеты своего времени. Особых навыков не требовалось в этом направлении.

Оставляя неизменной название номиналов при правлении Аббасидов, происходят некоторые иконографические изменения на продукциях монетных дворов Азербайджана. На денежных единицах появляются названия 12 монетных дворов, т. к. во всем халифате функционировали 136 монетных дворов, то для небольшой территории Азербайджана в таком огромном Арабском Аббасидском Халифате около 1 % имело огромное значение (6). С другой стороны, в это время на исторической территории Азербайджана сложились именно 12 крупных стратегических со всеми важными элементами инфраструктуры, столько же городов. Но это происходит не сразу с образованием указанного халифата. При первом халифе Абуль Аббасе (750-754) в течение всех 4

лет его правления монетные дворы в Азербайджане не функционировали. Только лишь при правлении Абу Джафаре аль - Мансуре в древнем городе Шемаха с новым названием –аль- Йезидиййа в 140 г.х. (757\58 г.) чеканились монеты. На этих монетах религиозные тексты не изменяются. Меняются формы ободка. Ободки в основном 3-4 линейные с определенными расстояниями между собой. Внутри этих линий на ровном друг от друга расстоянии 3 или 4 одиночные, или же столько же парных по размеру мелких кружков. Часто в оформлении картуша последний элемент, ближе к гурту, точечный ободок.

Таким образом, резюмируя вышеуказанные данные можно перейти к заключению, что, несмотря на усиление централизованной власти государств Сасанидов и Арабского Халифата (конкретно Омейяды, Аббасиды точнее домонгольский период) азербайджанские города со своим монетными дворами имели некоторые особенности. Эти элементы при непрофессиональном осмотре не заметны. Но внимательно изучив эти нумизматические материалы, устанавливаются и уточняются очень интересные исторические факты. На основе данного исследования получается, что на территории Азербайджана были и выпускали свои монеты еще не локализованные монетные дворы. Среди них мы отметили Балх - аль Байджа или Балх, который возможно находился на северо -восточных частях исторического Азербайджана, конкретно в Ширване. Второй монетный двор Арз-аз Хазар. Другой фактор касается от иконографии до метрологии монет Арабского халифата. Если в нумизматической науке принято соотношение одного номинала к другой только лишь путем весовых данных, то благодаря иконографическим особенностям более точно устанавливается этот экономический фактор тех столетий. Повышение количества кружков на картуше до 6 происходит в период последних Аббасидов, в основном не в центральных городах Халифата, а в таких провинциях как Азербайджан. По нашему мнению, подобный факт свидетельствует некоторые элементы самостоятельных решений при управлении областей. Возможно, это происходит также и в других отдаленных от центра Халифата. Со-отношение 1:6 между золотыми динарами и серебряными дирхемами, которое нашло свое название в тюркском слове «алтун» , является тому достойным аргументом. Этот номинал не упоминается в арабских источниках, в том числе не употребляется в лексикологии арабоязычных стран. Но в тюркском языке слово «алтун» означает золото, корень слова «алты» - переводится как цифра 6, т.е. один золотой динар стоил 6 серебряных дирхемов. Благодаря иконографическим анализам небольшого количества (около 100 единиц) из монетных дворов Азербайджана, устанавливается другой интересный факт, относящийся к

мусульманской религии. Начиная с реформы Абд- ал Малика Мервана до последнего Аббасидского халифа (1258г.) однозначно не меняется 33 стих- аят 9 суры, и 9 стих 61 суры из Корана. Эти аяты являются повторением с именем пророка Мухаммеда и путь справедливости исламской религии. Мастера чеканщики - зррибы после реформы указанного халифа и «реформатора» несколько столетий меняли многие детали на своих монетах, но священные мысли из Корана, "основа основ", выбранные суры и стихи как у Омейядов, так и у ранних Аббасидов в продукциях монетных дворов Азербайджана не изменялся. Причиной тому являлось принятие населением ислама со всеми элементами, обрядами и денежными единицами.

**Литература**

1. Савельева П.С. Топография кладов с восточными монетами и изделиями VII, VIII, IX,X и XI веков в России и При Балтийских странах. Спб, 1846, ч.I., 600 с.
2. Шодуар С.Д. Обозрение русских денег и иностранных монет, употреблявшихся в России с древних времен. Спб, 1837, ч.I, 23 с.
3. Пахомов Е.А. Монеты Азербайджана. Вып.I.Баку, Изд-во АН Наук Аз. ССР, 1959, 254 с.
4. Жизнь и труды П.С.Савельева(преимущественно по воспоминаниям и переписке с ним В.В.Григорьева). Издание Императорского Археологического Общества. Спб, 1861, 65 с.
5. Сейфеддини М.А. Нумизматика Азербайджана, т.I.Баку, Элм, 1998, 187 с.
6. Пиргулиева Г.А. Медные монеты Азербайджана. Баку, МБМ, 2007,96 с.

# AZƏRBAYCANIN SASANİLƏR VƏ ƏRƏB XİLAFƏTİ DÖVRÜNDƏ NUMİZMATİK MATERİALLARININ İKONOQRAFİK XÜSUSİYYƏTLƏRİ

**Qənirə Pirquliyeva**

## Xülasə

**Açar sözlər: sikkə nominalları, ayrı-ayrı elementlər, surələr və ayələr, kənar çərçivə və dairələr.**

Məqalədə Azərbaycanın V-X əsrin əvvəllərinə aid olan bir qrup sikkə nümunələrinin ikonoqrafik təhlillərinin nəticələri diqqətə çatdırılır. Xüsusi fərqləri olmasa da bəzi kiçik elementləri ilə yerli zərbxanaların məhsulları imperiyanın digər ərazilərində zərb olunan nominallardan bir qədər fərqlənirlər. Belə elementlərdən ən mühümü kimi elmə məlum olmayan bəzi yerli zərbxanalar haqqında müla-

hizələr irəli sürülmüşdür. Aparılan araşdırma nəticəsində irəli sürülən digər bir nəticə yeni, elmə məlum olmayan metroloji ehtimallardır. Bu nəticələr əsasında sikkələrin metala görə bir-birinə nisbəti barədə fikir vardır. Bütün elmi ehtimallar adı çəkilən dünya imperiyalarının tərkibinə daxil olan Azərbaycanın zərbxanalarının bir qisminə aiddir.

# ICONOGRAPHIC FEATURES OF NUMISMATICAL MATERIALS OF AZERBAIJAN PERIOD SASANIDOV AND ARAB CALIPHATE

**Ganira Pirguliyeva**

## Summary

**Keywords: monetary, denominations, individual elements, sureandversesrim, and mugs.**

In article on the basis of studying of group of coins it is considered some iconographic features of monetaryunits of mints from Azerbaijanin the period of V-of the head of the X centuries. Without having special distinctive features, the semonetary facevalues with some details from time totime are distinguished from other coins from these empires. Among these features some earlier unknownmints and their production are noted. On the basis of detail edstudying of some names of earlierunknownmints, also referring to scientific literature, work on localization of these placesis done. Other scientific conclusionis iconographic details on the basis of which it ispossible to assume some metrological conclusions. The seconclusions generally concern Azerbaijan with in V- bg. – XIII centuries when the territory of the country was a part of such world empires as Sasanida and theArab Caliphate.

# BERLİN MUZEYİNİN QAFQAZ KOLLEKSİYASI

**Nuridə Atəşi Qədirova**
(Xəzər Universiteti)
Email: Nateshi@khazar.org

**Açar sözlər: Xocalı-Gədəbəy mədəniyyəti, R.Virxov, Q.V.Şveinitz, F.Korthaus, Qafqaz kolleksiyası.**

Xocalı-Gədəbəy mədəniyyətinin indiyə qədər elm aləminə qaranlıq qalan tərəflərinin yeni tədqiqatların işığında bir daha yenidən araşdırılması arxeologiyamızın qarşısında duran vacib məsələlərdən biridir. Xronoloji baxımdan son tunc-erkən dəmir dövrünə aid olan və Qafqazın böyük bir hissəsini əhatə etmiş Xocalı-Gədəbəy mədəniyyətinin tam öyrənilməməsinin bir çox konkret səbəbləri vardır. Əsas səbəblərdən biri bu mədəniyyətə aid maddi mədəniyyət nümunələrinin Azərbaycanın hüdudlarından kənarda, əsasən də Avropanın bir çox muzeylərində saxlanılması və bu günə qədər elmi tədqiqatlara cəlb edilməməsidir. İkinci çox önəmli səbəb isə XIX-XX əsrin əvvəllərində əcnəbi mütəxəssislər tərəfindən Azərbaycanda aparılmış arxeloji qazıntıların əsasən qeyri-elmi məqsəd daşımasından ibarətdir. Çünki qazıntıları maliyyələşdirən və aparan şəxslərin ən böyük məqsədi daha çox maddi sərvət, qazanc əldə etmək olmuşdur. Üçüncü vacib səbəb isə ondan ibarətdir ki, alman əsilli həvəskar arxeoloqların - R.Virxov, V.Belk, F.Bayern, E.Rösler, Q.Rozendorf, C.F.L.Haupt və başqalarının bəzən qərəzli, bəzən isə heç bir elmi əsası olmayan, eləcə də müasir elmdə öz təsdiqini tapmayan müddəaların elmi dövriyyəyə gəlməklə geniş yayılması, sonrakı dövrlərdə həmin müddəalara alman, rus, Qafqaz, o cümlədən Azərbaycan alimləri tərəfindən uzun illər boyu etibarlı mənbə kimi istinad olunmasıdır. Yuxarıda göstərilən bu səbəblərdən Cənubi Qafqaz arxeologiyasında Xocalı-Gədəbəy mədəniyyətinin genişmiqyaslı və hərtərəfli tədqiqi mümkün olmamışdır.

Avropa muzeylərini əksər hallarda "naməlum" başlıq altında bəzəyən Qafqaz kolleksyalarından biri Almaniyanın Berlin şəhərindəki Tarixəqədər və Erkən Tarix Muzeyində (MVF) mühafizə edilir. Qeyd etmək istərdik ki, kolleksiya indiyə qədər arzuolunan səviyyədə tədqiq olunmamışdır.

Əcnəbi arxeoloqların Azərbaycan bölgələrində talançılığını ifşa edən dəlillərə təbii ki, Azərbaycan arxeoloqlarının əsərlərində də mütəmadi olaraq rast gəlmək mümkündür. Lakin əcnəbi arxeoloqların qazıntılardan əldə edilmiş və Almaniya muzeylərinin fondlarında saxlanılan həmin tapıntıların tədqiqi istənilən səviyyədə olmamış, bu tədqiqatların nəticələri isə alman və fransız dillərində qüsurlu şəkildə çap edilmişlər. Həmin nəşrlərin tərcümələri indiyə qədər yoxlanılmamış, müxtəlif dillərdə tərtib/çap edilmiş qazıntı

hesabatları ilə müqayisələri aparılmamışdır. Bu səbəbdən də Qafqaz kolleksiyasına daxil olan nümunələrin yenidən tədqiqatlara cəlb olunması qarşımızda duran vacib məsələlərdən biridir.

Alman şirkəti "Siemens & CO"-nun XIX əsrdə Gədəbəydə fəaliyyətə başlaması ilə bölgənin maddi sərvətlərinin talan olunmasının əsaslı şəkildə təməli qoyulur. Məlumdur ki, alman şirkəti "Siemens & CO" ("Siemens & Halske") Rusiyada teleqraf xətlərinin çəkilməsi ilə məşğul olarkən onun Tiflisdəki təmsilçisi Valter Simens Azərbaycana gəlmiş, 1864-cü ildə Gədəbəydə mis zavodunun inşasına başlamış və 1865-ci ilin avqustunda isə həmin zavodu istifadəyə vermişdir (2, s.32). Məlumdur ki, "Siemens" şirkətinin əsasını Almaniya elmində görkəmli yer tutan Verner fon Simens qoymuşdur (1816-1892). Qafqaz tarixinə hədsiz maraq göstərən Almaniyanın məşhur həkim və antropoloqu R.Virxov Xocalı-Gədəbəy maddi mədəniyyət nümunələrini də məhz, Verner von Siemensin vasitəsi ilə Berlinə gətizdirmişdi. "Siemens" şirkətinə R.Virxovun öncədən tanıdığı və etibar etdiyi Valdamer Belk elektrotexnik vəzifəsinə təyin edildikdən sonra Gədəbəy ərazisindən qədim maddi mədəniyyət nümunələrinin mənimsənilməsi prosesi nəzərə çarpacaq miqyasda sürətlənmişdir. Belə ki, XIX əsrin son rübündə filoloq, arxeoloq və antropoloqların əsas müzakirə obyektlərindən olan hind-avropalıların qədim vətənləri haqqında suallara cavab tapmaq məqsədilə Gədəbəy qəsəbəsi və ətraf ərazilərdə "elmi axtarışlara" başlayan V.Belk 1888-1891-ci illərdə 350-dən (bəzi mənbələrdə isə 300-dən) artıq tarixi-arxeoloji abidəni, əsasən qədim qəbir abidələrini – kurqanları, daş qutu qəbirləri və s. qazaraq minlərlə tarixi-mədəni əşya toplaya bilmişdir (8, s.15). R.Virxov "Siemens"in rəhbərliyi ilə əlbir olaraq həmin şirkətin Direktorlar Şurasının (geheimrat) xəbəri olmadan V.Belki bəzən gizlin, bəzən isə açıq şəkildə maliyyələşdirmişdir (10, s.20). Belə ki, V.Belkin Gədəbəy və onun ətraflarında apardığı qanunsuz qazıntılarından yaxşı xəbərdar olan R.Virxov onu dostluq münasibətləri çərçivəsində həm maddi, həm də mənəvi cəhətdən hərtərəfli dəstəkləyirdi (10, s.32). V.Belk də məktublarında və məqalələrində onu həm maddi, həm də mənəvi dəstəkləmiş R.Virxov, Verner və Siemensin adlarını çəkmiş, maliyyə dəstəyi aldığını dəfələrlə təsdiqləmişdir (10, s.47). Hər tərəfli dəstəkdən qaynaqlanan V.Belk əldə etdiyi Xocalı-Gədəbəy mədəniyyətinə aid nümunələri Almaniyanın Hamburq, Münhen və o zamankı Danziq və digər şəhər muzeylərinə göndərirdi (10, s.32).

R.Virxovun Qafqaz arxeologiyası, tarixi və mədəniyyəti üçün "xidmətləri" isə özünün ən yüksək zirvəsinə Qafqazda apardığı antropoloji tədqiqatlar zamanı çatır. Belə ki, o, bu tədqiqatlar nəticəsində hind-arilərin qədim əcdadları kimi erməniləri "kəşf edir" və onları Qafqazın qədim xalqı kimi təqdim edir. R.Virxovun (15), V.Belkin (7, s. 61-82), E.Röslerin (665), Lehmann Hauptun (9) və s. əsərlərində bunlar özünü açıq şəkildə göstərmiş-

dir. R.Virxovun Berlinə topladığı Qafqaz kolleksiyasının ildən-ilə böyüməsinə baxmayaraq onun elmi tədqiqatları İkinci Dünya müharibəsindən nə öncə, nə də sonralar ürəkaçan nəticələr verməmişdir.

**“Qalakənd” kataloqu.** 1985-ci ildə Berlin Tarixəqədər və Qədim Tarix Muzeyinin (MVF) keçmiş direktoru V.Nagel və E.Strommengerin müəllifliyi ilə, V.Belkin kolleksiyası əsasında Gədəbəy və ətrafındakı abidələrin maddi-mədəniyyət nümunələrini özündə əks etdirən “Qalakənd” (Kalakent) adlı kataloq nəşr edilir. Kataloqda tapıntılarla yanaşı V.Belkin R.Virxova yazdığı məktubların əksəriyyətinin əsli verilmişdir (10). Lakin həm məktublarda, həm də hesabatlarda Gədəbəyin Qalakənd və Cənnət Qalası kimi tarixi abidələri, kurqanları, qədim yaşayış məskənləri, buradakı alban kilsələri, qəbirləri əksər hallarda “qədim erməni tarixi abidələri” kimi qələmə verilmişdir (10, s. 17, 22, 33, 37, 41, 162). Kataloqda xeyli sayda elmi, tarixi, coğrafi, antropoloji və hətta siyasi xətalar və təhriflər yer almışdır (10, s. 121, 122). Təəssüflər olsun ki, kitaba “Giriş” yazan müəlliflər bütün bu yanlış məqamlara elmi cəhətdən aydınlıq gətirməmişlər (10). Bütün bu yanlışlıqlar isə Almaniyada, R.Virxovdan başlayaraq müasir dövrümüzədək bir çox tarixçi və arxeoloqlar tərəfindən ərsəyə gətirilmiş əsərlərdə, nəşr olunmuş elmi, tarixi və arxeoloji ədəbiyyatlarda elmi gerçəklikdən uzaq təhlillərin aparılmasına və qeyri-dəqiq nəticələrin əldə olunmasına səbəb olmuşdur.

İşin daha acınaqcaqlı tərəfi isə “Qalakənd” kitabının 1999-cu ildə təhrif olunmuş və qüsurlu şəkildə Azərbaycan dilinə tərcümə edilərək çap edilməsidir (11). Belə ki, kitabın tərcüməçisi, tarix elmləri namizədi F.Abbasova sənədlərin əslini düzgün tərcümə etməmiş, kitaba saysız-hesabsız təhriflər etmişdir. Azərbaycan dilində işıq üzü görmüş bu kitab Vətən tarixşünaslığına daxil olan bir çox monoqrafiya və digər elmi əsərlər üçün mənbə rolunu oynamışdır. Tarixi həqiqətlərin təhrif edildiyi, alman dilində nəşr edilən “Kalakent” kitabının əsli də, təbii ki, bu günə qədər olduğu kimi qalır və hazırda da onlarla, yüzlərlə alman, rus, Qafqaz tarixçisi və arxeoloqu öz tədqiqatlarında ondan mötəbər elmi mənbə kimi istifadə edirlər.

Berlin Qafqaz kolleksiyasını zənginləşdirən əcnəbi mütəxəssislərdən biri də Fridrix Bayerndir (1817-1886). O, bir müddət Odessada müəllim işlədikdən sonra Tiflisə gəlmiş və burada “Qafqazda Arxeologiya dostları” (Gesellschaft der Altertumsforscher des Kaukasus) adlı cəmiyyət yaratmışdır. Məşhur alman antropoloqu R.Virxov onu Qafqazın tarixəqədərki tarixinin yaradıcısı (der Begründer der kaukasichen Prähistorie) adlandırmışdır. R.Virxovun maddi və mənəvi dəstəyi ilə 1879-cu ildə Ağstafaçay kənarında, Redkin Lagerdə qazıntılar aparan F.Bayern əldə etdiyi maddi mədəniyyət nümunələrini Tiflisdə yaratdığı muzeyə, Moskvaya və Berlinə göndərmişdir. F.Bayernin bu qazıntılarla bağlı monoqrafiyası Berlində onun ölümündən sonra R.Virxov tərəfindən Berlin Antropologiya, Etnoqrafiya və Qədim

Tarix Cəmiyyətinin illik məcmuəsində nəşr edilmişdir. Monoqrafiyanın redaktoru və "Ön söz"ün müəllifi də R.Virxov olmuşdur. R.Virxov Qafqaz haqqında öz elmi müddəalarını təsdiq etmək üçün Bayernin, Belkin, Röslerin tədqiqatlarından istifadə etmiş və onun müddəalarının eyni zamanda onlar tərəfindən qəbul olunaraq təkrarlanmasına nail olmuşdur.

Araşdırmalarımız nəticəsində F.Bayernin Redkin Lagerdən əldə etdiyi materialların kiçik bir hissəsinin Berlinin "Tarixəqədər və Erkən Tarix Muzeyi"ndə mühafizə olunduğu müəyyənləşdirilmişdir. Əsasən muncuqlar və bəzək əşyalarından ibarət olan eksponatlar təəssüflər olsun ki, indiyə kimi tədqiqata cəlb edilməmişdir. Muzeydə Redkin Lagerdən aşkar edilmiş materiallar haqqında orjinal əl yazmaları, qeydlər də aşkar edilmişdir ki, onlar da hal-hazırda geniş tədqiqata cəlb olunubdur.

Berlin muzeyinin Qafqaz kolleksiyasına Gədəbəydəki "Simens" fabrikində çalışan F.Korthaus adlı alman əsilli bir məmurun topladığı nümunələr də daxil edilmişdir. F.Korthaus özü üçün muzey açmaq məqsədi ilə Gədəbəy və ətraf bölgələrin tarixi-arxeoloji abidələrindən böyük bir kolleksiya toplamışdır (1, s.69). Bundan xəbər tutan V.Belk eksponatların R.Virxova satılması üçün hərəkətə keçmiş və F.Korthausun razılığı ilə 130-dan çox qiymətli maddi-mədəniyyət nümunəsi təxminən 1902-ci ildən sonra Berlin muzeyinə gətirilmişdir. Qeyd etmək istərdik ki, bu fakt ilk dəfə olaraq apardığımız tədqiqatların nəticəsində meydana çıxmışdır.

V.Belk əvvəlcə F.Korthausun arxeoloji qazıntılardan topladığı materialların elmi cəhətdən qiymətləndirilməsi üçün ona təqdim edildiyini, daha sonra isə bütünlüklə onun sərəncamına keçdiyini (8, s.11) bildirmişdir.

Mənşəcə alman olan, zabit Qraf von Şveinitz 1840-cı ildən Berlin Antropologiya, Etnoqrafiya və Qədim Tarix cəmiyyətinin üzvü olmuşdur. Hazırda "Berlin tarixə qədər və qədim tarix muzeyi"də (MVF) Qraf von Şveinitz tərəfindən Daşkəsənin dağlıq hissəsində mövcud olan tarixi-arxeoloji abidələrdən əldə edilmiş xeyli sayda nadir artefaktlar (içərisində tunc kəmər də var) mühafizə edilir. Bu kolleksiya 1913-14-cü illərdə 3600 alman markası qarşılığında muzey tərəfindən satın alınmış və materiallar indiyə qədər tədqiq olunmamışdır. Əldə edilən məlumatlara görə, Hans-Hermann von Şveinitz tərəfindən Berlin Muzeyinə 180 arxeoloji tapıntı verilmişdir (3; 4; 5; 6).

Qraf von Şveinitzin kolleksiyasının böyük bir əhəmiyyəti ondan ibarətdir ki, o eksponatların əl ilə çəkilmiş qrafik təsvirini vermiş və onlar haqqında müfəssəl hesabatlar yazmışdır (6). Bu hesabatlar hazırda Berlin Muzeyində (MVF) İA 14, Bd23,E2051/13 nömrəli sənəd kimi qorunur. Həmin hesabatların təəssüfverici məqamı ondan ibarətdir ki, burada Qraf von Şveinitz Şəmkir mahalı yaxınlığında olan Zəyəm dəmir yolu stansiyasından Gədəbəy mis zavoduna qədər olan əraziləri erməni torpaqları adlandırmışdır (3; 4; 5; 6).

Qraf von Şveinitsin 29 qəbir abidəsində apardığı tədqiqatların əlyazma şəklində olan orjinal hesabatları və kolleksiyası hazırda tərəfimizdən geniş tədqiqatlara cəlb olunmuşdur. Berlin arxivində həmçinin, Zəyəm materialları haqqında maraqlı qeydlər, digər məlumatlar da mühafizə edilir.

**Berlindəki Qafqaz kolleksiyasının tarixi**

İxtisasca həkim olan Albert Boss (1837-1906) 1886-cı ildə yaradılmış Etimologiya Muzeyinin Tarixəqədərki mədəniyyət şöbəsinin ilk direktoru olmuşdur. Muzeyə, o zaman Berlində Potsdam meydanı yaxınlığında, indiki Strassennstrasse küçəsində yeni bina verilmişdi. A.Boss öz yazılarında Qafqaz kolleksiyasını belə qiymətləndirmişdir: "Kral Etimologiya Muzeyinə daxil olan son dərəcə mühüm əhəmiyyət kəsb edən hədiyyələr sayəsində Cənubi Qafqaz haqqında tam məlumat əldə edilə bilər. Belə materiallara Peterburq və Moskva da daxil olmaqla, dünyanın heç bir yerində təsadüf olunmur. Təbii ki, yalnız Tiflisdəki muzey arxeoloji qazıntı və təsadüfi tapıntılar nəticəsində anoloji materiallarla çox zəngin ola bilər" (10, s.11).

Kral Etimologiya Muzeyində Qafqaza aid materiallar son dərəcə az olduğundan Vyana, Lion və Paris muzeylərindən bir qədər geri qalır. Lakin buna baxmayaraq burada mühafizə edilən eksponatlar adı çəkilən Avropa muzeylərində qədim Qafqaza aid yüksək səviyyədə nümayiş etdirilən kolleksiyaların çatışmayan hissəsini tamamilə bərpa edə bilməsə də, onun kiçik bir əlavəsi kimi xeyli qiymətlidir (10, s.12).

Berlindəki Qafqaz kolleksiyası hələ İkinci Dünya müharibəsindən öncə invertarlaşdırılmışdır. İnventarlaşdırılmış 6563 ədəddən artıq obyekt və obyekt qrupundan ibarət olan kolleksiyadan əlavə olaraq, təxminən 2000-ə yaxın nümunə 1939-cu ilə kimi, yəni II Dünya müharibəsi başlayana kim muzeyin inventar kitablarına salınmamış, kataloqlaşdırılmamış (3; 4; 5; 6) və tədqiq edilməmişdir. Müharibə zamanı isə bu kolleksiyaların böyük bir hissəsi yoxa çıxmışdır.

Muzeydə olan Qafqaz kolleksiyasının kataloqu (Sammlungsverzeichnisse) 1945-46 illərdə Sovet ordusu tərəfindən qənimət kimi götürülmüşdür. Kataloq bu günə qədər Rusiyada saxlanılmaqdadır (3;4;5;6).

Rusiyaya aparılan eksponatlar (Berlin MVF muzeyinin Qafqaz kolleksiyasında olanlar) isə Rusiyanın müxtəlif muzeyləri arasında paylanılmış və indiyə qədər elmi cəhətdən tədqiq edilməmişdir.

**Rusiya muzeyləri susur**

2014-cü ildə Moskva şəhərində apardığımız tədqiqatlarımız zamanı aşağıdakı faktları aşkar edə bildik: Rusiya Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin 1945-ci ilin fond materialları içərisində və bir çox digər aktlarda Almaniyadan gətirilmiş maddi mədəniyyət nümunələrinin A.S.Puşkin adına

muzeyə verilməsi, aktların, qənimətlər olan yeşiklərin isə müvəqqəti qorumaq üçün Ermitajın Şərq bölməsinə verilməsi haqqında məlumatlar vardır. Lakin təəssüflər olsun ki, Moskva şəhərindəki Rusiya Dövlət Ədəbiyyat və İncəsənət Arxivi bu materiallardan tədqiqatçıların istifadə etməsinə hələlik icazə vermir.

Tədqiqatlarımız nəticəsində artıq bizə məlumdur ki, Qafqaz kolleksiyasının böyük bir hissəsi Rusiya muzeylərindədir. Muzeylər hələlik məktublarımız, təkliflərimiz qarşısında sussalar da ümid edirik ki, gələcəkdə burada mühafizə edilən materialların tədqiqatı mümkün olacaqdır. Eyni zamanda E.Röslerin əsl hesabatları da artıq tədqiqatlarımızın mühüm bir obyektinə çevrilmişdir ki, bu barədə də tədqiqatlar başa çatdırıldıqdan sonra məlumatlar veriləcəkdir.

## Berlin muzeyinin Qafqaz kolleksiyasının qeyri-qənaətbəxş tədqiqatları

1958-ci ildə "Qafqaz və Luristan" adı altında Qafqaz kolleksiyasının yalnız kiçik bir hissəsi sərgi vasitəsilə Berlin ictimaiyyətinə təqdim edilmişdi. 1983-cü ildə Prussiya Mədəni İrs Fondu, Berlin Tarixəqədər və Qədim Tarix muzeyi, Berlin Antropologiya, Etnoqrafiya və Qədim Tarix cəmiyyətinin birgə əməkdaşlığı ilə "Ermənistanın və Qafqazın qədim dağ xalqları" (*Frühe Bergvölker in Armenien und im Kaukasus*) və "Berlinin XIX əsr tədqiqatları" (*Berliner Forschungen des 19. Jahrhunderts*) başlığı altında Berlin muzeyində olan eksponatların bir hissəsini əhatə edən sərgi keçirilmişdir. Sərgiyə həsr edilmiş eyni adlı kataloqun müəllifləri K.Kohlmeyer və G.Sahervala V.Belkin, Q.V.Şveinitzin və F.Korthausun qazıntılardan əldə edilən eksponatlar haqqında səthi və ümumi məlumat vermişdilər (8). Təəssüflə qeyd etmək lazımdır ki, sərgidə müəlliflər e.ə. II minilliyin ikinci yarısında indo-german hesab edilən atlı nomad tayfaların Cənubi Qafqaza gəlib bu torpaqlara sahib olmaları (8, s.46), Qafqazın qədim dağ xalqlarının urartulu olması və Xocalı-Gədəbəy mədəniyyətinin mövcud olduğu ərazinin Urartu torpaqları olması ilə bağlı R.Virxovun, E.Röslerin və V.Belkin yanlış müddəalarını müdafiə edərək, yeni tədqiqatlar aparmağa səy göstərməmişlər.

İndiyə qədər apardığımız tədqiqatların ilkin nəticəsi olaraq beynəlxalq elmi ictimaiyyət qarşısında Rusiya muzeylərində saxlanılan Qafqaz materiallarının tədqiqatlara açılması məsələsi qaldırılır. Çünki Qarabağ, Gədəbəy və digər ərazilərdən aşkar edilmiş materialların Qafqaz, Rusiya və Almaniya muzeyləri arasında paylanması bu abidələrin tədqiqatlarını mümkünsüz edir.

Berlinin Qafqaz kolleksiyası içərisində Xocalı-Gədəbəy mədəniyyətinə aid olan 10 nadir tunc kəmər saxlanılır ki, bunların da bir neçəsi indiyə qədər elmi ictimaiyyətə tanıdılmamışdır. Hazırda kəmərlər üzərində geniş

tədqiqat işləri aparırıq və tədqiqatların nəticəsi olaraq heç şübhəsiz ki, yeni faktlar üzə çıxacaqdır.

Almaniyanın digər muzeylərində də Xocalı-Gədəbəy mədəniyyətinə aid maddi mədəniyyət nümunələri qorunur ki, onlar da indiyə kimi əsaslı olaraq tədqiq edilməmişdir. Bu muzeylərdən biri Mainz şəhərində olan Roma-German Mərkəzi Muzeyi (Römisch-Germanisches Zentralmuseum Mainz) adlanır ki, burada da bir neçə tunc kəmər saxlanılır. Ehtimallarımıza görə bu kəmərlər Gədəbəy və ətraf bölgələrdən aşkar edilmiş nümunələrdir və onların da tədqiq olunmasına böyük ehtiyac var.

Beləliklə, apardığımız tədqiqatlara əsasən Almaniyanın Berlin muzeyində mühafizə edilən Qafqaz kolleksiyasının indiyə qədər qeyri-qənaətbəxş tədqiq olunduğunu qəti şəkildə söyləyə bilərik. Bu kolleksiyanın yenidən hərtərəfli şəkildə tədqiqi nəinki Azərbaycan, ümumilikdə dünya arxeologiyası qarşısında duran ən aktual problemlərdən biridir.

## Ədəbiyyat

1. Ateshi N. Siemens in Aserbaidschan //“Neue Brücke” Zeitschrift, № 2, Berlin, 2004, s. 31-32.
2. Атеши Н. История ходжалы-гядабейской культуры // „Zerkalo“ qəzeti, 2013, 02 mart, s. 6.
3. Archivauskunft des Museums für Vor- und Frühgeschichte Berlin, Horst Junker, vom 26.09.20013, Erwerbungsakte zur Sammlung des Grafen H.-H. von Schweinitz im Berliner Museum für Vor- und Frühgeschichte: SMB-SPK / MVF, IA 14, Bd. 23, E 2051/136.
4. Archivauskunft des Museums für Vor- und Frühgeschichte Berlin, Horst Junker, vom 2.11.2013. Die im FLAK-Turm am Zoo eingelagerten Edelmetall-Objekte kaukasischer Provenienz sind weitgehend identisch mit den im Inhaltsverzeichnis der sog. drei Goldkisten des Berliner Museums für Vor- und Frühgeschichte aufgeführten Gegenständen dieser Herkunft. Vergleiche dazu Staatliche Museen zu Berlin - Preußischer Kulturbesitz, Dokumentation der Verluste, Band IV. MVF, s 42.
5. Archivauskunft des Museums für Vor- und Frühgeschichte Berlin, Horst Junker, vom 10.02.2014
6. Erwerbungsakte zur Sammlung des Grafen H.-H. von Schweinitz im Berliner Museum für Vor- und Frühgeschichte: SMB-SPK / MVF, IA 14, Bd. 23, E 2051/13
7. Herr Waldemar Belck berichtet über archäologische Forschungen in Armenien. Zeitschrift für Etnologie, 25, 1893,s.61-82.
8. Kohlmeyer K., Saherwala G. Frühe Bergvölker in Armenien und im Kaukasus. Berliner Forschungen des 19. Jahrhunderts. Ausstellung für Vor-u. Frühgeschichte Berlin., Staatliche Museen Preußischer Kulturbesitz und der Berliner Gesellschaft für Anthropologie. Berlin, 1983, 84 s.
9. Lehmann-Haupt C.F. Armeinen, einst und jetz. Berlin, 1910, 543 s.

10. Nagel W., Strommenger E. Kalakent. Berlin, 1985,192 s.
11. Nagel V., Ştrommenger E. Qalakənd. Bakı, Diplomat, 1999,192.s.
12. 6. Rösler E. Hr. Waldemar Belck überreicht im Namen des Hrn. Emil Rösler in Schuscha den nachfolgenden Berichtdes Letzteren über seine archäologische Thätigkeit im Jahre 1893 in Transkaukasien // ZfE 26, Verhandlungen, 1894, s.213-241.
13. Rösler E. E.Rösler übersendet aus Schuscha, 26 Dezember den Schluss seiner im Auftrage der Kaiserlich Russischen Archäologischen unternommene archäologische Forschungen in Transkaukasien im Jahre 1897 Neue Ausgrabungen am Flusse Chatschenaget und Forschungsreisen daselbst (Kreis Dshewanschir), s. 243-29. Unternommen im Jahre 1901 im Auftrage der Keiserlic russischen Archäologischen Komission, s.114-151.
14. Rösler E. Bericht über archäologische Ausgrabungen in Transkaukasien. Von Emil Rössler-Tiflis.Unternommen im Jahre im Auftrage der kaiserlich Russischen Archäologischen Commission. Zweimaliger Ausflug nach dem Dorfe Bayan Kreis und Gouvernement, Elisabethpol und Ausgrabungen daselbst. Zeit: 24-26 Februar und 1.-8. April 1901, ZfE 37, 1905,s.114-151.
15. Virchow R. Über die kulturgeschichtliche Stellung des Kaukasus. Berlin, 1895,66 s.

# CAUCASIAN COLLECTION OF THE BERLIN MUSEUM

**Nourida Gadirova Ateshi**

## Summary

**Keywords: Khojaly-Gedebey culture, R.Virkhow, G.V.Schveinitz, F.Korthaus, Caucasus collection.**

In the Berlin Museum of Prehistory and Early History (MVF) we find a large collection of exhibits belonging to the Caucasian culture (containing ten original bronze belts) on which till today no research has been carried out. Beginning in the year of 1883, the artefacts of the collection have been excavated after Siemens had started to run its plant in Gadabay. They had been transported to Berlin by legal and illegal means on the initiative of a prominent German pathologist and anthropologist, Rudolf Virchow, and also by order and with financial support of the Berlin Society of Anthropology, Ethnology and Early History and the Rudolf Virchow Foundation.

There are three collections of artefacts from Azerbaijan belonging to the Khojaly-Gadabay culture in the Museum of Prehistory and Early History, brought there by v. Schweinitz, Korthaus and Belk. As a research result it was found out that more than 180 objects had been given to the Museum of Prehistory and Early History by Hans-Hermann von Schweinitz. This collection containing a lot of rare artefacts collected by Graf von Schweinitz from Saghlig-Dashkesen historical mo-

numents in Azerbaijan was bought at a price of 3600 German Marks by the Museum in 1913-14, but no sufficient research has been carried out on this collection till today. At the same time, Karthaus, a German employee of Siemens, collected a lot of historical artefacts in Gadabay and surrounding regions in order to found his own museum. When he heard of this collection, Waldemar Belk met Korthaus and they agreed to sell this quite valuable collection to Rudolf Virchow. Subsequently, more than 130 artefacts of high value have been brought to the Berlin Museum of Prehistory and Early History after 1902.

Waldemar Belk, who since 1888 had been working for the Siemens Company as an electrician, discovered more than 350 (according to some sources 300) historical sites ( ancient tombs, kurgans, stone-box tombs etc.) and sent thousands of exhibits from the Gadabay district and its surroundings to Berlin.

Later, Belk visited Karabakh, where he could draw the attention of Emil Roesler, a local teacher of German origin in “Shusha Realny School”, to archeological research. From 1892 to 1903 (eleven years) Emil Roesler carried out a lot of excavations in Karabakh and Ganja, where he discovered many precious artefacts which he sent to Virchow, from 1894 on he sent some of them to the State History Museum in Moscow and the Hermitage Museum in St. Petersburg, too. He has been acting in close cooperation with Rudolf Virchow and Waldemar Belk.

In 1985 a catalogue named “Galakand” (Kalakent) based on Waldemar Belk’s collection was published by the Berlin Museum of Prehistory and Early History (edited by W. Nagel and E. Strommenger), which contained many examples of artefacts collected in Gadabay and neighboring areas. The book contains quite a few scientifically, geographically and historically incorrect interpretations. Unfortunately, the German authors of the book did not correct these misinterpretations in their introduction to the book, so that they are being repeated till today in different publications of historians and archeologists in German universities, museums and scientific institutes (beginning with Rudolf Virchow till today, for example in the publications of the researcher Ute Luise Dietz).

Before World War II in the Berlin Museum of Prehistory and Early History at least 6563 objects and object groups of the Caucasus collection have been taken to inventory. Furthermore, between 500 and 2000 exhibits have not been taken to inventory until 1939. Further problems came up in writing the catalogues during the following years because a considerable part of the collection has been destroyed during the war.

It could not be established whether the Caucasus collection which had formerly been in the Berlin museum can now be found in other museums not only in Azerbaijan, but in other European cities and namely in Russia in the museums in Moscow and St. Petersburg. It is a great pity that that no research had been carried out on this exhibits before. Probably quite a lot of them have been lost for scientific research forever. Till now, carrying out a thorough research of this material is of great importance for science in Azerbaijan. Only Waldemar Belck's collection stored in the Berlin Museum before World War II contained approximately 2556 exhi-

bits. Today, there are only 158 exhibits left in the Museum's list of Belck's and Karthaus' collection.

A great part of the objects which are considered lost during the war are listed in the Kalakent book under their inventory number, giving also their description and classification.

Today one the most important problems are to restart to research the Caucasus collection, which reflects a great part of Caucasian early history and archeology from late Bronze to early Iron Ages. It should be opened to the international scientific community attracting German, French, Russian and Caucasian scientists to fill the gap existing till today in the archeological research of the Caucasus, starting from the Bronze Age.

## КАВКАЗСКАЯ КОЛЛЕКЦИЯ БЕРЛИНСКОГО МУЗЕЯ

**Нурида Гадирова Атеши**

### Резюме

**Ключевые слова: Ходжалы-Кедабекская культура, Р.Вирхов, Г.В.Швеинитз, Ф.Кортхаус, Кавказская коллекция**.

В Музее доисторического периода и ранней истории (MVF), находящегося в Берлине, имеется коллекция, состоящая из материально-культурных образцов Кавказа, и до сих пор недостаточно исследованных. (особенно, 10 бронзовых поясов, хранящихся здесь). Эта коллекция, добытая после начала деятельности завода «Siemens&CO», была привезена в Берлин законными и незаконными путями вследствие раскопок, проводимых в Кедабеке, по инициативе известного немецкого патолога и антрополога Р.Вирхова, а также по поручению и при материальной поддержке Берлинского Общества Антропологии, Этнографии и Древней Истории, а также фонда Р.Вирхова. В Музее (MVF) имеются 3 коллекции из Азербайджана, относящиеся к Ходжалы-Кедабекской культуре – коллекции Швейница, Картхауса и В.Белка. В результате исследований было установлено, что 180 предметов было представлено Берлинскому Музею Ганс-Германн фон Швейницом. Эта коллекция Швейница, добытая им в историческом памятнике Саглыг-Дашкесан Азербайджана и состоящая из редчайших артефактов, была приобретена музеем за 3600 немецких марок в 1913-1914 годах, но материалы этой коллекции все еще остаются неисследованными.

В то же время сотрудник завода «Siemens» некий Картхаус, немец по происхождению, создал большую коллекцию, собирая исторические памятники в Кедабеке и его окрестностях, с целью открыть свой собственный музей. Узнав об этом, В.Белк встретился с Картхаусом и уговорил его продать экспонаты Р.Вирхову. Таким образом, ценная коллекция, состоящая из 130 находок, была доставлена в Берлинский Музей примерно после 1902 года.

В.Белк, который был назначен электротехником на заводе «Siemens» в 1888 году, между 1888-1891 годами успел вскрыть более 350 (в некоторых источниках указано, что их было 300) исторических памятников (в большинстве погребальные памятники) в Кедабеке и его окрестностях и отослать тысячи экспонатов в Берлин.

После этого В.Белк прибыл в Гарабах и смог заинтересовать учителя Шушинской Реальной школы Э.Реслера в археологических исследованиях. В 1892-1903 годах Эмиль Реслер провел много раскопок на территории Гарабаха и Гянджи, а найденные ценные исторические памятники отправлял сначала Р.Вирхову, а с 1894 года в Эрмитаж (Санкт-Петербург) и Московский Государственный Исторический Музей; к тому же он активно сотрудничал с Р.Вирховом и В.Белком. Э.Реслер дал знать Р.Вирхову о том, что в 1894 году он получил официальное разрешение Императорской Археологической Комиссии России провести раскопки на территории Гарабаха, а именно в Шуше, Ходжалы и Довшанлы-Авчадзоре. Это обстоятельство не могло не волновать Р.Вирхова и В.Белка.

В 1985 году под авторством бывшего директора Берлинского Музея доисторического периода и ранней истории (MVF) В.Нагеля и Э.Штромменгера был опубликован Калакентский каталог, охватывающий образцы Ходжалы-Кедабекской культуры, входящие в коллекцию В.Белка. В книге допущено множество научных, исторических и географических ошибок. К нашему сожалению, немецкие авторы, написавшие «Предисловие» к этой книге, не разъяснили эти ошибки. По этой причине эти же ошибки многократно повторялись в последующих книгах и научных работах историков и археологов немецких университетов, музеев и исследовательских институтов (начиная с Р.Вирхова) и повторяются до сих пор (например, в работах современного исследователя Утэ Луи Дитца).

Одной из важных научных проблем является то, что необходимо выдвинуть проблемы Кавказской коллекции, отражающей огромную часть истории Кавказской археологии периода поздней бронзы -раннего железа, перед мировой наукой с целью привлечь немецких, французских, российских и кавказских ученых для проведения новых исследований, и заполнения пустоты, существующей по сей день в археологии Кавказа, относящейся к бронзовой эпохе.

ELM TARİXİ
SCIENTIFIC HISTORY
ИСТОРИЯ НАУКИ

# ŞƏRƏFLİ ÖMÜR YOLU

**Qüdrət İsmayılzadə**
(Bakı Dövlət Universiteti, Arxealogiya kafedrasının müdiri, Beynəlxalq Arxeoloqlar Assosiasiyasının üzvü)
**igudrat@yahoo.com**

İlk baxışda o, yaddaş və xatirələrdə daha çox bacarıqlı və istedadlı ictimai-siyasi və mədəni xadim kimi qalmışdır. Azərbaycan Respublikası Ali Sovetinin deputatı və Rəyasət Heyətinin katibi, Mədəniyyət Nazirinin müavini, Respublika Mədəniyyət Fondu İdarə Heyətinin sədr müavini, Respublika Siyasi Maarif Evinin müdiri və onlarla digər məsul vəzifələr bu il 90 yaşı tamam olan görkəmli dövlət xadimi və alim Güllü Əbil qızı Əbilovanın şərəfli ömür səlnaməsinin yalnız bir hissəsidir. Əslində, bu misilsiz səlnamənin daha parlaq səhifələri Güllü xanımın hələ gənc ikən qəlbinin səsi ilə seçdiyi çətin, lakin şərəfli elmi sahə- arxeologiya ilə bağlı olmuşdur.

Qüdrətli sələfləri – Mirzə Cəfər Topçubaşov, Mirzə Kazımbəy, Abbasqulu Ağa Bakıxanov, Ələsgər Kazım oğlu Ələkbərov və Davudbəy Şərifovun Azərbaycan arxeologiyası sahəsindəki nurlu, eyni zamanda çox əziyyətli yaradıcılıq yolunu davam etdirməyi qarşısına məqsəd qoyan Güllü Əbilova min bir çətinliyə sinə gərərək az vaxt içərisində o zamankı Sovetlər məkanında geniş və dərin biliyə, yüksək analitik təhlil bacarığına malik gözəl arxeoloq alim kimi tanına bilmişdir.

Qürur hissi ilə qeyd etməliyik ki, Güllü Əbilova Azərbaycanda arxeologiya ixtisası üzrə elmi dərəcə alan ilk azərbaycanlı qadın alim olmuş, dan ulduzu şövqü ilə əbədiləşmişdir. O, Azərbaycan arxeologiyasına və tarixşünaslığına 100-ə yaxın elmi dəyərli əsər bəxş etmişdir. Güllü xanım dəfələrlə çöl axtarışlarında olmuş, Azərbaycanı başdan-başa gəzmiş, elmə məlum olmayan onlarla arxeoloji abidə aşkar etmişdir.

Güllü xanım sınaqlarla dolu, acılı-şirinli, lakin mənalı uzun bir ömür yaşamışdır. O. 1924-cü ildə sentyabr ayının 16-da Bakıda neft səltənətinin Qara şəhər adlandırılan bir guşəsində, adlı-sanlı neftçi ailəsində həyata göz açmışdır. Atası Əbil Abdulla Əli oğlu yarım əsrdən artıq bir müddətdə neft

mədənlərində işləmiş, əmək-sevərliyinə, işinə olan ciddi məsuliyyətinə görə böyük şan-şöhrət qazanmışdır.

Anası Kübra xanım uzun müddət evdar qadın olsa da İkinci Dünya müharibəsinin ağır illərində əmək fəaliyyətinə başlamış, ailə qayğılarının bir hissəsini öz üzərinə götürmüşdür. Nümunəvi işinə görə o, hətta Bakı Şəhər Sovetinə deputat seçilmişdir.

Alın təri ilə qazanılan çörəyin nə qədər dadlı və bərəkətli, halal zəhmətin nə qədər dəyərli və düşərli, paklığın, ismət və qeyrətin nə qədər qiymətli olmasını Güllü xanım valideynlərindən öyrənmişdir.



Güllü xanım Əbilova həmkarı Məmmədəli Hüseynovla Azərbaycan Tarix muzeyində daş dövrünə aid tapıntıları öyrənir.

Müharibənin sərt illərində orta təhsilini uğurla başa çatdıran gənc Güllü 1943-cü ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuş, qədim və zəngin tariximizi öyrənməyi qarşısına məqsəd qoymuşdur. Minillikləri əhatə edən təkrarolunmaz maddi mədəniyyət tariximiz, Azərbaycan arxeologiyasının yeni üfüqləri tələbə Güllü Əbilovanın əsas maraq dairəsini, elmi araşdırmalarının başlıca istiqamətini təşkil etmişdi. Gecəni gündüzə qataraq o, böyük inam və inadkarlıqla seçdiyi ixtisasın sirlərinə dərindən yiyələnməyə çalışmışdır. Güllü hələ tələbə ikən çöl axtarışlarında fəal iştirak etmiş, ulularımızın keçdiyi uzun və çətin yollarının yolçusu olmuşdur. Onun dövrümüzün ən geniş miqyaslı qazıntıları sayılan Mingəçevir tədqiqatlarında iştirakı daha səmərəli işlərindəndir. Mingəçevir qazıntıları Azərbaycan arxeoloqları, o cümlədən Güllü Əbilova üçün əsl təcrübə məktəbi olmuşdur. Mingəçevirdə - Kürün hər iki sahilində mədəni irsimizin bütün tarixi mərhələlərinə aid 20 mindən artıq nadir maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır. Onların sistemləşdirilməsi və qeydiyyata alınmasında Güllü xanımın da payı az olmamışdır.

Sevindirici haldır ki, bütün bu işlər fakültə professor - müəllim heyətinin və rektorluğun nəzər diqqətindən yayınmamışdır. 1948-ci ildə Güllü Əbilova ali təhsilini müvəffəqiyyətlə başa vurarkən ona universitetdə qal-

maq, elmlə məşğul olmaq, arxeologiya ixtisası üzrə mühazirələr oxumaq təklif olunmuşdur. O, universitetdə təzə yaradılan arxeologiya kafedrasında fəaliyyətə başlamışdır. Tezliklə Güllü xanım tərəfindən ilk dəfə olaraq azərbaycan dilində arxeologiya fənninə aid dərs proqramı hazırlanmış və çapa verilmişdir. Eyni vaxtda onun təşəbbüsü ilə universitetdə zəngin arxeoloji fond yaradılmışdır. Müxtəlif illərdə Azərbaycanın ayrı-ayrı bölgələrindən, o cümlədən Mingəçevirdən tapılmış nadir maddi mədəniyyət nümunələri fondun əsasını təşkil etmişdir.

Arxeologiya ixtisası üzrə elmi araşdırmalarını genişləndirmək və dərinləşdirmək məqsədilə Güllü Əbilova 1950-ci ildə universitetin aspiranturasına daxil olmuşdur. İşgüzar və istedadlı gənc həmkarından öz qayğısını heç vaxt əsirgəməyən dünyaşöhrətli Azərbaycan alimi Yevgeni Alekseyeviç Paxomov ona elmi rəhbər təyin edilmişdir. Güllü Əbilovaya "Cənubi Qafqazın meqalit abidələri" mövzusunu işləmək tapşırılmışdır. Mövzu çətin olsa da aktuallığı ilə seçilmişdir. Uzaq tunc dövründə tarixi Azərbaycanın dağlıq bölgələrində - əlçatmaz yüksəkliklərdə ucaldılmış möhtəşəm qalalar – meqalit tikililər mövcud qədim cəmiyyətlərin iqtisadi-ictimai və ideoloji sistemləri haqqında dəyərli məlumatlara malik olmaqla Güllü Əbilovanı ciddi və məsuliyyətli axtarışlara sövq etdirmişdir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın meqalit abidələri hələ 30-cu illərdə rus sovet alimi İ.İ.Meşşaninov və azərbaycanlı alim İ.M.Cəfərzadənin tədqiqatlarında mühüm yer tutmuşdur. Lakin belə vəziyyət istedadlı gənc tədqiqatçı Güllü Əbilovanı qorxutmamışdır. Topladığı zəngin bilik, əldə etdiyi dərin təcrübə, öz gücünə inam böyük iradə sahibi Güllü xanımı öhdəsinə düşən vəzifəni ləyaqətlə başa çatdırmağa səfərbər etmişdir. O, Azərbaycanın ayrı-ayrı dağlıq bölgələrinə arxeoloji səfərlər etmiş, elmə məlum olmayan bir sıra abidələri qeydə almışdır. Onun Gədəbəy bölgəsinə olan səfəri xüsusilə əhəmiyyəti ilə seçilmişdir. Təkcə bu bölgədə o, onlarca yeni abidənin yerini müəyyənləşdirmişdir.

Daim axtarışda və yazıb yaratmaq əzmində olan Güllü xanım 1953-cü ildə dissertasiya işini uğurla başa çatdıraraq onu müdafiəyə təqdim etmişdir. Dissertasiya işi əsl mənada fundamental tədqiqat olmaqla onun müəllifini Azərbaycanın qədim tarixi ilə bağlı ən çətin və mühüm problemləri həll etməyə qadir yetkin bir alim kimi nümayiş etdirmişdir. Dissertasiya işində ilk dəfə olaraq meqalit abidələrin dəqiq təsnifatı verilmiş, Avroasiya məkanının oxşar abidələrindən də istifadə edilmişdir.

1954-cü ilin yanvar ayının 14-də Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında dissertasiyanın rəsmi müdafiəsi olmuşdu. Şura üzvləri yekdilliklə Güllü Əbilovanın yüksək alimlik dərəcəsinə layiq olduğuna səs vermişdilər. Rəsmi opponentlər: respublikanın adlı-sanlı alimləri Saleh Mustafa oğlu Qazıyev və İshaq Məmmədrza oğlu Cəfərzadə müdafiə olu-

nan dissertasiya işini yüksək qiymətləndirmişdilər. Maraqlıdır ki, iddiaçının dissertasiya işində ən çox tənqid olunan İshaq Cəfərzadənin özü belə işin Azərbaycan tarixşünaslığı üçün böyük əhəmiyyət kəsb etdiyini öz rəyində bir daha vurğulamışdır.

Yüksək alimlik dərəcəsi aldıqdan sonra Güllü xanım Azərbaycan Dövlət Universitetində Arxeologiyanın əsasları və Azərbaycan arxeologiyası ixtisasları üzrə mühazirələrini davam etdirməklə yanaşı çox sevdiyi Tarix muzeyində də elmi və təşkilati fəaliyyətə başlamışdır. Muzeydə arxeologiya şöbəsinə rəhbərlik Güllü xanıma tapşırılmışdı. Qeyri-adi kamil təşkilatçılıq bacarığına malik olan Güllü xanım qısa müddətdə muzeydə bir sıra dəyərli işlər görmüşdür. Onun təşəbbüsü ilə muzeydə yeni arxeoloji materiallar əsasında Azərbaycanın yazıyaqədərki qədim tarixinin bütün mərhələlərini əyani şəkildə əks etdirən geniş ekspozisiya yaradılmışdır. Muzey fondlarında illərdən bəri toplanılan çoxsaylı zəngin maddi mədəniyyət nümunələri sistemləşdirilmişdir. Muzeydə elmi yaradıcılıq işlərinə və çap məsələsinə də xüsusi diqqət yetirilmişdir. Diqqətəlayiq haldır ki, Güllü xanım muzeyşünaslığı müstəqil elm səviyyəsinə qaldıra bilmişdir. Azərbaycanın qədim və zəngin tarixini geniş xalq kütləsinə çatdırmaq məqsədilə Güllü xanım ayrı-ayrı bölgələrdə diyarşünaslıq muzeylərinin yaradılmasının təşəbbüskarı olmuşdur. Güllü xanım Əbilova Mədəniyyət nazirliyində işləyərkən bu sahəyə bilavasitə onun özü başçılıq etmişdir. Az vaxt içərisində bir sıra bölgələrdə Azərbaycanın tarixi mədəni irsini öyrənən və onun qiymətli yadigarlarını qoruyub saxlayan və təbliğ edən muzeylər yaradılmışdır.

Ötən əsrin 60-cı illəri Güllü xanım Əbilovanın həyatında xüsusi mərhələ olmuşdur. Həmin illərdən başlayaraq Güllü xanım ömrünün son günlərinədək respublikamızda bir sıra məsul vəzifələrdə çalışmış və onların hamısında yüksək təşkilatşılıq bacarığını bir daha nümayiş etdirmişdir. Bununla belə ilk baxışda romantik görünən, lakin çox çətin olan arxeologiya Güllü xanımın həyatında yenə də əsas yer tutmuşdur. O, Azərbaycanda gedən arxeoloji tədqiqatları izləmiş və onların nəticələri ilə maraqlanmışdır. İstedadlı alim və görkəmli ictimai xadim Güllü xanım Əbilovadan danışarkən onun yüksək insani keyfiyyətlərini xatırlamamaq qeyri mümkündür. Tanrı ona ən yüksək əxlaqi mənəvi dəyərlər bəxş etmişdir. Güllü xanım ismət və qeyrət rəmzi olan ömrünü ləyaqətlə başa vurmuşdur. O yaddaşlarda munis insan kimi qalmışdır. İnsanlara sevinc gətirmək onun həyatının əsas qayəsini təşkil etmişdi. Güllü xanım qayğıkeş və mətin ana, sədaqətli həyat yoldaşı olmuşdur. Gənc ikən faciəvi şəkildə ömür yoldaşını itirən Güllü ağrıları içində yaşadaraq övladlarını böyüdərək ərsəyə gətirmiş, doğru yola yönəltmişdir.

Bu gün Azərbaycan arxeologiyası yüksəliş dövrünü yaşayır. Dövlət qayğısı ilə əhatə olunmuş onlarca arxeoloji ekspedisiya hər il respublikanın bölgələrində ulu keçmişimizin izlərini axtarır. Yeni abidələr üzə çıxarır və öy-

rənir. Abidələrimiz isə minillikləri əhatə edən zəngin keçmişimizə müvafiq saysız-hesabsız və misilsizdir. Fərəhləndirici haldır ki, silsilə abidələrimiz indi ümumbəşər mədəni irsinin ayrılmaz hissəsi hesab olunur.

Həyat davam edir. Aylar illərə dönür. Nəsillər bir-birini əvəz edir. Arxeoloji axtarışlar və elmi araşdırmalar indi yeni nəsil tərəfindən davam etdirilir. Bilik və təcrübələrini, tarixi mədəni irsə olan sonsuz sevgisini yeni nəslə ərmağan edən şanlı sələflərimizin sayı da ildən-ilə artır. İndi sönməz sələflər kəhkəşanında Azərbaycan arxeologiyasının dan ulduzu Güllü xanımın işığı daha parlaq görünür.

# BİZİM MÜSAHİBƏ
# OUR INTERVIEW
# НАШЕ ИНТЕРВЬЮ

## AXTARIŞLARDA KEÇƏN ÖMÜR

***Qüdrət müəllim, necə oldu ki, siz məhz bu sahəni seçdiniz?***

Uşaqlıqdan mənim qədim tarixə marağım var idi və azdan-çoxdan bilirdim ki, tarix elminin ən maraqlı sahələrindən biri arxeologiyadır. Arxeoloq, elə mən özüm ümumiyyətlə təbiəti, açıq səma altında işləməyi çox sevən bir adamam, arxeologiya da bu cəhətdən üstün imkanlara malikdir. Mən bu sahəyə sevə-sevə gəlmişəm. Təəssüf ki, mənim oxuduğum illərdə universitetdə Arxeologiya ixtisası götürülmüşdü və mənim ixtisaslaşmam beynəlxalq münasibətlər üzrə oldu. Diplom işim "Alman faşizminin II Dünya müharibəsi ərəfəsində xarici siyasəti" oldu. Yaxşı, maraqlı işlər yazırdım, ancaq bununla belə arxeologiya heç vaxt fikrimdən çıxmırdı. Bu sahədə mənə universitetdə arxeologiya fənnindən dərs deyən görkəmli arxeoloq Qara Əhmədovun böyük rolu oldu. Azərbaycanın ucqar dağ bölgələrindən birində



müəllimlik edərkən oranın tarixi abidələrini öyrənirdim və məktəbliləri də bu işə cəlb etmişdim. "Qədim abidələri öyrənən" dərnək də yaratmışdım. O vaxt ən az öyrənilən bölgə idi və mən gəncləri, uşaqları dəvət etmişdim. Eyni zamanda qəzetlərə məqalələr yazırdım və bunun nəticəsində məni Akademiyaya dəvət etdilər. Müəllimliyi sevsəm də mən bu sahəyə qayıtmalıydım və qayıtdım.

***Arxeologiya macəralarla dolu bir elmdir. "Arxeoloqun çöl gündəliyi" adlanan kitabınızı oxudum və orada mənim ən çox diqqətimi çəkən "İşpiyon əhvalatı" oldu... Qüdrət müəllim, o an nə hisslər keçirtdiniz?***

Mənim işlədiyim bölgə Sovetlər məkanında Qırmızı imperiyanın cənub sərhədlərinin bir hissəsi idi. O vaxt sərhəd bölgələrə nəzarət güclü idi. Arxeoloji tədqiqat aparan zaman çox vaxt elə olurdu ki, ucsuz-bucaqsız çöllərdə tək qalırdım. Şübhəsiz ki, bu diqqəti cəlb edirdi ki, "bu kimdir, burada nə iş görür?"... suallarını doğururdu. Belə hallarda adətən sənədləri təqdim edib keçirdim. Amma bir dəfə mənim bəxtimə naşı adam düşdü (gülümsəyir). Heç cür məni başa düşmək istəmirdi. Təbii ki, əsəb hissi keçirtdim.

***Arxeoloq olmağın sizə görə üstünlükləri nələrdir?***

Arxeoloq olmağın üstünlüyü ondan ibarətdir ki, qeyri-adi hiss və düşüncələrlə yaşayırsan, bayağılıqdan uzaq düşürsən... Təsəvvür edin ki, mən 3, 5, 10 min il, bəlkə daha çox bundan əvvəl ulu babamın keçdiyi yoldan keçirəm, o yolu öyrənirəm, keçmişdə baş verən hadisələri yaşayıram, qəribə hadisələrin şahidi oluram. Yaxşı, pis əməllərdən nəticə çıxardıram, yaxşını davam etdirmək, pisin baş verməsinə yol verməməyə çalışıram. Insan Arxe-



ologiya ilə zənginləşir..

***Adətən sənəti biz seçirik, bəzən də deyirlər sənət, peşə məni seçib... Siz nə deyə bilərsiz Qüdrət müəllim, sizcə Arxeologiya hansı tipə aiddir ,- onu seçirlər yoxsa o seçir insanları?***

Mənə elə gəlir ki, Arxeologiyanı mən seçirəm, amma arxeologiya özü imtahandan keçirir məni, sınaqdan keçib keçməməyimiz arxeologiyanın üstünə düşür.

***Elə bir gənc arxeoloq və ya tələbələrinizdən kimsə varmı ki, onu Qüdrət İsmayılzadə davamçısı kimi görürsünüz. Bu sahədə ona kömək edirsiniz?***

Bəli var: Orxan Zamanov, Pərviz Qasımov, Sevinc Şirinli, Yaqub Məmmədov və başqaları. Əsas da Orxan Zamanov xüsusi seçilir. Çünki onun öz pinsipləri var və mən bu halı yüksək qiymətləndirirəm. Adlarını çəkdiyim bu arxeoloqlar Arxeoloya elminə ürəkdən bağlıdırlar. Özləri müstəqil şəkildə ən çətin, ağır mövzuları götürür və araşdırırlar. Onlardakı məsuliyyət hissini yüksək qiymətləndirirəm.

***Xəzər Universitəsində müəllim kimi fəaliyyət göstərmisiz, eyni zamanda da 1999-cu ildən Xəzər Universitəsində nəşr olunan "Azərbaycan Arxeologiyası" jurnalının baş redaktorusuz. Niyə məhz Xəzər ?***

Xəzər Universitəsində mən həmişə səmimi, xoş münasibət görmüşəm, təhsilə, elmə xüsusi maraq, qayğı görmüşəm, həm də Xəzərin əməkdaşlarını



sevmişəm, istər elmi, istərsə də mədəni cəhətdən çox yüksək səviyyəli insanlardır. Tələbələrə gəldikdə müasir tələblərə uyğun, geniş dünyagörüşünə malikdirlər və təbii ki, bir pedaqoq kimi onlarla işləmək daha maraqlı, daha məqsədəuyğundur.

***Azərbaycanı bir çox beynəlxalq tədbir və konfranslarda təmsil etmisiniz...Ən əhəmiyyətli və maraqlı xarici səfəriniz?***

Xoşbəxtlikdən dəfələrlə Azərbaycan Arxeologiyasını xarici ölkələrdə təmsil etmişəm. Etiraf edim ki, xaricdə məni daha yaxşı tanıyırlar. Postsovet məkanında beynəlxalq Troya qazıntılarında ilk dəfə iştirak edən sovet alimi olmuşam. Qaraqum səhrasında Altıntəpə və Qonurtəpə ekspedisiyalarında iştirak etmişəm. Vaxtilə Ştutqartda Tübingen universitetində Azərbaycanın zəngin arxeoloji irsindən mühazirələr oxumuşam. Türkmənistan Prezidenti yanında qədim Şərqi mədəni irsini öyrənən beynəlxalq şuranın üzvü olmuşam. Qırğızıstan respublikasının beynəlxalq arxeoloqlar assosiasiyasına üzv seçilmişəm. Hal-hazırda Sankt-Peterburqun vaxtilə böyük sələfim Mirzə Cəfər Topçubaşovun başçılıq etdiyi Rus İmperiya Arxeologiyası Cəmiyyətinin Şərq bölməsinin başçısıyam. Bir neçə il bundan əvvəl Tokio Universitetində Azərbaycan Arxeologiyasının problemləri ilə bağlı məruzələr də oxumuşam.

Bir dəfə Astana şəhərində, beynəlxalq simpoziumda "Azərbaycan tarixində türk dövrü" məruzəsi ilə çıxış etdim. Elmi ictimaiyyətə təqdim etdiyim mənbələr, xüsusən bu dövrlə bağlı olan Qobustan təsvirləri böyük diqqətə və marağa səbəb oldu. Azərbaycan vaxtilə Böyük Çin səddindən tutmuş Qara dəniz sahillərinə qədər uzanan Türk dünyasının ayrılmaz bir hissəsi olub. Təssüf ki, sovet dövründə bu tarixi dövr və həqiqət Azərbaycan tarixindən silinmiş, yaddan çıxarılıb və hətta yasaq olunmuşdu. Bununla bağlı, diqqətə çatdırdığım tarixi mənbələr simpozium iştirakçılarını çox maraqlandırdı və məni bu sahədə daha dərin tədqiqat aparmağa sövq etdirdi. Bəlkə də elə buna görə də Türk dövrü problemi hal-hazırda mənim və bir çox tələbələrimin araşdırdığı mühüm vəzifələrdən biridir.

***Yaponiyadan söz düşmüşkən, oğlunuz Gursel İsmayılzadə dünyanın ikinci ən güclü dövlətində - Yaponiyada Azərbaycanı təmsil edən səfirdir. Belə bir qüdrətli dövlətdə gündən-günə çiçəklənən Azərbaycanı təmsil edən səfir atası olmaq necə bir hissdir Qüdrət müəllim?***

İstər-istəməz Azərbaycanı uzaq bir ölkədə, eyni zamanda dünyanın nüfuzlu bir ölkəsində təmsil edən bir şəxsin atası olmaq... Əlbəttə qürur hissi keçirdirəm. Yaponiya kimi böyük, qədim, nəcib mədəni ənənələrə malik olan ölkədə Azərbaycanı lazımi səviyyədə təmsil edən bir oğulun atası olmaq əlbəttə ki, məndə qürur hissi oyadır, həm də bir az həyəcan, narahatlıq hissləri də olur. Müəyyən təbii hadisələrlə (qasırğa və s. kimi) bağlı bir ata kimi narahatçılıq hissi keçirdirəm. Mən gənclərimizə tövsiyyə edirəm ki, öz

arzuladıqları peşənin arxasıyla inamla, səbrlə, iradəylə getsinlər, heç vaxt ruhdan düşməsinlər, dözümlü olsunlar və o zaman öz məqsədlərinə çatacaqlar.

***Bildiyim qədəri ilə müxtəlif xalqların poeziyası və incəsənəti ilə maraqlanırsınız. Arxeologiyada da müəyyən qədər poeziya, macəra, romantika var. Bu arxeologiya ilə bağlıdır ya sizin təbiətinizdən irəli gəlir?***

Çox güman ki, bu təbiətimdən irəli gəlir. Uşaqlıqdan poeziyanı sevmişəm, çoxları elə bilir ki, özüm də şeir yazıram. Təəssüf ki, belə iş məndən uzaqdır. Məktəb vaxtlarımdan çoxlu mütaliə edirdim, kitabxanalarda çox vaxt keçirirdim. Öyrəndiyim hər şeyə görə məktəb müəllimlərimə və kitabxana işçilərinə borcluyam, minnətdaram. Hansı ölkədə oluramsa onların adamlarını öz poeziyaları ilə heyrətləndirməyi bacarıram. İspaniya poeziyasından Federiko Qarsia Lorka, Yaponiya poeziyasından İşikava Takuboku kimi nümayəndələri misal göstərə bilərəm ki, bunların həyat və yaradıcılığı mənə daha çox yaxındır. Takubokunun yubileyi ilə bağlı onun Yaponiyadakı ev muzeyinə dəvət olunmuşdum. Orada onun şərəfinə geniş park salınıb, parkın içərisində ayrı-ayrı nəhəng qranit daşlarda onun bütün şeirləri həkk olunur. Mən onun şeirlərini əzbərdən oxuyanda həmin şeirin yazıldığı daşı tapıb mənə göstərirdilər və bundan fərəhlənirdilər. Uzaq Azərbaycandan gələn alim dərin hisslərə malik olan şairimizi necə də gözəl tanıyır. Bundan başqa Mirzə Şəfi Vazehin poeziyasını da çox sevirəm. Onun dərin mənalı şeirləri vardır:

Mənim həyat üzüyümün qaşısan,
Bu üzüyün bəzəyisən, daşısan
İnan bütün mahnılarım sənindir,
Ürəyə bax neyləyirsən yaşı sən?

Ümumiyyətlə, istər şeirlərdə, istərsə də mahnılarda mənim üstünlük verdiyim cəhət onların insanı düşünməyə vadar etməsidir. İncəsənətdə plastikanı çox sevirəm... Oturub saatlarla klassik baletə baxa bilərəm.

***Qüdrət müəllim, hansı peşənin sahibi olmasından asılı olmayaraq insanları həmişə şəxsi həyat, mükəmməl insan xarakteri, gündəlik həyat tərzi daha çox maraqlandırır. Sizi də bu səpkidə daha yaxından tanımağı çox istərdik. Sualları bir qədər başqa istiqamətə yönləndirək. Qüdrət müəllimin ən sevimli məşğuliyyəti?***

Mütaliə, torpaqla iş və nəvələrimlə birgə olmaq.

***Sevdiyiniz kitab hansıdır?***

“Ovod”, “Dumanlı Təbriz”, “Pyer və Lyus”.

***Sevdiyiniz rəng?***

Sarı.

***Qüdrət müəllimin təbiətinə ən yaxın olan fəsil?***

Fəsillərdən ən gözəlidir payız... Ruha sakitlik, duyğularımıza isə inanılmaz zövq verir..Ətrafımızda o qədər gözəlliklər var ki,insan baxmaqdan doymur.İlahinin insanlara bəxş etdiyi bütün rəng çalarlarını bu fəsildə görmək olar. Gözəl Bakımızda payızı duymaq,onu hiss etmək,onunla iç-içə yaşamaq bir başqa zövq verir...Ayaqlar altında yarpaqların xışıltısını duymaq, xəyallara dalmaq, yenicə yağmış yağışın altında islanmaq insanı sanki yenidən doğulmuş kimi edir. Payız duyğuların dilə gəldiyi,sevgilərin etiraf edildiyi fəsildir.... Payız həzin bir musiqidir. Çoxları düşünür ki, payız ayrılıq fəslidir. Məncə yox, payız sevgi, romantika fəslidir.

***"Çöldən külək kimi, çaydan sel kimi***
***Gördüm bu gün yenə keçən ömrümü.***
***Qayıtmayan günün, gəlməmiş günün***
***Dərdilə inləməz qəlbimin simi."***

***Ömər Xəyyamın bu misraları Sizin kitabınızda öz əksini tapıb. Keçmişi qaytarmaq istəyiniz olubmu?***

Gözəl şairimiz Mir Mehdi Seyidzadənin böyük məhəbbət və ustalıqla, sadə və rəvan bir dildə doğma dilimizə çevirdiyi Ömər Xəyyamın rübailərindəndir. Heç vaxt keçmişi qaytarmaq arzusunda olmamışam. Ümumiyyətlə, keçmişlə yaşayan insan deyiləm. Gözəl günlərimiz də olur, acı günlərimiz də... Bunlar insanda xatirə olaraq qalır. Hər dövrün, hər vaxtın öz gözəlliyi var, keçmiş adından da göründüyü kimi keçib artıq. İnsan çalışmalıdır ki, bu gününü gözəl, mənalı yaşasın, keçmişini unutmasın, gələcəyə inansın. Keçmişi qaytarmaq istəməzdim.

***İnsanda nəyi bağışlaya bilmirsiniz?***

Xəyanəti. Doğma torpağa, ata-anaya, yaxın dost-tanışa, sevdiyin insana qarşı xəyanəti heç cür bağışlamıram.

***Dosta, dostluğa inanırsınızmı?***

Yox.

***İki övladınız, gözəl nəvələriniz var. Hər bir valideynin öz övladı ilə bağlı arzusu olur. Ən çox da sənət, peşə seçimi ilə bağlı... Sizin arzunuz nə idi; Övladlarım həkim olsun, müəllim olsun.... və ya Sizin kimi arxeoloq olsun?***

Təbii ki, istərdim ki, mənim sənətimi davam etdirsinlər. Amma belə olmadı. Buna görə heç vaxt təəssüf hissi keçirtməmişəm, oğlum diplomat, qızım türkoloqdur və onlar öz seçdikləri sahələrdə uğur qazanıb özlərini təsdiq ediblər. Mən həmişə onlarla fəxr etmişəm. Ümumiyyətlə, insan gərək öz sevib seçdiyi peşənin arxasınca getsin. Həyat yoldaşım Sevil xanım gözəl ədəbiyyatçı və dilçi idi... Ana dilini tədris edirdi və onu çox sevirdi.

***Geriyə dönüb baxanda istər şəxsi həyatınızda, istərsə də peşənizdə heç peşmançılğınız, təəssüf hissi olubmu?***

Saysız-hesabsız. Amma qismət... Ümumi götürsək mən həyatımdan, ailəmdən, sənətimdən çox razıyam. Ən əsası onu deyə bilərəm ki, mən həyatımı boş yerə sərf eləməmişəm, müəyyən qədər əməyim, xidmətim olubsa xalqıma, dövlətə, gənc nəsillərə bu özü böyük xoşbəxtlikdir.

***Qüdrət müəllim, müsahibəyə görə çox sağ olun.***

***Müsahibəni apardı***
***Aygün Qəşəmova***

# XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR
# CHRONICLES, REVIEWS, INFORMATIONS
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ

Azərbaycan Arxeologiyası
jurnalı təbrik edir:

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
“Daş dövrü arxeologiyası” şöbəsinin aparıcı elmi
işçisi, Tarix üzrə fəlsəfə doktoru

## *Firuzə Məmmədrza qızı Muradovaya*

Hörmətli Firuzə xanım!

“Azərbaycan Arxeologiyası” jurnalı Sizi, Qobustanın görkəmli tədqiqatçısını, səmimi və qayğıkeş insanı əlamətdar yubiley münasibəti ilə təbrik edir, Sizə möhkəm can sağlığı, böyük yaradıcılıq nailiyyətləri və sevinc dolu uzun illər arzulayır.